# İMANI TEZ ANLAMAQ-2

Rəbbinin doğru yolu budur. Artıq Biz ayələri düşünən bir qövmə izah etdik. (Ənam surəsi, 126)

HARUN YƏHYA
(ADNAN OKTAR)

# MÜNDƏRİCAT


1. Möminlərin təvazökarlığı necə olur?
2. Boş və faydasız şeylərdən uzaqlaşmaq necə olur?  Nələr "Boş və faydasız"dır?
3. Quranda təmizlik anlayışı necədir?
4. Quranda mənəvi təmizlikdən də bəhs edilirmi?
5. Quranda qısqanclığın yeri nədir?
6. Quranda "istehza" ilə əlaqədar olaraq bildirilənlər nələrdir?
7. İnsanlara çirkin ləqəblər qoşmağın Qurandakı yeri nədir?
8. Quranda dedi-qodunun yeri nədir?
9. Hər hansı mövzuda ümidsizliyə qapılmaq nə üçün doğru davranış deyil?
10. Quranda emosionallığın yeri varmı?
11. Quranda ixlas və səmimiyyət anlayışı necədir?
12. Möminlər hadisələr qarşısında kədərlənirlərmi?
13. Möminlər qəzəblənərmi?
14. Möminlər səhv edərmi?
15. Quranda möminlərə əmr edilən ədalət anlayışı necədir?
16. Allahı anmaq necə olur?
17. Qiyamət günü Quranda necə təsvir olunur?
18. Qiyamət günü inkar edənlərin vəziyyəti necə olacaqdır?
19. Möminlər sayca çoxdurlarmı?
20. Axirətdə möminləri necə qarşılama gözləyir?
21. İnkarçılar din gününü necə tanınacaqlar?
22. Möminlərin xəstəlik və çətin anlarında rəftarı necə olar?
23. Möminlərin gördükləri işlərdə bir-birləriylə məsləhətləşmələrinin faydaları nələrdir?
24. Quranda bəhs edilən hekayələrin izah edilmə səbəbləri nələrdir?
25. Keçmişdəki qövmlər necə həlak edilmişlər?
26. Kimə nəsihət verilər?
27. Nəsihətə ən yaxşı cavab necə verilər?
28. İnfaq nə deməkdir?
29. İnfaq edərkən ən gözə rəftar necə olmalıdır? İnfaq necə edilir?
30. Hərisliklə mal yığmağın və ya xəsislik etməyin Allah qatında qarşılığı nədir?
31. Zənginliyin axirətdə hər hansı faydası olacaqmı?
32. Nəfsini müdafiə etməmək necə olur?

33. Dünyanı həyatına necə qapılmamaq olar?

34. Bu dünya həyatına razı olanların vəziyyəti necə olacaqdır?

35. İnsan həyatını tamamilə Allah üçün yaşaya bilərmi?

36. Nə üçün insan özünü yetərli görməməlidir?

37. Dində məcburiyyət varmı?

38. Xeyirlərdə yarışmaq nə deməkdir?

39. Mömin nələrə səbir edər?

40. İnkarçılara da bu dünyada mal-mülk verilməsinin hikməti nədir?

41. İnkarçılar etdikləri əməllər üçün niyə dərhal cəzalandırılmazlar?

42. İnkarçıların dünyada uğradıqları son necədir?

43. Cəhənnəmə kimlər girəcək?

44. Cəhənnəmdəki peşmanlığın faydası varmı?

45 Cəhənnəmdə oddan başqa əzablar varmı?

46. Cəhənnəmdə inkarçılara yemək və içmək olaraq nə veriləcəkdir?

47. Cəhənnəm dərəcə dərəcədirmi?

48. Cəhənnəm və cənnət əhli bir-birini görəcəklərmi?

49. Cənnətdə necə həyat olacaq?

50. Cənnətdə mənəvi ortam necə olacaq?

51. Nəfsini ilah etmək necə olur?

52. Şeytan insanı azdırmaq üçün hər zaman fəaliyyətdədirmi?

53. İçimdən keçirdiyim hər şey Allah qatında məlumdurmu?

54. İnsanın qəlbinin təmiz olması və insanlara qarşı yardım sevər olması cənnətə girmək üçün kifayətdirmi?

55. Allaha hicrət etmək necə olur?

56. Quranda "ataların dini" ifadəsi nə deməkdir?

57. İslamda qadın və kişi bərabərdirmi?

58. Qulağı və gözü möhürlü insan necə olur?

59. Quranda fitnə nə deməkdir?

60. Münafiq kimdir?

61. Münafiqləri tanıya biləcəyimiz əlamətlər varmı?

62. Qurana görə "cahil insan" kimdir?

63. Quranda insanın yaradılışı necə izah edilir?

64. Allahın dininə dəvət hansı şəkildə olar?

65. Gündəlik həyatda insan necə dərin düşünə bilər?

66. Dərin düşünməyə nələr mane olar?

67. Düşünməkdən qaçan insanlar necə itkiyə məruz qalarlar?

68. Yaradılanlar üzərində düşünmək insana necə faydalar təmin edər?

69. Allahın qədrini layiqincə təqdir etmək necə olar?

70. İnsan səhv etdiyində və ya unutduğunda nə etməlidir?

71. Tarixdə yaşayan bütün cəmiyyətlərə elçi göndərildimi?

72. İnkarçılar tarix boyunca niyə bütün peyğəmbərlərə böhtan atmışlar?

73. İnkarçıların bu səyləri nəticə verərmi?

74. Möminlərin dünyadakı həqiqi dostları kimdir?

75. Möminlərdən başqası nə üçün dost seçilə bilməz?

76. Şeytanı dost tutanlar kimlərdir?

77. İnsan dünyada ikən cənnətə gedəcəyindən əmin ola bilərmi?

78. Quranda bəhs edilən "öndə gələnlər" kimlərdir?

79. "Saleh əməl" nə deməkdir?

80. Mömin zənginləşdiyi zaman rəftarı necə olar?

81. Hikmət sahibi olmaq nə deməkdir?

82. İsraf Quranda necə bəhs edilir?

83. Mələklərin insanların canını alması necə olur? İnsan canı alınarkən mələyi görərmi?

84. Vəsvəsə nədir?

85. İnsan vəsvəsədən necə xilas olar?

86. Quran oxunarkən nə edilməlidir?

87. Quranı oxumaq kifayətdirmi?

88. Din hansı istiqamətləriylə sülh və hüzuru təmin edər?

89. Quranda nəsihət edilən ticarət əxlaqı necədir?

90. Təvəkkülsüzlüyün insan ruhunda yol açdığı zərərlər nələrdir?

91. Feli dua necə edilər?

92. Bəzi cəmiyyətlərdəki degenerasiya ilə dinsizlik arasında əlaqə nədir?

93. Cinlər necə varlıqlardır? Cinlərin də iman edəni və ya etməyəni varmı? Axirətdə onların da yaşayacağı cənnət və cəhənnəm olacaqmı?

94. Cinlər gələcəkdən xəbər verə bilərmi?

95. Yer üzündə ilkin həyatın necə yarandığına dair suallara cavabı fosil qeydlərinə baxaraq tapmaq olarmı?

96. Milyonlarla il bundan əvvəl yaşayan canlılar necə quruluşlara sahib idilər?

97. Dinozavrların milçək tutmaq istəyərkən qanadlandığını iddia edən təkamülçülər milçəklərin mənşəyini açıqlaya bilərmi?

98. Fil, sincab və digər məməlilər tək kökdən törəyə bilərmi?

99. Canlı hüceyrələr təsadüfən meydana gələ bilərmi?

100. Hüceyrənin nüvəsində olan DNT molekulunun təsadüfən formalaşması mümkündürmü?

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# 1. Möminlərin təvazökarlığı necə olur?

Təvazökar olmaq Quranda mühüm mömin əxlaqı olaraq bildirilmişdir. Allah ayələrində möminlərə təvazökar olmağı əmr edir. Allahın təkəbbürlənən və öyünüb azğınlıq edənləri sevmədiyi də ayələrdə xəbər verilir.

Möminlər, Allahın hər şeyi yaratdığını, hər şeyin tək sahibi olduğunu və insanlara bütün nemətləri verənin O olduğunu bilən insanlardır. Buna görə mömin Allahın qarşısında acizliyinin fərqində olduğu üçün yersiz təkəbbür və qürur göstərməz. Nə qədər gözəl, zəngin, zəkalı və ya etibarlı olsalar da, bunlardan ötrü təkəbbürlənməz, çünki bunları ona Allahın verdiyini bilir. Buna görə möminlərə qarşı münasibəti də həmişə təvazökar olar. Öz xüsusiyyətlərini ön plana çıxarmağa, daima gözəl cəhətlərini vurğulamağa çalışmaz. Çünki, etdiyi hər şeyin qarşılığını yalnız Allahdan gözləyər.

Yer üzündə inkarçıların təkəbbürlənməsinin əksinə, təvazökar möminlər təvazökar davranar və bu təvazökarlıqları onların xarici görünüşlərində də əks olunar. Allah, möminlərin təvazökarlığına ayəsində belə diqqət çəkmişdir:

**Mərhəmətli Allahın qulları o kəslərdir ki, onlar yer üzündə təvazökarlıqla gəzər, cahillər onlara xoşagəlməz bir söz dedikdə: “Salam!” – deyərlər. (Furqan surəsi, 63)**

Bu əxlaqlarının nəticəsində Allah möminləri cənnətlə müjdələmişdir:

**... Sizin məbudunuz Tək olan İlahdır. Yalnız Ona itaət edin. Sən müti olanlara müjdə ver. (Həcc surəsi, 34)**

# 2. Boş və faydasız şeylərdən uzaqlaşmaq necə olur? Nələr “Boş və faydasız”dır?

"Boş və faydasız şeylərdən uzaqlaşmaq" insanın sadəcə Allahın razılığını qazanacağı davranışlar göstərməsilə mümkün olar. Mömin dünyada ona verilən zamanı çox yaxşı dəyərləndirməli olduğunu bilir. Çünki bu dünyada etdiyi işlərin nəticəsində, axirətdə sonsuza qədər yaşayacağı yer müəyyən olacaqdır. Buna görə, hər etdiyi işlə axirətə istiqamətli xeyir qazanmağa çalışır. Əlbəttə, hər insan kimi danışır, əylənir, yemək yeyir, gülür, düşünür, işləyir, amma bunları edərkən ağlında həmişə insanlara, dinə mənfəət təmin edəcək xeyirli düşüncələr vardır.

Həmçinin, etdiyi hər hərəkət məqsəd daşıyar. Həmişə ona Allahın məmnuniyyətini ən çox qazandıracaq işə yönələr. Bu mövzuya belə nümunə verə bilərik: Avtomobil mühərriklərinin gücü haqqında söhbət etmək hər insanın edə biləcəyi şeydir. Ancaq mömin, etməli olduğu daha vacib işlər varkən, saatlarla bu mövzu üzərində danışmaz. Eyni şəkildə mömin, yanında Allahın dinini izah edə biləcəyi insan varkən, onunla uzun müddət idman yarışında hansı tərəfin

qazanacağı üzərində də danışmaz. Çünki o anda xeyirli olan, o insanın Allahın varlığını, böyüklüyünü, cənnətə layiq ola bilmək və cəhənnəmdən çəkinmək üçün nələr etməli olduğunu öyrənməsidir.

Qısacası mömin, dinin və müsəlmanların mənfəətini maraqlandırmayan mövzularda nə uzun müddətli söhbət edər, nə də bu mövzulara lazım olduğundan çox vaxt ayırar. Dünya ilə əlaqədar hər mövzuda yaxşı seçim edərək, zamanını çox yaxşı dəyərləndirər. İçində olduğu anda nəyin "boş iş", nəyin faydalı şey olduğunu isə vicdanından və ağlından istifadə edərək ayırd edər və bu mövzuda güzəştə getməz. Quranda möminin "boş söz"lə qarşılaşdığında göstərdiyi rəftarı belə xəbər verilir:

**Onlar lağlağı eşitdikləri zaman ondan üz çevirib: "Bizim əməllərimiz bizə, sizin əməlləriniz də sizə aiddir. Sizə salam olsun! Biz cahillərə qoşulmaq istəmirik!" – deyirlər. (Qəsas surəsi, 55)**

## 3. Qurandakı təmizlik anlayışı necədir?

Möminlər fiziki cəhətdən təmiz insanlardır. Bədənləri, yedikləri yeməklər, geydikləri paltarlar, yaşadıqları mühitlər həmişə təmizliyi və səliqəsi ilə nəzərə çarpar. Olduqları hər yeri Quranda təsvir olunan tərtəmiz cənnət ortamlarna bənzətməyə çalışarlar.

Aşağıdakı ayələrdə Allah, möminlərin təmizlik anlayışının necə olduğuna diqqətə çəkir:

**Geyimini təmiz saxla! Pis şeyləri tərk et! (Müdəssir surəsi, 4-5)**

**Ey iman gətirənlər! Sizə ruzi kimi verdiyimiz pak şeylərdən yeyin... (Bəqərə surəsi, 172)**

**..."Mənə heç bir şeyi şərik qoşma, evimi təvaf edənlər, namaza duranlar, rüku və səcdə edənlər üçün təmizlə!" – demişdik. (Həcc surəsi, 26)**

## 4. Quranda mənəvi təmizlikdən də bəhs edilirmi?

Allah Quranda insanın ruhən təmiz olmasından da bəhs edər. Nəfsindəki pisliklərdən uzaq duran, nəfsini təmizləyən insanların nicat tapacağına diqqət çəkər:

**Ona günahları və Allahdan qorxmağı təlqin edənə! Nəfsini günahdan təmizləyən uğur qazanmışdır. (Şəms surəsi, 8-9)**

İnsanın mənəvi cəhətdən təmiz olması, ayədə bildirildiyi kimi nəfsinin əmr etdiyi pisliklərdən tamamilə uzaq durması ilə mümkün olar. Mənəvi cəhətdən təmiz olan insan, səmimi imana, hüzurlu ruh halına sahibdir. Etdiyi hər iş kimi, hər düşüncəsi də təmiz və gözəldir. Qarşısına çıxan hər hadisədə Allahdan razı olmuş rəftar göstərir. Daxili ilə xarici birdir. Həmçinin Allahdan gələn hər şeyin onun üçün mütləq xeyirli olduğunu bilir.

Belə insanlar nəfslərindəki pisliklərdən təmizlənən insanlardır və Allah Quranda bu insanların gözəl sonla qarşılaşacaqlarını xəbər vermişdir:

**... Sən ancaq Rəbbindən Onu görmədikləri halda qorxanları və namaz qılanları xəbərdar edirsən. Kim günahlardan təmizlənirsə, öz xeyrinə təmizlənmiş olur. Qayıdış də ancaq Allahadır. (Fatir surəsi, 18)**

**Günahlardan təmizlənən kimsə isə uğur qazanmışdır. (Əla surəsi, 14)**

## 5. Quranda qısqanclığın yeri nədir?

Həsəd, Quranda qınanan rəftardır. Allah, sınaq məqsədiylə insanların nəfsini qısqanclığa meyilli olaraq yaratdığını, lakin möminlərin bundan çəkinmələri lazım olduğunu Quranda bildirmişdir:

**... nəfslər xəsislik etməyə hazırdır. Əgər qadınlarla yaxşı davranıb Allahdan qorxsanız, bilin ki, Allah nə etdiklərinizdən xəbərdardır. (Nisa surəsi, 128)**

Bəzi insanlardan "qısqancsanmı" deyə soruşulduqda, onlar “bəli” və ya “bir az” cavabını verərlər. Ancaq bu cavabın arxasında gizlənən mənanı təfərrüatlı olaraq düşünməzlər. Halbuki, qısqanclıq başqasının özündən heç bir istiqamətdə üstün olduğunu qəbul edə bilməməsi nəticəsində ortaya çıxar. Bu isə, insanı Allaha qarşı təkəbbür göstərməyə aparan son dərəcə səhv mövqedir. Çünki insanlara sahib olduqları bütün xüsusiyyətləri verən Allahdır. Dilədiyinə dilədiyi qədər verir, bunu da kimsə əngəlləyə bilməz.

Həmçinin Quranda şeytanın, qısqanclıq üzündən hz. Adəmə səcdə etməyərək Allaha üsyan etməsindən bəhs edilir. Özünü hz. Adəmdən daha üstün gördüyü bildirilir. Bu vəziyyətdə qarşımıza əhəmiyyətli həqiqət çıxar: Qısqanclıq əslində şeytana aid xüsusiyyətdir və Allahdan qorxan insan bundan çəkinməlidir.

Allah Quranda möminlərə, həsəd edən kəslərin etməyə çalışdıqları pisliklərdən qorunmaları üçün Özünə sığınmalarını söyləyir:

**De: “Sığınıram sübhün Rəbbinə! (Fələq surəsi, 1)**

**Və həsəd apardığı zaman paxılın şərindən!” (Fələq surəsi, 5)**

# 6. Quranda "istehza" ilə əlaqədar olaraq bildirilənlər nələrdir?

İstehza, Allahın qətiyyən bəyənmədiyi çirkin davranışdır. Cahillik əxlaqının yaşandığı cəmiyyətlərdə bir çox istehza mövzusu olur. İnsanların əskiklikləri və ya qüsurları ilə lağ etmək, onlara pis ləqəblər qoymaq bu mövzuların başında gəlir. Allah insanları bu çirkin əxlaqa qarşı xəbərdar edir:

**Hər bir qeybət edənin, tənə vuranın vay halına! (Hüməzə surəsi, 1)**

Allahın Quranda diqqət çəkdiyi digər istehza şəkli isə, inkarçıların iman gətirənlərə lağ etməsidir. Qəflət içində olan, iman edənlərin doğru yolda olduğunu qavraya bilməyən bu insanlar özlərini böyük ağılsızlıqla inananlardan üstün görərək onlarla istehza edərlər:

**Doğrudan da, günah edənlər iman gətirənlərə gülürdülər, onların yanından keçdikdə bir-birinə qaş-göz edirdilər. (Mutaffifin surəsi, 29-30)**

Allah bu kəslərin nə qədər böyük səhv anlayışda olduqlarını və uğrayacaqları sonun pisliyini belə bildirir:

**Bu gün məhz iman gətirənlər kafirlərə güləcəklər. Onlar taxtlar üstündə ətrafa baxacaqlar. Kafirlər törətdiklərinin cəzasını aldılarmı?! (Mutafifin surəsi, 34-36)**

Lakin bunların hamısından əhəmiyyətli olaraq Allah Quranda, böyük cəhalətlə dinlə, Allahın ayələri ilə istehza edənlərdən bəhs edir. Bu kəslərin, onlara Allahdan gələn hər xəbərdarlığı, onları xəbərdar edib qorxutmaq üçün göndərilən elçiləri yalan saydıqlarını bildirir. Şübhəsiz bu insanlar Allahın böyüklüyünü, gücünü haqqıyla təqdir edə bilməyən, axirətdə hesab verəcəklərini gözardı edən kəslərdir. Ancaq bu kəslər axirətdə böyük qarışıqlıq yaşayacaq və dünyada etdikləri çirkin istehzalarının qarşılığını sonsuz əzabla alacaqlar. Quranda bu həqiqət açıq şəkildə bildirilir:

**Onlar Rəbbinin ayələrini və Onunla qarşılaşacaqlarını inkar edən, buna görə də bütün əməlləri boşa çıxan kimsələrdir. Odur ki, Qiyamət günü Biz onlara əhəmiyyət verməyəcəyik". Kafir olduqlarına, ayələrimi və elçilərimi lağlağıya qoyduqlarına görə onların cəzası Cəhənnəmdir. (Kəhf surəsi, 105-106)**

**Sonra kimsə deməsin ki: “Allaha qarşı etdiyim etinasızlıqlara görə vay mənim halıma! Həqiqətən, mən dinə və dində olanlara rişxənd edənlərdən idim!”. (Zumər surəsi, 56)**

## 7. İnsanlara çirkin ləqəblər qoşmağın Qurandakı yeri nədir?

Quran əxlaqını yaşamayanlar, özlərini ucaltmaq üçün insanlara pis ləqəblər qoyaraq istehza edərlər, belə ki, qarşılarındakı insanları alçaltmağa çalışırlar. Möminlər isə, heç vaxt belə çirkin rəftara etibar etməzlər. Allah Quranda möminləri çox açıq şəkildə bu çirkin davranışdan məhrum etmişdir, bu əmrə uymayanların da zalımlardan olacağını ifadə etmişdir:

**Ey iman gətirənlər! Bir camaat digərini məsxərəyə qoymasın. Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Qadınlar da qadınları lağa qoymasınlar. Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Bir-birinizə tənə vurmayın və bir-birinizi pis ləqəblərlə çağırmayın. İman gətirdikdən sonra fasiq adlanmaq necə də pisdir. Məhz tövbə etməyənlər zalımlardır. (Hucurat surəsi, 11)**

Quran əxlaqına tabe olan insanlar Allahın bəyənmədiyi bu davranışı heç bir zaman göstərməzlər. Bir-birlərini ən gözəl şəkillərdə çağırmağa diqqət göstərir və bir-birlərinə Allahın səmimi qulu olaraq dərin hörmət bəsləyərlər.

## 8. Quranda dedi-qodunun yeri nədir?

Allah Quranda möminlərə bir-birlərini çəkişdirmələrini qadağan etmiş, bunu çirkin əxlaq olaraq göstərmişdir:

**... Bir-birinizi güdməyin, bir-birinizin qeybətini qırmayın. Sizdən biriniz ölmüş qardaşının ətini yemək istəyərmi? Siz ki, bundan iyrənirsiniz. Allahdan qorxun! Həqiqətən, Allah tövbələri qəbul edəndir, Rəhmlidir. (Hucurat surəsi, 12)**

Ayədəki bu əmrə görə, Allahın dinini yaşayan, bir-birlərinə qardaş kimi olan insanlar belə hərəkəti etməkdən çəkinərlər. Əksinə möminlər bir-birlərini hər zaman gözəlliklə anar, hər zaman möminlərin gözəl cəhətlərini ortaya çıxarmağa çalışarlar, Allaha təslim olmuş insanlarda səhv və qüsur axtarmağa çalışmazlar. Bu səbəbdən din əxlaqından uzaq ortamlarda insanlara böyük sıxıntı verən dedi-qodu, Allahın sərhədlərini qoruyan möminlərin arasında heç vaxt yaşanmayan əxlaq pozuntusudur. Əgər hər hansı mömin, mömin qardaşının əksik və ya səhv rəftarını görsə, bunu o möminin arxasınca başqaları ilə çəkişdirməz. Bunun yerinə möminlər birbaşa bir-birlərinə bu səhv davranışlarını düzəltmələri üçün nəsihət verərlər.

## 9. Hər hansı mövzuda ümidsizliyə qapılmaq nə üçün doğru davranış deyil?

Allahın hər varlığın, hər hadisənin yaradıcısı olduğunu bilən, Onu tanıyıb gücünü təqdir edə bilən insan üçün hər hansı mövzuda ümidsizliyə qapılmaq qeyri-mümkündür. Çünki Allah hər cür çətinliyi aradan qaldıran, bağışlayan, mərhəmət edən, sonsuz qüdrət və məlumat sahibidir. Gündəlik həyatın axışında meydana gələn hər cür əksiklik kimi görünən hadisə, anidən ortaya çıxan problemlər, xəstəliklər, qəzalar, səhvlər, qısacası, insanların ümidsizliyə qapılma səbəbi olaraq gördükləri hər şey həqiqətdə tamamilə Allahın nəzarəti altında reallaşır. Allah hər şeydən xəbərdardır, hər şeyi bilir. Sonsuz ağıl sahibi Allahın taleyi təyin etdiyini bilmək insan üçün ən böyük rahatlıqdır. Məhz bunu qavrayan insane da heç vaxt ümidsizliyə qapılmaz.

Həmçinin mömin dünyada etdiyi hər səhvini düzəldə biləcəyini bilir, buna görə ümidsizliyə düşməz. Necə ki, Quranda insanlara Allahın mərhəmətindən ümid kəsməmələri əmr edilmişdir:

**"...Allahın mərhəmətindən ümidinizi üzməyin. Çünki Allahın mərhəmətindən ancaq kafir adamlar ümidlərini kəsər" (Yusif surəsi, 87)**

**Qullarıma mənim bu sözümü de: "Ey Mənim özlərinə qarşı həddi aşmış qullarım! Allahın rəhmindən ümidinizi üzməyin. Şübhəsiz ki, Allah bütün günahları bağışlayır. O, həqiqətən, Bağışlayandır, Rəhmlidir!" (Zumər surəsi, 53)**

## 10. Quranda emosionallığın yeri varmı?

Emosianallığın Quranda yeri yoxdur. Çünki Quranda əsl olan "ağıl" sahibi mömin olmaqdır. Allah, Ondan qorxub çəkinənləri nemət olaraq "ağıl" sahibi edər. Ağıl sahibi olan möminlər isə, hadisələri hər zaman Allahın Quranda göstərdiyi mütləq doğrular çərçivəsində dəyərləndirirlər. Ağıl və vicdanlarının istiqamətləndirməsiylə doğru qərarlar verirlər. Və bu şəkildə hər mövzunu asanlıqla həll edərlər. Halbuki, emosianallıq ağılı örtən ən əhəmiyyətli faktorlardan biridir. Hadisələrdə ağıldan istifadə edərək deyil, duyğularıyla yaxınlaşan insan doğrunu və yanlışı ayırd edə bilməz. Tərəfsiz qərar verə bilməz, bu səbəbdən ədalətli ola bilməz. İnsanların nə düşündüklərinə əhəmiyyət verdiyi üçün sürətli və məqsədəuyğun qərarlar verə bilməz. Emosional xaraktere sahib olan insanın dəyərləndirmələri Quranın ölçülərinə görə deyil, öz dəyər mühakimələrinə görə olar.

## 11. Quranda ixlas və səmimiyyət anlayışı necədir?

“İxlas”, kəlmə mənası olaraq qatqısız, saf olma deməkdir. Quranda bəhs edilən ixlas anlayışı, insanın qatqısız olaraq könüldən Allaha iman etməsi, Ona qəlbən bağlanması mənasına gəlir. İxlaslı mömin, həyatı boyunca hər şeyi Allahın razılığını əldə etmək üçün edər və qarşılığını da yalnız Allahdan gözləyər. Etdiyi işlərdə, insanların düşüncələrinə görə hərəkətlərini istiqamətləndirmək, insanların gözünə girməyə çalışmaq kimi səmimiyyətsiz hesabları yoxdur. Buna görə hər rəftarı səmimi, qəlbdən və Allahın məmnun olacağı şəkildədir.

Səmimi olan insan əvvəlcə Allaha, sonra da insanlara qarşı dürüst olar. Çünki Allahın hər şeyi görüb eşitdiyini, Onun qarşısında bir gün bütün etdikləriylə hesab verəcəyini və bütün düşüncələrindən, hər cür danışıqlardan, hər cür davranışlarından məsul olacağını bilir. Məhz buna görə möminin yaşadığı dürüstlük və səmimiyyət onun dərin imanının ən əhəmiyyətli göstəricilərindəndir.

Allah Quranda peyğəmbərlərin daima Allahın razılığını axtaran ixlaslı rəftarlarını inananlara nümunə olaraq göstərmişdir:

**Qüdrət və bəsirət sahibi olan qullarımız İbrahimi, İshaqı və Yəqubu da yada sal! Biz onları Axirət yurdunu sadiq ürəklə andıqlarına görə seçdik. Həqiqətən, onlar Bizim yanımızda seçilmiş ən yaxşı kimsələrdəndirlər. (Sadr surəsi, 45-47)**

Həmçinin Quranda, Allaha qarşı səmimiyyətlə yönələn kəslər təriflənmiş və bu kəslərin xeyirli nəticə ilə qarşılaşacaqları müjdələnmişdir:

**Tağuta ibadət etməkdən çəkinib Allaha üz tutanlara müjdə vardır. Qullarımı müjdələ! O kəslər ki, sözə qulaq asıb onun ən yaxşısına tabe olurlar, onlar Allahın doğru yola yönəltdiyi şəxslərdir. Ağıl sahibləri də məhz onlardır. (Zumər surəsi, 17-18)**

## 12. Möminlər hadisələr qarşısında kədərlənirlərmi?

Möminlər hadisələr qarşısında kədərlənməzlər. Çünki Allahın yaratdığı hər hadisə ilə özlərini sınadığını bilirlər. Yolunda getməyən kimi görünən hadisələr qarşısında da təvəkküllü davranarlar və səbir edərlər. Allahın hər şeyi hikmət üzərinə yaratdığını unutmazlar. Quranda bu mövzu ilə əlaqədar belə nümunə verilir:

**Əgər siz Peyğəmbərə kömək etməsəniz, bilin ki, Allah ona artıq kömək göstərmişdir. O vaxt kafirlər onu iki nəfərdən ikincisi olaraq Məkkədən çıxartdılar. O iki nəfər mağarada olarkən onlardan biri öz yoldaşına (Əbu Bəkrə) dedi: “Qəm yemə, Allah bizimlədir!”... (Tövbə surəsi, 40)**

Ayədə görüldüyü kimi Peyğəmbərimiz (s.ə.v) ən çətin görünən ortamda belə yoldaşına kədərlənməməsini tövsiyə etmişdir. Möminlər üçün ən gözəl nümunə peyğəmbər əxlaqı olduğu üçün, onlar da çətin ortamlarda bu gözəl rəftarı tətbiq edərlər.

Möminlərin kədərlənməmələrinin ən əhəmiyyətli səbəblərindən biri də Allahın yaratdığı hər hadisənin özləri üçün xeyirə çevriləcəyini bilmələridir. Allah inanan insanlara dünyada gözəl həyat vəd etmişdir. Bu gözəl həyat içində ömürlərini yaşayan möminlər, Allahın özlərini axirətdə də sonsuza qədər, nemətlərin əsla əskilmədiyi, dünyadakından çox daha gözəl, fövqəladə mükəmməllikdə məkana yerləşdirəcəyini ümid edərlər. Şübhəsiz bu, insan üçün mümkün ola biləcək ən böyük müjdələrdən biridir, həmçinin ən böyük sevinc qaynağıdır. Bundan ötrü də möminlər əsla kədərlənməzlər. Allah möminləri belə müjdələyir:

**Həqiqətən də: "Rəbbimiz Allahdır!" – deyib sonra düz yol tutan kəslərə mələklər nazil olub deyirlər: "Qorxmayın və kədərlənməyin! Sizə vəd olunan Cənnətlə sevinin! Biz dünya həyatında da, axirətdə də sizin dostlarınızıq. Orada sizin üçün nəfsinizin çəkə biləcəyi hər şey hazırlanmışdır. Orada istədiyiniz hər şey vardır. (Fussilət surəsi, 30-31)**

## 13. Möminlər qəzəblənərmi?

Möminlər təbii olaraq hər insan kimi müxtəlif hadisələr qarşısında içlərində qəzəb hiss edə bilərlər. Lakin möminlərin üstün əxlaqlarının ən əhəmiyyətli göstəricilərindən biri, qəzəblərini boğa bilmələridir. Nəzarətsiz qəzəbin özlərinə fayda gətirməyəcəyini, əksinə, qəzəbləndiklərində ağıllı davrana bilməyəcəklərini, ədaləti qoruya bilməyəcəklərini bilirlər. Belə vəziyyətdə həm özlərinə, həm də ətraflarına zərər dəyə biləcək səhv qərarlar verməkdən çəkinirlər. Hamısından əhəmiyyətlisi Allahın belə reaksiyadan razı olmayacağını bilir və Allahın məmnun olmayacağı əxlaq sərgiləməkdən çəkinərlər. Məhz buna görə möminlər səbirli davranırlar, bağışlayıcı rəftar sərgiləyərlər. Allah Quranda möminlərin bu xüsusiyyətini belə tərifləmişdir:

**O müttəqilər ki, bolluq zamanı da, qıtlıq zamanı da mallarından Allah yolunda xərcləyir, qəzəblərini boğur və insanları bağışlayırlar. Allah yaxşı iş görənləri sevir. (Ali İmran surəsi, 134)**

Ancaq "qəzəblərini boğmaq" ifadəsində nəzərdə tutulan passiv, səs çıxarmayan, hər şeyi qəbul edən rəftar olaraq başa düşülməməlidir. Əlbəttə möminlər hadisələr qarşısında lazım olan tədbirləri görərlər, pis davranış, inananlara zərər verə biləcək ortam varsa buna dərhal mane olarlar. Lakin bunu edərkən duyğularına qapılmaz, əksinə ağıllı davranışlar göstərərək həll yolu tapar, qarşı tərəfi düşdüyü səhv vəziyyətdən çıxarmaq, ona doğrunu göstərmək, zərər verəcək ortamı dəyişdirmək üçün çalışarlar.

## 14. Möminlər səhv edərmi?

Quranda ifadə edildiyi kimi möminlər səhv edə bilərlər. Ancaq Allahdan qorxub çəkindikləri və Ona qarşı səmimi olduqları üçün səhvlərində israrlı davranmayıb dərhal bunu düzəldərlər. Allahdan bağışlanma diləyərlər və özlərini səhv olduqları istiqamətdə islah edərək bir daha eyni səhvə yol verməməyə diqqət edərlər. Dünyanın təhsil yeri olduğunu bilərlər və etdikləri səhvlərdən dərs çıxarıb, ibrət götürərək özlərini yetişdirərlər. Allah möminlərin bu gözəl əxlaqını bir çox ayədə tərifləmiş, onları mütləq bağışlayacağını da müjdələmişdir:

**O kəslər ki, bir pis iş gördükdə, yaxud özlərinə zülm etdikdə Allahı xatırlayıb günahlarının bağışlanmasını diləyərlər, – günahları Allahdan başqa kim bağışlaya bilər? – onlar bilə-bilə etdiklərinə görə israr etməzlər. (Ali İmran surəsi, 135)**

## 15. Quranda möminlərə əmr edilən ədalət anlayışı necədir?

Allah möminlərə hadisələri hər zaman ən ədalətli şəkildə, Quranda ifadə etdiyi sərhədlərə görə dəyərləndirmələrini əmr etmişdir. İnsanlar arasında hökm edəcəkləri zaman mütləq ən ədalətli qərarı vermələrini və haqlı olan kim isə onun tərəfində olmalarını bildirmişdir.

Şahidlik etmələri lazım olduğunda yenə ən dürüst və ən ədalətli şahidliyi edərlər. İnsanın bəzən verdiyi qərar və ya edəcəyi şahidlik özünün əleyhinə ola bilər. Ya da yaxınlarından birinin mənfəətinə toxuna bilər. Ancaq Allahdan qorxan insan üçün bunun heç bir əhəmiyyəti yoxdur. Çünki möminlərin işlərində ölçü Allahın rizasıdır. Allahın razı olmayacağı şahidlik etmək və ya qərar vermək bəlkə zahirən o an üçün insana qazanc gətirəcəkmiş kimi görünə bilər. Ancaq Allah razı olmadıqdan sonra əldə edəcəyi dünyəvi mənfəət möminlərə əsla hüzur və xoşbəxtlik verməz, tam tərsinə böyük vicdan əzabına çevrilər.

Bu səbəblə möminlər özləri və ya yaxınları əleyhinə də olsa ədalətli davranarlar. Allah möminləri bunun əksi olan rəftardan belə çəkindirmişdir:

**Ey iman gətirənlər! Şahidliyiniz özünüzün və ya valideynlərin, ya da yaxın qohumların əleyhinə olsa belə, Allah şahidləri olub ədaləti qoruyun. Əleyhinə şahidlik edəcəyiniz şəxslərin varlı və ya kasıb olmasından asılı olmayaraq Allah onların hər ikisinə daha yaxındır. Arzularınıza uyaraq haqdan uzaqlaşmayın! Əgər siz yalan danışsanız və ya həqiqəti deməkdən boyun qaçırsanız, bilin ki, Allah nə etdiklərinizdən xəbərdardır. (Nisa surəsi, 135)**

İnsanların ədalətlə qərar verə bilməmələrinə səbəb ola biləcək digər təhlükə, insanlara qarşı duyduqları qəzəbdir. Əgər insan başqa bir insana qarşı qəzəb və ya kin bəsləyərsə, ona mənfəət təmin etmək, onun xeyrinə hərəkət etmək istəməz. Ancaq möminlər belə vəziyyətdə də Allahın rizasını düşünər və qarşılarındakı insan kim olursa olsun ədalətli davranmaqdan imtina

etməzlər. Çünki Allah iman edənlərə **"...Hər hansı bir camaata qarşı olan kin-küdurət sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun! Bu, təqvaya daha yaxındır..."** (Maidə surəsi, 8) şəklində əmr etmişdir.

## 16. Allahı anmaq necə olur?

Möminlər, Allahın hər an onları gördüyünü və eşitdiyini, qarşılaşdıqları hər hadisəni Allahın yaratdığını bilirlər. Bu səbəblə Allahı bir an olsun ağıllarından çıxarmazlar. Həyatlarının hər anında həm özləri qəlbən Allahı düşünüb xatırlayarlar, həm də digər möminlərlə olan söhbətlərində Rəbbimizin ucalığını, böyüklüyünü, qüsursuz yaratmasını, sənətini zikr edərlər. Möminlərin hər an Allahı zikr edən insanlar olduqları Quranda belə bildirilir:

**O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edir, göylərin və yerin yaradılması haqqında düşünür və deyirlər: "Ey Rəbbimiz! Sən bunları əbəs yerə xəlq etməmisən. Sən pak və müqəddəssən. Bizi Odun əzabından qoru! (Ali İmran surəsi, 191)**

Allahı anmaq, qarşılaşılan hər şeyi, baş verən hər hadisəni Allahın yaratdığını bilmək, Allah mənə bununla nə göstərmək istəyir deyə düşünmək, Allahın yaratmasındakı hikmətləri anlamağa çalışmaq, hər an Allahın ucalığını qavraya bilmək üçün səy göstərmək və bütün bunları digər insanlara da izah etməklə olar. Məsələn, kənardan baxıldığında çətin kimi görünən hadisə ilə qarşılaşdığında təvəkkül edərək səbir edən insan, o an Allahı andığı üçün bu şəkildə davrana bilər. Allahı anan insan Allahı və Onun gücünü heç bir zaman unutmaz və daima məqsədəuyğun hərəkət edər.

## 17. Qiyamət günü Quranda necə təsvir olunur?

Quranda bildirildiyi kimi "... **Həmin Saat hökmən gələcək!...**" (Taha surəsi, 15) və o gün gəldiyində dünya üzərində mövcud olan bütün canlılarla birlikdə ulduzlar, planetlər, qalaktikalar qısacası göylərdə və yerdə olan hər şey yox olacaq. Quranda o gün reallaşacağı bildirilən bəzi hadisələr belədir:

**Göy yarılacaq və həmin gün o, süst olacaqdır. (Haqqə surəsi, 16)**

**Ulduzlar soluxub sönəcəyi zaman (Təkvir surəsi, 2)**

**Günəş və Ay birləşəcək. (Qiyamət surəsi, 9)**

**Dənizlər alovlanacağı zaman. (Təkvir surəsi, 6)**

**O gün yer və dağlar titrəyəcək, dağlar səpələnən qum təpəsinə dönəcəkdir. (Müzzəmmil surəsi, 14)**

**Dağlar isə didilmiş yun görkəmi alacaqdır. (Qariə surəsi, 5)**

**Xeyr! Elə ki yer lərzəyə gəlib parça-parça olacaq, (Fəcr surəsi, 21)**

**Yer ağırlıqlarını çölə atacaq. (Zəlzələ surəsi, 2)**

Bunlar qiyamət günü reallaşacaq dəhşət verici hadisələrdən yalnız bir qismidir. Əsas olaraq o gün, insanın dünyada dəyər verdiyi hər şey yox olacaq, hər kəs Allahın razılığı üçün edilən saleh əməllər xaricində heç bir şeyin qiymətinin olmadığını anlayacaq.

## 18. Qiyamət günü inkar edənlərin vəziyyəti necə olacaq?

Qiyamət günü, insanın yaşaya biləcəyi ən dəhşətli, ən qorxu verici gündür. O gün inkar edənlər özlərinə vəd edildiyi halda heç düşünmədikləri həqiqəti açıq-aşkar qarşılarında görəcəklər. Lakin artıq insanların dünyada etdiklərini düzəltmələri üçün geriyə dönüş imkanları yoxdur. O gün inkar edənlər qorxu içində ölümün əslində yox olmaq deyil, əksinə sonsuza qədər davam edəcək əzabın başlanğıcı olduğunu da anlayacaqlar. Allah Quranda o gün insanların yaşadıqları qorxunun şiddətindən ötrü sanki sərxoş kimi olacaqlarını bildirmişdir:

**...İnsanları sərxoş görəcəksən, halbuki onlar sərxoş olmayacaqlar. Lakin Allahın əzabı hədsiz şiddətlidir. (Həcc surəsi, 2)**

Qiyamət günü inkar edənlərin, yaşadıqları hadisənin dəhşətindən bütün dəyər mühakimələri bir anda dəyişir. Ən dəyər verdikləri mallar, ən qiymətli saydıqları övladlar bir anda bütün əhəmiyyətini itirəcək. Allah Quranda insanların o gün yalnız özlərini qurtarmağa çalışacaqlarını və bir-birlərindən qaçacaqlarını xəbər vermişdir:

**O gün insan qaçacaq öz qardaşından, anasından, atasından, arvadından və övladlarından! O gün onlardan hər birinin yetərincə işi olacaqdır. (Əbəsə surəsi, 34-37)**

O gün insanların düşəcəyi vəziyyətlə əlaqədar ayələrdə bildirilən təfərrüatlardan bir neçəsi belədir:

**... Haqq olan vədimiz yaxınlaşdıqda kafirlərin gözləri dərhal bərələcəkdir.... (Ənbiya surəsi, 97)**

**Onu görəcəyiniz gün hər bir əmzikli qadın əmizdirdiyini unudacaq, hər bir hamilə qadın bətnindəkini salacaqdır. İnsanları sərxoş görəcəksən, halbuki onlar sərxoş olmayacaqlar. Lakin Allahın əzabı hədsiz şiddətlidir. (Həcc surəsi, 2)**

**Əgər küfr etsəniz, uşaqların saçlarının ağaracağı gündən necə yaxa qurtaracaqsınız? (Müzzəmmil surəsi 17)**

## 19. Möminlər sayca çoxdurlarmı?

Allah bir çox ayəsində gerçək mənada iman edən qullarının sayının çox az olacağını bildirir. Bu səbəblə tarix boyunca inanan şəxslərin sayı həmişə çox az olmuşdur və inkarçılar say baxımından həmişə çoxluğu meydana gətirmişlər. Bu vəziyyət möminlərin keyfiyyət, dəyər və üstünlüklərinin də göstəricisidir. Allahın insanların çoxunun inanmayacağı ilə əlaqədar ayələrindən biri belədir:

**Sən nə qədər çox istəsən də, insanların əksəriyyəti iman gətirən deyildir. (Yusif surəsi, 103)**

Bu səbəblə insanın, insanların əksəriyyətini özünə nümunə olaraq götürməsi, çoxluq necə inanırsa o şəkildə inanması onun üçün böyük itki olar. Bu insanlar dünyada çoxluq olsalar da, dünyada ikən mövqelərini və əxlaqlarını dəyişdirmədikləri təqdirdə, axirətdə toplu olaraq cəhənnəmə girməkdən xilas ola bilməyəcəklər.

## 20. Axirətdə möminləri necə qarşılama gözləyir?

Möminlər, ölümlə birlikdə başlayan axirət həyatlarında inkarçıların əksinə, həmişə gözəl rəftarlarla, gözəl danışıqlarla, müjdələrlə qarşılanırlar. "**Ki, mələklər onların canlarını gözəl şəkildə aldıqları zaman...**" (Nəhl surəsi, 32) ayəsiylə xəbər verildiyi kimi, ölərkən canları

gözəl şəkildə alınır. Hər cür qorxuya qarşı böyük təhlükəsizlik içindədirlər. Rəbbinin onlara olan köməyi və fəzli sayəsində asan şəkildə hesaba çəkilirlər. Mələklər tərəfindən cənnətlə müjdələnirlər. Və nəhayət Allahın onlara vəd etdiyi cənnətə gətiriləcəklər:

**Rəbbindən qorxanlar da dəstə-dəstə Cənnətə gətiriləcəklər. Nəhayət, ora çatdıqda onun qapıları açılacaq və onun gözətçiləri onlara deyəcəklər: "Sizə salam olsun! Xoş sizin halınıza! Əbədi qalmaq üçün buraya daxil olun!" Onlar deyəcəklər: "Bizə verdiyi vədini yerinə yetirən və bizi bu yerə varis edən Allaha həmd olsun! Biz Cənnətin istədiyimiz yerində sakin oluruq. Yaxşı əməl sahiblərinin mükafatı necə də gözəldir!" (Zumər surəsi, 73-74)**

## 21. İnkarçılar din günü necə tanınacaqlar?

**Günahkarlar simalarından tanınacaq, kəkillərindən və ayaqlarından yaxalanacaqlar. (Rəhman surəsi, 41)**

Allah yuxarıdakı ayəsində inkar edənlərin din günündə üzlərindən tanınacaqlarına diqqət çəkir. Bir insan dünya həyatında günahsız və ya gözəl görünüşlü üzə sahib ola bilər. Ancaq hesab günü üçün yenidən dirildilən bu insanların o gün sahib olacaqları üzlər üçün Quranda **"zillət içində", "qaraltı bürümüşdür", "toz bürümüşdür"** ifadələri istifadə edilir. Həmçinin inkarçılar kor olaraq həşr ediləcəklər. Gözləri, kor olmaqla yanaşı qorxuncgörünüş də alacaq və Quranda bildirildiyinə görə **"gömgöy"** olacaq. Və hər inkarçı, din günündə bu qorxunc görünüşü ilə təkrar dirildiləcək.

## 22. Möminlərin xəstəlik və çətin anlarında rəftarı necə olar?

Möminlər, dünyada Allahın insanları çətinliklərlə və ya xəstəliklərlə sınadığını bilirlər. Bu səbəblə ən şiddətli xəstəliklə və ya çətinliklə qarşılaşsalar belə, daima təvəkküllü və səbirli davranırlar, heç bir zaman ümidsizliyə düşməzlər. Xəstəliyi və çətinliyi verənin Allah olduğunu və bunları yalnız Allahın aradan qaldıra biləcəyini bilərək dərhal Allaha yönələrlər. Göstərdikləri bu gözəl rəftarların qarşılığında dünyada və axirətdə qovuşmağı Allahdan umarlar. Allah, Bəqərə surəsində möminlərin başlarına gələn çətinliklərə qarşı göstərdikləri gözəl rəftarı belə bildirir:

**Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayarıq. Səbir edənlərə müjdə ver. O kəslər ki, onlara bir müsibət üz verdikdə: "Biz, Allaha məxsusuq və Ona da qayıdacağıq!" – deyirlər. Onlara öz Rəbbi tərəfindən təriflər və mərhəmət vardır. Məhz onlar doğru yolda olanlardır. (Bəqərə surəsi, 155-157)**

## 23. Möminlərin gördükləri işlərdə bir-birləriylə məsləhətləşmələrinin faydaları nələrdir?

Allah Quranda **"Rəbbinin dəvətini qəbul edir, namaz qılır, işləri barədə öz aralarında məsləhətləşir,** ..." (Şura surəsi, 38) ayəsiylə möminlərin işlərini bir-birləriylə məsləhətləşərək etdiklərini bildirir. Belə müşavirənin maddi və mənəvi çox faydalı nəticələri vardır. Hər şeydən əvvəl insanın işində başqası ilə məsləhətləşərək fikrini alması o adamın təvazökarlığını göstərir ki, təvazökarlıq Allahın bəyəndiyi əxlaqdır. Digər faydası isə budur: Bir işdə, bir insan tək başına qərar verəcəyinə bir neçə insan birləşərək daha yüksək ağıl meydana gətirərlər. Birinin düşünə bilmədiyini digəri düşünər, hər kəs bir-birinin əksiyini tamamlayar. Beləcə, alınan nəticə çox daha faydalı olar. Görülən işdə əldə edilən müvəffəqiyyət isə bir deyil, bir neçə insana aid olur. Bu da insanın nəfsinin bu müvəffəqiyyət ilə öyünməsinə, bunu özünə aid müvəffəqiyyət olaraq görməsinə mane olur.

## 24. Quranda bəhs edilən hekayələrin izah edilmə səbəbləri nələrdir?

**Onların rəvayətlərində ağıl sahibləri üçün bir ibrət vardır. Bu Quran uydurulmuş bir kəlam deyildir. Ancaq özündən əvvəlkiləri təsdiqləyən və hər şeyi müfəssəl izah edəndir; iman gətirən bir camaat üçün hidayət və mərhəmətdir. (Yusif surəsi, 111)**

Allah, Yusif surəsindəki bu ayə ilə Quranda izah edilən hekayələrdə ibrətlər olduğunu bildirir. Bu hekayələrdə izah edilən hadisələr möminlər üçün bir çox baxımdan nümunə ehtiva edər. Keçmişdə yaşayanların səhvlərini təkrarlamamaq, keçmişdə yaşamış olan peyğəmbərlərin və möminlərin bəzi vəziyyətlərdə necə davrandıqlarını və necə müvəffəqiyyət əldə etdiklərini görərək nümunə götürmək, onların üstün əxlaqını görərək tətbiq etməyə çalışmaq, keçmişdəki hadisələri və nəticələrini nəzərə alaraq dövrümüzdəki hadisələri qiymətləndirmək kimi bir çox baxımdan bu hekayələrin möminlər üçün böyük əhəmiyyəti var.

## 25. Keçmişdəki qövmlər necə həlak edilmişlər?

Allah keçmişdə yaşamış qövmlərə elçilər göndərmiş, onları axirətin və hesab gününün varlığı ilə xəbərdar edib qorxutmuşdur. Ancaq bu qövmlərin çoxu özlərinə gələn xəbərdarlıqları dinləməmiş, Allaha və elçilərinə qarşı çıxmışlar və dinlərini unutmuşlar. Bunun üzərinə Allah onlara xəbərdarlıq mahiyyətində müxtəlif bəlalar göndərmiş, bunlardan ibrət almayan bir qismini də həlak etmişdir. Bu qövmlərin başlarına gələn bəlalar görünüş olaraq bir-birlərindən fərqlidir. Ancaq əsas xüsusiyyətləri, insanların heç gözləmədikləri bir yerdən, gözləmədikləri bir anda, hətta çox vaxt yuxuları əsnasında gəlməsidir. Haqqında bəhs etdiyimiz bəlalar bəzən bütün şəhəri və ya qövmü yerlə bir etmiş, o şəhərdən əsər-əlamət buraxmamış, insanlar üçün acı və qorxu dolu əzab olmuşdur. Allah Quranda, bir çox ayədə həlak olan qövmləri bütün insanlara ibrət olaraq göstərir:

**Görmürlərmi, özlərindən əvvəl neçə-neçə nəsilləri məhv etdiyimizi və onların bir daha geriyə – bunların yanına qayıtmadığını görmürlərmi? (Yasin surəsi, 31)**

Quranda bəhs edilən bir çox həlak növlərindən bəziləri belədir:

- **Suda boğulma, (İsra surəsi, 103)**
- **Göydən enən əzablar, (Bəqərə surəsi, 59)**
- **Dəhşətli sarsıntı-zəlzələ, (Əraf surəsi, 78)**
- **Sel fəlakəti, (Qamər surəsi, 12)**
- **Dözülməz bir səs, (Hud surəsi, 67)**

- **Palçıqdan daş yağması, (Hud surəsi, 82)**
- **Qulaqları partladan qasırğa, (Qamər surəsi, 19)**
- **İldırım vurması, (Zəriyət surəsi, 44)**
- **Viran qalma ... (Nəcm surəsi, 53)**

## 26. Kimlərə nəsihət verilər?

Allah Quranda kimlərin öyüd alıb düşünəcəklərini bildirmiş və möminlərə də, "**Xatırlatmanın fayda verdiyini görsən, onlara xatırlat!**" (Əla surəsi, 9) ayəsiylə bu xüsusiyyətlərə sahib kəslərə öyüd verməlerini əmr etmişdir. Allahın öyüd vermənin fayda verəcəyini bildirdiyi kəslərin bəzi xüsusiyyətləri belədir:

**... Allaha və Axirət gününə iman gətirənlərə verilən nəsihət budur.... (Talaq surəsi, 2)**

**Allahdan qorxanlar öyüd-nəsihət götürərlər. (Əla surəsi, 10)**

**...Bundan ancaq ağıl sahibləri ibrət alarlar. (Rad surəsi, 19)**

**...Bundan ancaq Allaha üz tutanlar ibrət alarlar! (Mümin surəsi, 13)**

**...Mənim təhdidimdən qorxanlara Quranla öyüd-nəsihət ver. (Qaf surəsi, 45)**

**Sən öyüd verib-xatırlat; çünki xatırlatmaq möminlərə fayda verir. (Zəriyət surəsi, 55)**

## 27. Nəsihətə ən yaxşı cavab necə verilər?

Allah Quranda, "**Aralarında hökm vermək üçün Allahın və Onun Elçisinin yanına çağırıldıqda möminlərin sözü ancaq: "Eşidirik və itaət edirik!" – deməleridir. Nicat tapanlar da məhz onlardır.**" (Nur surəsi, 51) ayəsiylə, möminlərin öyüdə necə qarşılıq verməli olduqlarına işarə edir. Allahdan və Allahın elçilərindən gələn öyüdü eşidərək, buna dərhal uyanları Allah cənnətlə müjdələmişdir. Həmçinin, Allah başqa ayəsində möminlər üçün **"O kəslər ki, sözü dinləyib onun ən gözəlinə uyarlar. Onlar Allahın doğru yola yönəltdiyi kimsələrdir. Ağıl sahibləridir"** (Zumər surəsi, 18) şəklində xəbər verir. Bu ayənin də işarəsiylə möminlər onlara Allaha inanan kəslərdən gələn bütün nəsihətləri qəbul edərlər. Onların özlərinə hər zaman yaxşılığı əmr etdiyini, pislikdən çəkindirdiyini unutmazlar və hər söylədiklərini əksiksiz olaraq, səmimiyyətlə tətbiq edərlər.

## 28. İnfaq nə deməkdir?

İnfaq insanın sahib olduğu malını və imkanlarını Allah yolunda istifadə etməsi deməkdir. İnsan heç bir gələcək narahatlığı duymadan, **"ehtiyacından artıq qalanı"**nı (Bəqərə surəsi, 219) Allah yolunda xərcləməsinin qarşılığında, Allah axirətdə bu insana cənnəti, dünyada isə xərclədiklərinin yerinə bir başqasını verməyi vəd edir:

**De: "Həqiqətən, Rəbbim istədiyi qullarına ruzisini bol edər, istədiyinə də onu azaldar. Nə xərcləsəniz, Allah onun əvəzini verər. O, ruzi verənlərin ən yaxşısıdır!" (Səba surəsi, 39)**

**... özlərinə verdiyimiz ruzilərdən gizli və aşkar xərcləyənlər səmərəsiz olmayacaq bir ticarətə ümid edirlər. (Fatir surəsi, 29)**

## 29. İnfaq edərkən ən gözə rəftar necə olmalıdır? İnfaq necə edilir?

Allah infaqın **"gizli və ya açıq"** (Bəqərə surəsi, 274) olaraq edilə biləcəyini bildirir. Ancaq Allah infaq edənlərin qətiyyən "göstəriş üçün" infaq etməmələrini, infaqlarından sonra qarşıdakı insana sıxıntı verəcək əziyyət etməmələrini və onları minnət altında buraxacaq rəftarlar göstərməməli olduqlarını bildirir. Allah verdiyi nümunələrlə göstəriş üçün infaq edənlərin heç bir qarşılıq almayacaqlarını da xatırladır:

**Xoş söz demək və xətaları bağışlamaq, minnətlə verilən sədəqədən daha yaxşıdır. Allah Zəngindir, Həlimdir. Ey iman gətirənlər! Sədəqələrinizi, özünü camaata göstərmək məqsədilə xərcləyən, Allaha və Axirət gününə inanmayan şəxs kimi minnət qoymaqla və əziyyət verməklə puç etməyin. Bunun məsəli üzərində torpaq olan hamar qayanın məsəlinə bənzəyir ki, şiddətli yağış yağıb onu çılpaq hala salmışdır. Onlar qazandıqlarından heç bir şeyə nail olmazlar. Allah kafir xalqı doğru yola yönəltməz. Mallarını Allahın razılığını qazanmaq və nəfslərini möhkəmləndirmək üçün xərcləyənlərin məsəli təpə üzərindəki bağın məsəlinə bənzəyir ki, ona şiddətli yağış düşdükdən sonra o öz bəhrəsini iki qat verər. Hərgah ona şiddətli yağış düşməzsə, narın yağış da bəs edər. Allah sizin nə etdiklərinizi görür. (Bəqərə surəsi, 263-265)**

## 30. Hərisliklə mal yığmağın və ya xəsislik etməyin Allah qatında qarşılığı nədir?

İnsanlardan bəziləri bütün ömürləri boyunca mal və pul yığıb saxlayarlar və bunları Quranda təsvir edilən xeyirli işlərdə istifadə etməzlər. Böyük ehtirasla, davamlı daha çox mala-mülkə sahib olmaq üçün çalışarlar. Əldə etdiklərini isə Allah yolunda xərcləmək, ehtiyac içində olanları doydurmaq varkən, sırf öz zövqləri uğruna istifadə edərlər. Ehtiyaclarından qat-qat

artığını toplayar və göstərişli bəzi kiçik xərclər xaricində, bunlarla faydalı iş görməyə çalışmazlar. Məhz bu kəslərin axirətdə görəcəkləri qarşılıq çox şiddətli olacaq. Bu cavab Tövbə surəsində belə bildirilir:

**... Qızıl-gümüş yığıb onları Allah yolunda sərf etməyənləri ağrılı-acılı bir əzabla müjdələ. O gün bu yığdıqları sərvətlər Cəhənnəm odunda qızdırılacaq və bununla onların alınlarına, böyürlərinə və kürəklərinə damğa vurulacaq və onlara: "Budur özünüz üçün yığdıqlarınız. Elə isə dadın yığdıqlarınızı!" – deyiləcəkdir. (Tövbə surəsi, 34-35)**

Sahib olduqları şeyləri toplayaraq yığanlar və xəsislik edənlər, Allahın bu dünya həyatında onları sınamaq üçün onlara mal və zənginlik verdiyini qavraya bilməyən, bunlarla dünya həyatına ehtirasla bağlanan insanlardır. Allah heç kimin infaqına ehtiyacı olmayan, bütün zənginliyin tək sahibi olandır. İnfaq edərək Allah Qatından savaba möhtac olan isə insandır. Allah bu gerçəyi başqa ayədə belə açıqlayır:

**Budur, siz Allah yolunda malınızdan xərcləməyə dəvət edilirsiniz. Aranızda isə simiclik edənlər də tapılır. Kim simiclik etsə, ancaq öz əleyhinə etmiş olar. Allah Zəngin, siz isə kasıbsınız. Əgər üz çevirsəniz, yerinizə sizin tayınız olmayan başqa insanlar gətirər. (Məhəmməd surəsi, 38)**

## 31. Zənginliyin axirətdə hər hansı faydası olacaqmı?

Bir insanın nə zəngin olması, nə də dünyada ikən güc və ya iqtidar sahibi olması axirətdə ona heç bir fayda təmin etməyəcək. Bir insanın dünyada istədiyi qədər çox pulu, malı olursa olsun ölü bədəni torpağa basdırıldığı andan etibarən bu sərvəti ona heç bir fayda gətirməyəcək. Əgər inkar edənlərdəndirsə, bütün digər inkarçılarla eyni rəftarı görərək cəhənnəm əzabına atılacaq. Dünyada ikən zənginlikləri səbəbiylə xüsusi rəftar görən bu insanlar, axirətdə bənzəri görülməmiş rüsvayçılıq ilə alçaldılacaqlar. Bu onların dünyadakı zənginliklərindən qaynaqlanan təkəbbürlənmələri və Allahın ayələrini tanımamalarından ötrüdür. Axirətdə insanlar Allaha iman etmələrinə və Allahdan qorxaraq Onun dilədiyi rəftar və davranışları göstərmələrinə görə qarşılıq görəcəklər. Dünyadakı zənginlik ya da mövqeləri özlərinə heç bir imtiyaz təmin etməyəcək. Zənginliyin Allah Qatında heç bir dəyəri olmadığını bildirən ayələrdən biri belədir:

**Biz hansı bir məmləkətə xəbərdarlıq edən peyğəmbər göndərdiksə, onun cah-calal içində yaşayan sakinləri ona sadəcə olaraq: “Biz sizinlə göndərilənləri inkar edirik!” – dedilər. Onlar: “Bizim mal-dövlətimiz də, övladlarımız da daha çoxdur və bizə əzab verilməyəcəkdir” – dedilər. De: “Həqiqətən, Rəbbim istədiyinin ruzisini bol edər, istədiyininkini də azaldar. Lakin insanların çoxu bunu bilmir”. Sizi bizə yaxınlaşdıra biləcək nə var-dövlətiniz, nə də oğul-uşağınızdır. Ancaq iman gətirib yaxşı işlər görənlər istisnadır. Məhz onların mükafatları etdikləri əməllərə görə qat-qat artırılacaq və onlar Cənnətdəki mənzillərində asudə yaşayacaqlar. (Səba surəsi, 34-37)**

## 32. Nəfsini müdafiə etməmək necə olur?

Nəfsi insana pisliyi əmr edər. Nəfsin bu xüsusiyyəti Şəms surəsində belə bildirilir:

**And olsun nəfsə və onu yaradıb kamilləşdirənə, ona günahları və Allahdan qorxmağı təlqin edənə! Nəfsini günahdan təmizləyən uğur qazanmışdır. (Şəms surəsi, 7-9)**

Nəfsin pisliyi əmr etmə sistemini açıqlayan ayələrdən biri də hz. Yusiflə əlaqədardır. Ayədə, hz. Yusifin heç bir günahı olmadığı mövzuda böhtana uğradıqdan sonra belə dediyi bildirilmişdir:

**Mən özümə bəraət qazandırmıram. Çünki, Rəbbimin rəhm etdiyi kəs istisna olmaqla, nəfs adama pis işləri əmr edər. Həqiqətən, Rəbbim Bağışlayandır, Rəhmlidir”. (Yusif surəsi, 53)**

Ayədə də bildirildiyi kimi nəfs hər zaman pisliyi əmr edər. Bu səbəblə insanın hər hansı hadisə qarşısında dərhal özünü müdafiə etməsi, haqlı olduğunu sübut etməyə çalışması doğru olmaz. Çünki bir anlıq boş buraxsa nəfsinə uya bilər. Belə vəziyyətdə edilməli olan əvvəl düşünməkdir. Bir insan səmimi və dürüst olaraq düşündüyündə, haqlı olduğunu sandığı bir çox mövzuda əslində səhv davrandığını anlaya bilər. Bunu fərq etmək isə mömin üçün böyük qazancdır. Çünki səhvi olduğunu görərək qəbul edən insan, səhvini düzəldərək, Allahın bağışlamasını ümid etmək üçün ilk addımı atmış deməkdir. Əks halda özünü həmişə haqlı çıxarmağa, özünə heç bir səhvi yaraşdırmamağa çalışan biri istədiyi qədər özünü insanların gözündə haqlı çıxarsın, Allah həqiqəti bilir. Və bu gerçək axirətdə qarşısına çıxacaq.

Bir insanın nəfsini daima müdafiə etməsindənsə, nəfsini qınayaraq həmişə onun nöqsanlarını və qüsurlarını ortaya çıxarması və bunları aradan qaldırmaq üçün Allaha yönəlməsi, Allah Qatında gözəl qarşılığı olan davranışdır.

## 33. Dünya həyatına necə qapılmamaq olar?

Dünya, insanların sınandığı və axirət yurduna hazırlıq görmələri üçün Allahın xüsusi olaraq hazırladığı məkandır. Və bu sınağın gərəyi olaraq insanlara cazibədar gələcək şəkildə yaradılmışdır. Dünyanın insana cazibədar gələn bəzəklərinə ayədə belə diqqət çəkilir:

**Qadınların, uşaqların, yığın-yığın qızıl-gümüşün, yaxşı cins atların, mal-qaranın və əkin yerlərinin verdiyi zövqlərə olan istək insanların gözünə gözəl göstərilmişdir. Bunlar, dünya həyatının keçici zövqüdür, gözəl qayıdış yeri isə Allah yanındadır. (Ali İmran surəsi, 14)**

Ayədə də bildirildiyi kimi bir-birindən qiymətli bəzəklər, mallar, qazanc gətirən ticarət, gözəl və zəngin yoldaşlar, sağlam uşaq, gözəl evlər, hər rəngdə və modeldə avtomobillər, cürbəcür yeməklər insanı dünyaya bağlayan dəyərlərdir. İnsan, bunların Allahdan nemət olaraq verildiyini, hamısının müvəqqəti olduğunu və ayədə xəbər verildiyi kimi "**gözəl qayıdış yeri**" nin axirətdə olduğunu unutmamalıdır. Ona təqdim edilən nemətləri də dünyada məsuliyyətsizcə xərcləyərək deyil, axirətə istiqamətli hazırlıq etmək üçün istifadə etməlidir. Məhz bu əhəmiyyətli həqiqətin şüurunda hərəkət edən insanlar, dünya həyatına qapılmamış olurlar.

## 34. Bu dünya həyatına razı olanların vəziyyəti necə olacaqdır?

Bəzi insanlar dünyanın müvəqqəti və əksik yer olduğunu unudaraq ona ehtirasla bağlanırlar. Allah bu insanlardan Quranda belə bəhs edir:

**Şübhəsiz ki, Bizimlə qarşılaşacaqlarına ümid etməyənlər, dünya həyatından razı qalıb onunla rahatlıq tapanlar və ayələrimizdən xəbərsiz olanların məhz onların qazandıqları günahlara görə sığınacaqları yer Oddur. (Yunis surəsi, 7-8)**

Özlərini Yaradanı unudub ehtiras içində dünyaya bağlananlar, (Allahın diləməsi xaricində) sonsuza qədər cəhənnəm əzabı içində yaşayacaqlarını bilməlidirlər. Bu insanlar etdiklərinin qarşılığı olaraq çox qısa həyatı seçim edərək sonsuz həyatı itirəcəklər. Üstəlik, dünyada ehtirasla bağlandıqları bu dəyərlərə axirətdə sonsuza qədər tək bir an belə sahib ola bilməyəcəklər.

## 35. İnsan həyatını tamamilə Allah üçün yaşaya bilərmi?

Bütün həyatı Allah üçün yaşamağın necə olacağını anlaya bilmək üçün əvvəlcə həyatın həqiqi mənasını bilmək lazımdır. Allah, həyatın həqiqi mənasını belə bildirir:

**Əməl baxımından hansınızın daha yaxşı olduğunuzu sınamaq üçün ölümü və həyatı yaradan Odur. O, Qüdrətlidir, Bağışlayandır. (Mülk surəsi, 2)**

Ayədə bildirildiyi kimi bütün insanlar davranışlarının necə olduğu ilə sınanırlar. Gözəl davranışlarda olanlar, bunun nəticəsində Allahın məmnuniyyətini qazanaraq cənnətə girməyi arzulayarlar. Bunun üçün də həyatlarının hər anını cəhd içində keçirməli olduqlarını bilirlər.

Lakin bəzi insanlar bu nöqtədə əhəmiyyətli yanılma içindədirlər. Sadəcə bəzi ibadətləri etmənin və haramlardan çəkinmənin Allah rizası üçün yaşamaq olduğunu və bunlardan başqa zamanların dinlə əlaqəsinin olmadığını zənn edərlər. Halbuki insan yaşadığı hər anda, hər sözündə, ağlından keçirdiyi hər düşüncədə, etdiyi hər işdə Allahı ən çox məmnun etmənin yolunu axtarmalıdır. Məsələn, dünyada hər insan işləyir və pul qazanır. Ancaq həyatını Allah üçün yaşayan insan, Allahın dininə daha çox xidmət edə bilmək üçün çalışır və qazancından özünə ehtiyacı olan qədər ayıraraq, qalanını Allahın məmnun olacağı yerlərdə xərcləyər. Bu insan hər söhbətində Allahı ən məmnun edəcək söhbətlər edər. İnsanlara Allahı xatırladar, pislikdən çəkindirərək yaxşılığı əmr edər. Ətrafını və dostlarını Allahın məmnun olacağı insanlardan seçər. Bu seçimi edərkən dünyəvi mənfəətlərini və ya din əxlaqını yaşamayan insanların meyarlarını nəzərə almaz. Hər an, “hal-hazırda Allahı ən çox necə məmnun edə bilərəm?” deyə düşünür.

Dinin ən əsas şərtlərindən biri, həyatın hamısının Allah üçün keçirilməsidir. Bu səbəblə, Allah möminlərə belə söyləmələrini əmr edər:

**De: “Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah üçündür! (Ənam surəsi, 162)**

## 36. Nə üçün insan özünü yetərli görməməlidir?

Allahdan qorxan insanın həyatdakı ən böyük məqsədi Allahı razı edəcək əxlaqi quruluşa sahib olmaqdır. Bunun üçün özünü təkmilləşdirməsinin, davamlı olaraq daha üstün əxlaqı yaşamaq səyi içində olmasınını zəruri olduğunu bilir. Çünki səmimiyyətin, dürüstlüyün, çalışqanlığın, fədakarlığın, təvazökarlığın, ya da digər gözəl xüsusiyyətlərin "üst sərhədi" yoxdur. Yəni insanın "mən ən gözəl əxlaqa çatdım, bundan daha yaxşısı ola bilməz" deməsi mümkün deyil.

Özünü hər baxımdan əksik görən, daha yaxşısını axtaran insanın mənəvi istiqamətdən inkişafı çox sürətli olar. Belə biri sürətlə səhvlərindən təmizlənər, hər gün daha üstün əxlaqa doğru irəliləyər. Əks halda əgər insan bir mövzuda özünü yetərli görsə, daha yaxşısını axtarmaq və tətbiq etmək üçün cəhd etməz. Qüsurlarını və səhvlərini tapa bilməz və düzəldə bilməz. Bu da onun irəliləyə bilməməsinə səbəb olar. Allah Quranda insanın özünü hər hansı mövzuda müstağni görməsinin, yəni yetərli görməsinin böyük səhv olacağını belə bildirmişdir:

**Xeyr! İnsan, doğrudan da, həddini aşır – özünün ehtiyacsız olduğunu zənn etdiyinə görə. (Ələq surəsi, 6-7)**

Məhz buna görə insan istər Allahı razı edəcək xeyirli işlər görmə, istərsə də mənəvi cəhətdən inkişaf etdirmə mövzusunda özünü qəti olaraq yetərli görməməlidir. Allahın özünə verdiyi ağıl və vicdan ilə, həmişə daha yaxşısını, daha gözəlini, daha üstününü, daha mükəmməlini tələb etməli və bu mövzuda səmimi səy göstərməlidir.

## 37. Dində məcburiyyət varmı?

Bu sualın cavabı ayədə açıq olaraq verilmişdir:

**Dində məcburiyyət yoxdur. Artıq doğru yol azğınlıqdan aydın fərqlənir. Hər kəs tağutu inkar edib Allaha iman gətirərsə, heç vaxt qırılmayan ən möhkəm dəstəkdən yapışmış olar. Allah Eşidəndir, Biləndir. (Bəqərə surəsi, 256)**

Ayədə bildirildiyi kimi dini yaşamaq mövzusunda insanın məcbur edilməsi doğru deyil. Digər insanlara Allahın varlığını və Quran əxlaqını izah etmək möminin vəzifələrindəndir. Bu məsuliyyətlərini yerinə yetirmək istəyən möminlər digər insanların hidayətinə vəsilə olmaq üçün dini izah edər; lakin Allah hidayət diləmədikdən sonra heç bir şey edə bilməyəcəklərini bilərək bundan gerisini insanın vicdanına buraxarlar. Çünki Allahın və axirətin varlığı açıq-aşkar ortadadır. Allahın çağırdığı doğru yol ilə şeytanın çağırdığı pozğunluq arasındakı ayrı-seçkiliyi görmək son dərəcə asandır. Hansının daha gözəl və daha sərfəli olduğunu hər insan öz vicdanı ilə rahatlıqla anlaya bilər. Bu səbəblə, Allahdan qorxan insanlar zövqlə, könüldən istəyərək doğru yola tabe olarlar.

Allah Quranda inananlara düşən vəzifənin yalnız doğrunu izah etmək olduğunu bir çox ayəsiylə bildirmişdir. Bir ayədə belə deyilir:

**Əgər onlar səninlə mübahisə edərlərsə, de: “Mən özümü ardımca gələnlərlə birlikdə Allaha təslim etmişəm!” Kitab verilənlərə və savadsızlara isə de: “Siz də təslim oldunuzmu?” Əgər təslim olsalar, doğru yola yönəlmiş olarlar. Üz döndərsələr, bil ki, sənin öhdənə düşən ancaq haqqı təbliğ etməkdir. Allah qullarını görür. (Ali İmran surəsi, 20)**

## 38. Xeyirlərdə yarışmaq nə deməkdir?

İnsanlar iman dərəcələrinə görə bir-birlərindən ayrılırlar. Bəzi insanlar Allaha heç iman etməzlər. Bəziləri isə sahib olduğu şiddətli Allah qorxusu səbəbiylə həmişə saleh əməl işləməyə və dinə xidmət etməyə çalışarlar. Həyatının hər anında Allahı razı etməyə çalışan bu insanları Allah Quranda belə xəbər vermişdir:

**Məhz onlar yaxşı işlər görməyə tələsər və bu işlərdə öndə gedərlər. (Muminun surəsi, 61)**

Bu insanlar səhərdən axşama qədər davamlı olaraq dinə xidmət etməyə, dinin və möminlərin mənfəətinə uyğun saleh əməllər işləməyə, qısaca hər addımlarından Allahı razı edəcək gözəllik təqdim etməyə çalışırlar. Bunun üçün həmişə düşünmək, dua etmək, Allahın ən çox razı olacağı rəftarı axtarmaq və bunu taparaq tətbiq etmək lazım olduğunu bilirlər. Buna görə davamlı Allaha yaxınlaşa biləcəkləri, Onun ululuğunu haqqıyla təqdir edə biləcəkləri şəkildə dərin düşünürlər. Düşünmədikləri, dünyanın müvəqqəti faydasına dalıb axirəti unutduqları bir an belə olmasına icazə verməzlər. Töhfəsiz olaraq iman etdikləri üçün, həyatlarının hər anını Allah üçün keçirərlər və bu mövzuda qəflətə düşməzlər. Dayanmadan Allahı və onun böyüklüyünü düşünmək Allah qorxularını şiddətləndirir. Allahın Quranda əmr etdiyi kimi, bir işdən azad olduqlarında, dərhal başqa işlə yorulmağa davam edərlər. Məhz bu kəslər “yarışıb önə keçənlər” dir və Allah onları cənnət ilə müjdələmişdir:

**Xeyirxah işlərdə öndə gedənlər, Cənnətdə də öndədirlər! Onlar Allaha yaxın olanlar, Nəim bağlarında qalacaq kimsələrdir. (Vaqiə surəsi, 10-12)**

## 39. Möminlər nələrə səbir edər?

Möminin ən əhəmiyyətli xüsusiyyətlərindən biri səbirdir. Ancaq Qurandan öyrəndiyimiz səbir, qarşılaşılan sıxıntı anında dözüm göstərmək demək deyil. Mömin ömrü boyu qarşılaşdığı hər vəziyyətdə, hər an Allahı ən çox razı edəcəyi ümid edilən rəftarı seçmə mövzusunda səbir göstərər.

Allah möminləri, aclıq, qorxu, canlarından və mallarından azaltma, bolluq kimi müxtəlif vəziyyətlərlə imtahan edər. Quranda təsvir edilən mömin isə hansı vəziyyətdə olursa olsun, Allahın məmnuniyyətini səbirlə axtarar. Bolluqda Allaha şükür edər, darlıq və çətin anlarında Allaha təvəkkül edər, dinin və möminlərin mənfəəti hər zaman öz mənfəətindən əvvəl gələr. Ömrü boyu gözəl əxlaqın hər incəliyini səbirlə tətbiq edər. Səmimidir, dürüstdür, fədakardır, çalışqandır, şövqlüdür, hər zaman sözün ən gözəlini söyləyər, davamlı olaraq dinə xidmət etməyə çalışar. Qısacası, Uca Allahın gözəl göstərdiyi hər şeyi səbirlə tətbiq edər. Bunun qarşılığında Allah səbir edən qullarını belə müjdələmişdir:

**Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayarıq. Səbir edənlərə müjdə ver. O kəslər ki, onlara bir müsibət üz verdikdə: "Biz, Allaha məxsusuq və Ona da qayıdacağıq!" – deyirlər. Onlara öz Rəbbi tərəfindən təriflər və mərhəmət vardır. Məhz onlar doğru yolda olanlardır (Bəqərə surəsi, 155-157)**

## 40. İnkarçılara da bu dünyada mal, mülk verilməsinin hikməti nədir?

İnkarçıların sahib olduqları mal və güc onların həmişə daha azğın insanlar olmasına səbəb olmuşdur. Bu, Allahın Quranda açıqladığı sirdir. Allah onların sahib olduqları mülkün yalnız dünyaya aid olduğunu, möminlərin heç bir şəkildə bunlara qarşı qibtə etmə duyğusu yaşamamalarını əmr etmiş, bu mülklə onların küfrünü artıracağını, sonda isə hamısını topluca cəhənnəmə sürükləyəcəyini vəd etmişdir.

Bu əhəmiyyətli sirri açıqlayan ayələrdən biri belədir:

**Onların nə malları, nə də övladları səni heyrətləndirməsin. Allah bunlarla, dünya həyatında onlara əzab vermək və onların canlarının kafir kimi çıxmasını istəyir. (Tövbə surəsi, 55)**

## 41. İnkarçılar etdikləri əməllər üçün niyə dərhal cəzalandırılmazlar?

Bu dünya imtahan ortamı olduğu üçün Allah hər kəsə nəsihət alıb davranışlarını düzəldəcək müddət verir. İnkarçıların da özlərinə verilən bu müddət bitənə qədər axirətdəki cəzaları təxirə salınar. Belə ki, cəhənnəmə daxil olduqda irəli sürə biləcəkləri heç bir bəhanələri qalmasın. İnkarlarında qərarlı olanlara, pisliklərini əllərindən gəldiyi qədər sərgiləyə biləcək fürsətlər verilir. Beləliklə, özləri üçün cəhənnəmdə tam layiq olduqları qarşılığa qovuşmalarına qədər dəlil toplanmış olur.

Kafirlər elə güman etməsinlər ki, Bizim onlara möhlət verməyimiz xeyirlərinədir. Biz onlara ona görə möhlət veririk ki, günahlarını daha da artırsınlar. Onlar üçün alçaldıcı bir əzab hazırlanmışdır. (Ali İmran surəsi, 178)

## 42. İnkarçıların dünyada uğradıqları son necədir?

Allah, inkar edənlər üçün axirətdə sonsuza qədər davam edəcək ağrılı əzab hazırlamışdır. Ancaq inkarçılar üçün dünyada da hazırlanmış müxtəlif əzablar var. Bunlar hər nə qədər etdiklərinin cəhənnəmdəki qarşılığı kimi olmasa da, sonsuz əzablarının bir növ başlanğıcı şəklindədir. Eyni zamanda, peşman olub ibrət almaları və doğru yola dönmələri istiqamətində Allahdan xəbərdarlıq və qorxuducu xüsusiyyət daşıyır. Allah dünyada verəcəyi əzabı və səbəbini ayəsində belə bildirir:

**Ən böyük əzabdan əvvəl Biz onlara mütləq kiçik əzabdan (dünya əzabından) daddıracağıq ki, bəlkə doğru yola qayıtsınlar. (Səcdə surəsi, 21)**

İnkarçıların inkarlarının ən əhəmiyyətli səbəbi dünya həyatına ehtirasla bağlı olmaları və anladıqları halda bu dünya ehtirasları səbəbiylə gerçəyi qəbul edə bilməmələridir. Və Allahın inkarçılar üçün dünyada hazırladığı əzab, onların dünya ilə əlaqədar bütün nemətlərini əllərindən alacaq şəkildə olur. Quranda bəhs edilən dünyəvi əzablardan bir qismi belədir:

**-İnkarçı qövmə çəyirtkə, bit, qurbağa kimi heyvanların müsəllət edilməsi (Əraf surəsi, 133)**

**-İnkarçı qövmdə quraqlıq və məhsul qıtlığı olması, iqtisadi böhranlar yaşanması (Əraf surəsi, 130, Nəhl surəsi, 112)**

**-İnkarcıların bədbəxt olmaları (Əla surəsi, 11-12)**

**-Vəsvəsələr içində yaşamaları (Nisa surəsi, 120)**

**-Qəlblərinin dar və sıxıntılı olması, üzərlərinə pislik çökməsi (Ənam surəsi, 125)**

## 43. Cəhənnəmə kimlər girəcək?

Quranda bir çox ayədə cəhənnəmə girəcək olanların xüsusiyyətləri izah edilir. Bu xüsusiyyətlərdən bir qismini belə sıralaya bilərik: Allahı inkar edən, Allahdan başqasını şərik tutan, Onunla yanaşı başqa ilahlar qəbul edən, özü ilahlıq iddiasında olan (Allahı tənzih edirik), Ondan başqa saxta ilahlar, xilaskarlar, yol göstərənlər qəbul edən, Allahın yolundan saxlayan, Onun yolunda səhv axtaran, Allahın nazil etdiyi kitabda bəzi xüsusları gözardı edib gizlədən, Allahın adının xatırlanmasını əngəlləyən, yetimin malını haqsızlıqla yeyən, insanların hüquqlarına təcavüz edən, ayələri yalan hesab, faiz yeyən, peyğəmbərləri haqsız yerə öldürən, insanları ədalətə çağıranların canına qəsd edən, Allahın elçilərinə qarşı çıxan, qəsdən adam öldürən, insanların mallarını haqsızlıqla yeyən, dinlərini oyun və əyləncə mövzusu hesab edən, Allahın ayələri və elçiləriylə lağ edən, yenidən dirildilməyəcəyini düşünüb axirətə iman gətirməyən, Allahın hüzuruna çıxarılacağına inanmayan, dünya həyatına razı olub, yalnız onunla təmin olan, heç bir haqlı bəhanəsi olmadığı halda Allahın fərz etdiyi ibadətləri yerinə yetirməyə çalışmayan,

Allahdan gərəyi kimi qorxub çəkinməyən, namazı qılmayan, pisliyi yayan, fitnə-fəsad çıxaran, Allahın ayələrini yalan hesab edən, Allaha ibadət etməkdə təkəbbürlənən, möminlərə böhtan atan, fahişəliyi yayan, həqiqəti tərsinə çevirib gizlədən, Allahın sərhədlərini qorumayan, haram yeməkləri yeyən, ölçüdə, çəkidə ədalətsizlik edən, təkəbbürlü, xəsis, hörmətsiz, eqoist, nankor, xain, lovğa, dikbaş, tərs ...

Allah bu xüsusiyyətlərə sahib olub, ölənə qədər də bu əxlaqsızlıqlarını qoruyan hər inkarçının şübhəsiz cəhənnəmə girəcəyini və etdiklərinin qarşılığını böyük əzab olaraq geri alacağını bildirmişdir. Qaf surəsində belə deyilir:

**Allah əmr edib deyəcək: "Atın Cəhənnəmə hər bir inadcıl kafiri, xeyrə mane olanı, azğınlaşıb həddi aşanı, şübhə edəni, başqa bir məbudu Allaha tay tutanı. Atın onu şiddətli əzabın içinə!" (Qaf surəsi, 24-26)**

## 44. Cəhənnəmdəki peşmanlığın faydası varmı?

Allah bütün insanlara elçiləri və kitabları vasitəsilə etməli olduqları hər şeyi bildirir. Heç bir birliyi xəbərdar edib qorxutmadan əzab göndərməz. (Şuəra surəsi, 24) Hər insan yetərli nəsihəti alacaq və etməli olduğu hər şeyi öyrənəcək qədər ömür yaşayır. Etməli olduqları hər şeyi bildikləri və düşünüb öyüd-nəsihət ala biləcək qədər vaxtları olduğu halda inkarlarında israr edən insanlar, cəhənnəmdə sonsuza qədər yaşamağa layiq olarlar. Amma bu insanlar ora girdikləri anda dünyada etdiklərinə görə fövqəladə dərəcədə peşmanlıq hiss etməyə başlayarlar. Məhz bu peşmanlığın düzəlişi yoxdur. Etdiklərini düzəltmək üçün dünyaya dönmək istəyən inkarçıların yalvarışları heç bir şəkildə fayda etməz. Çünki onlar özlərinə verilən fürsəti dəyərləndirməmişlər və sonsuza qədər haqlarını itirmişlər. Allah ayəsində bu inkarçıların çarəsiz vəziyyətini belə bildirmişdir:

**Onlar orada fəryad qoparıb yalvaracaqlar: "Ey Rəbbimiz! Bizi buradan çıxart ki, əvvəllər etdiyimiz əməlləri deyil, yaxşı əməllər edək". Onlara deyiləcək: "Məgər orada sizə düşünəcək kimsənin düşünə biləcəyi qədər uzun ömür vermədikmi? Sizə qorxudub xəbərdar edən də gəlmişdi. Elə isə dadın əzabı! Zalımlara kömək edən olmaz". (Fatir surəsi, 37)**

Belə olmaqla yanaşı, Allahdan rəhmət olaraq Peyğəmbərimiz (s.ə.v)-in belə hədisi də vardır:

*Hz. Peyğəmbər (s.ə.v) belə buyurdular: "Qəlbində zərrə qədər iman olan kəs atəşdən çıxacaq." Əbu Səid deyir ki: "Kim (bu xəbərin ifadə etdiyi həqiqətdən) şübhəyə düşərsə bu ayəni oxusun: "Allah, şübhəsiz ki, zərrə qədər haqsızlıq etməz ..." (Nisa surəsi, 40) (Tirmizi, Sıfatu Cehennem 10, (2601))*

## 45. Cəhənnəmdə oddan başqa əzablar varmı?

Allah Quranda, inkarçıların cəhənnəmdə ikən atəşə atılacaqlarını, oddan paltar və qətrandan geyimlər geyinəcəklərini bildirmişdir. (Həcc surəsi, 19) Ancaq insanın cəhənnəmdə görəcəyi əzab odla məhdud deyil.

Cəhənnəmdə;

**- dəmir toppuzlar da vardır (Həcc surəsi, 21),**

**- günahkarlar zəncirlənəcəklər. (İbrahim surəsi, 49),**

**- zəncirlərlə sürüklənəcəklər və boyunlarına dəmir həlqələr keçiriləcəkdir (Mömin surəsi, 71),**

**- başlarından aşağı qaynar su töküləcəkdir (Duxan surəsi, 48),**

**- qətrandan paltarlar geyəcəklər (İbrahim surəsi, 50),**

**- əlləri boyunlarına bağlı şəkildə cəhənnəmin dar yerlərinə atılacaqlar (Furqan surəsi, 13),**

**- cəhənnəmin odunu və yanacağı olaraq istifadə ediləcəklər (Cin surəsi, 15, Ali İmran surəsi, 10)**

Burada sayılanlar cəhənnəmdəki əzabın çox az qismidir. Orada, dünyada insanın zehnində canlandıra bilməyəcəyi qədər ağır əzablar mövcuddur. Yaşanan peşmanlıqla yanaşı, Allahın insanın qəlbinə verdiyi mənəvi əzab isə sonsuza qədər oradakı insanların ürəklərini yandıracaqdır. Bu mənəvi əzaba Quranda belə diqqət çəkilir:

**Sən haradan biləsən ki, Hutəmə nədir? Bu, Allahın qaladığı Oddur. O Od ki, qalxıb ürəklərə çatacaq. (Hüməzə surəsi, 5-7)**

## 46. Cəhənnəmdə inkarçılara yemək və içmək olaraq nə veriləcəkdir?

Dünyada ikən etdikləri ifratçılığa görə, Allahın rəhmətindən uzaqlaşdırılan bu insanlara axirətdə heç bir nemət verilməyəcək. Cəhənnəmdə sadəcə əzab görəcək inkarçılar, cənnətdə möminlərə sonsuza qədər təqdim edilən nemətlərdən, özlərinə bir az olsun verməhləri üçün yalvaracaqlar. (Əraf surəsi, 50) Lakin inkarçılara haram qılınan bu nemətlərin yerinə onlara, özlərini heç bir zaman doyurmayan, boğazlarını tıxayan, əzab verən, hətta dözülməz aclıqlarını heç bir şəkildə aradan qaldırmayan yeməklərlə, susuzluqlarını davamlı artıran içkilər veriləcəkdir. Və özlərinə heç bir fayda təmin etməməsinə, hətta əzab verməsinə baxmayaraq sonsuza qədər bu yemək və içkilərə möhtac qalacaqlar.

Cəhənnəmdə kafirlər üçün hazırlanan, özlərinə tərifsiz acılar və iyrənmə hissi verəcək olan yemək və içkilər Quranda bu şəkildə bildirilmişdir:

Zəqqum ağacı (Duxan surəsi, 43-46), darı tikanı (Ğaşiyə surəsi, 6-7) cəhənnəm yeməklərindəndir. Qaynar su (Vaqiə surəsi, 54-55), irinli su (İbrahim surəsi, 16-17) və qan (Haqqə surəsi, 36) cəhənnəmdəki içkilərindəndir.

## 47. Cəhənnəm dərəcə dərəcədirmi?

Cəhənnəmdə, hər kəs etdiklərinin qarşılığını əksiksiz olaraq alacaq. Əlbəttə, inkarlarının şiddətinə, Allahın dininə və möminlərə qarşı apardıqları mübarizəyə, dünyada etdikləri zülmün şiddətinə görə insanlar arasında dərəcə fərqləri olacaq. Məsələn, möminlərin ən böyük düşmənlərindən olan və əleyhlərinə gizli fəaliyyətlər göstərən münafiqlərin cəhənnəmin ən alt təbəqəsində olacaqları (Nisa surəsi, 145) Quranda bildirilmişdir. Məhz bunun kimi, hər inkarçının şübhəsiz cəhənnəmə girəcəyi və Allahın ədaləti ilə tam olaraq etdiklərinin qarşılığını görəcəyi Quranda bu ayələrdə bəhs edilir:

**Belələri o kəslərdir ki, onlardan əvvəl gəlib-getmiş cin və insanlardan ibarət olan xalqlar haqqındakı Söz onların barəsində də gerçəkləşmişdir. Həqiqətən də, onlar ziyana uğrayanlardır. Hamının etdiyi əməllərə görə dərəcələri vardır ki, Allah onlara əməllərinin əvəzini versin. Onlara əsla zülm edilməz. (Əhqaf surəsi, 18-19)**

Bununla yanaşı, bəzilərinin zənn etdiyinizin əksinə, Allahın diləməsi xaricində, insanlar günahlarının cəzasını bir müddət çəkdikdən sonra bağışlanaraq cəhənnəmdən çıxa bilməyəcəklər. Oraya girən hər inkarçı (Allahın diləməsi xaricində) sonsuza qədər cəhənnəmdə qalacaq. (Bəqərə surəsi, 80-81)

## 48. Cəhənnəm və cənnət əhli bir-birlərini görəcəklərmi?

Allah ayələrdə cənnət xalqı ilə cəhənnəm xalqının bir-birlərini gördüklərindən və aralarında keçən dialoqlardan bəhs edir. Cənnət və cəhənnəm xalqının bir-birlərini görmələri, cənnətdəkilər üçün böyük şükür vəsiləsi, cəhənnəm əhli üçünsə həsrət və peşmanlıqlarının artması üçün vəsilə olur. Cənnətdəki insanların cəhənnəm əhlini görmələri və aralarında keçən danışıqlardan bəzisi Quranda belə xəbər verilir:

**Onlardan biri deyəcək: "Mənim bir yoldaşım var idi. O deyirdi: "Sən də inananlardansan? Məgər biz öldükdən, torpağa çevrilib sür-sümük olduqdan sonra haqq-hesaba çəkilib cəzalandırılacağıq?" O sözünə davam edib deyəcək: "Siz onun harada olduğunu görmək istəyirsinizmi?" O özü baxıb yoldaşını Cəhənnəmin ortasında görəcək və deyəcəkdir: "Allaha and olsun ki, sən məni də məhv edəcəkdin. Əgər Rəbbimin lütfü olmasaydı, mən də Cəhənnəmə gətirilənlərdən olardım. (Saffat surəsi, 51-57)**

**Od sakinləri Cənnət əhlini səsləyib deyəcəklər: "Bizim üstümüzə bir az su və ya Allahın sizə verdiyi ruzidən tökün". Onlar isə deyəcəklər: "Allah bunları kafirlərə haram etmişdir". (Əraf surəsi, 50)**

## 49. Cənnətdə necə həyat olacaq?

Qurandakı təsvirlərdən, cənnətdə də yaşadığımız dünyadakına bənzər həyat olduğu aydın olur. Ayələrdə cənnətdəki məkanlar izah edilir, bu məkanlardakı ehtişamlı mebellərdən, göz alıcı gözəllikdəki əşyalardan bəhs edilir. Bunlardan başqa istifadə edilən bəzək əşyalarından, cənnətdəki geyim-keçimdən, yemək və içkilərdən də nümunələr verilir. Dünyadakılara bənzər olaraq təsvir edilən bu gözəlliklərin hər birində cənnətdə var olan ehtişam və parlaqlıq vurğulanmışdır. Bu təriflərlə yanaşı cənnətdə insanın ağlına gələ biləcək hər şeyin və həmçinin ağlına gəlməyəcək gözəlliklərin də nemət olaraq veriləcəyindən bəhs edilir. Dünyadakı həyat və cənnətdəki həyat arasındakı ən böyük fərq heç şübhəsiz ki, dünyadakı nöqsanların heç birinin cənnətdə olmamasıdır. Ayələrdə cənnətdə var olduğu xəbər verilən incəliklərin və gözəlliklərin bəziləri belədir:

- Böyükmülk və ehtişam,
- Yüksək evlər və köşklər,
- Yüksəklərdə qurulmuş taxtlar,
- İpəkdən, atlasdan ən gözəl geyimlər
- Qızıldan, gümüşdən bilərziklər, ləl-cəvahiratlar, incilər,
- Altından çaylar axan məkanlar,
- Nə isti, nə də soyuq, tam olaraq kölgəlik,
- Qızıl qablar, piyalələr,
- Astarları atlazdan yataqlar,
- Yaşıl yastıqlar və parlaq gözəllikdə döşəklər,
- Dadı dəyişməyən süddən çaylar, təmiz baldan bulaqlar,
- Gümüşdən billur qablar və daha bir çoxları...

Göründüyü kimi, cənnət insanın ən böyük zövqləri ala biləcəyi, fövqəladə qüsursuzluqda məkandır. Allah cənnətdəki ehtişamı ayəsində belə bildirir:

**Cənnətdə hara baxsan nemət və əzəmətli səltənət nişanəsi görərsən. (İnsan surəsi, 20)**

## 50. Cənnətdə mənəvi ortam necə olacaq?

Cənnət, möminlərə dünyada etdikləri saleh əməllərin, göstərdikləri gözəl əxlaqın qarşılığında Allahın verdiyi nemətdir. Ayələrdə, maddi cəhətdən hər cür gözəlliyin təqdim edildiyi cənnətdə, insanlara çətinlik verən heç bir şeyin olmadığından da bəhs edilir. Cənnətdə;

- hər istiqamətdən təhlükəsizlik vardır,
- kin və nifrət yoxdur,
- boş söhbət və yalan yoxdur,
- yorğunluq və halsızlıq yoxdur,
- qorxu və kədər yoxdur,
- gözəl üzlü, gözəl xasiyyətli insanlar vardır,
- cənnətdə yaşlanma yoxdur, hər kəs yaşıddır,
- cənnət, insanın hər cəhətiylə məmnun olacağı yerdir.

Əlbəttə burada sayılanlar cənnətdəki təhlükəsizlik və hüzur ortamını təsvir edən bir neçə nümunədir. Allah ayəsində, inanmayanlar cəhənnəmdə təsvir edilməz əzab çəkərkən, möminlərin cənnətdə son dərəcə böyük maddi-mənəvi rahatlıq və hüzur içində olacaqlarını belə bildirir:

**Zalımların qazandıqları günahlar özlərinə qarşı çevrildikdə onları bunun qorxusundan titrəyən görəcəksən. İman gətirib yaxşı işlər görənlər isə Cənnət bağçalarında məskunlaşacaqlar. Rəbbinin yanında onlar üçün istədikləri hər şey hazırlanmışdır. Böyük lütfkarlıq da elə budur. (Şura surəsi, 22)**

## 51. Nəfsini ilah etmək necə olur?

Nəfsini ağılsız şəkildə ilah edən insan öz maraqlarını və rahatlığını dinin maraqlarından üstün tutan insandır. Halbuki gerçək və səmimi dindar sadəcə Allahı ilah edər və sadəcə Allahı razı edəcək şəkildə davranar. Bu, hər şərtdə keçərlidir. Belə insan xəstələndiyində də, çətin anlarda da, mənfəətləri tamamilə zədələnəcək olsa da əsla dinin mənfəətlərindən, Allahın sərhədlərindən güzəştə getməz.

Amma insan kiçik gördüyü mövzuda belə din üçün fədakarlıq etmirsə, çətin gələn hər şeydə dini tərk edərək nəfsinə bəzəkli gələni seçirsə, bu insan nəfsini razı etməyə çalışır və bu səbəbdən onu saxta ilah qəbul etmişdir. Allah Quranda böyük azğınlıqla nəfslərini ilah qəbul edənlər üçün belə deyir:

**Nəfsinin istəyini ilahiləşdirən şəxsi gördünmü? Allah əzəli elmi sayəsində onu azğınlığa saldı, qulağını və qəlbini möhürlədi, gözünə də pərdə çəkdi. Allahdan başqa kim onu doğru yola yönəldə bilər? Məgər düşünüb anlamırsınız? (Casiyə surəsi, 23)**

## 52. Şeytan insanları azdırmaq üçün hər zaman fəaliyyətdədirmi?

Şeytan insanı Allahın yolundan azdırmaq üçün dayanmadan fəaliyyət göstərir. Bir an olsun bundan imtina etməz, hər cür yolu sınayar. İnsana zəif nöqtələrindən yaxınlaşaraq ona öz istəklərini etdirməyə çalışır. Bir ayədə şeytanın insanları azdırmağa istiqamətli fəaliyyətlər göstərəcəyinə belə diqqət çəkilmişdir:

**... Şeytan isə onları dərin bir azğınlığa salmaq istəyir. (Nisa surəsi, 60)**

**İblis dedi: "Sən məni yoldan çıxartdığına görə mən də Sənin düz yolunun üstündə oturub insanları tovlayacağam. Sonra onların yanına önlərindən və arxalarından, sağlarından və sollarından gələcəyəm və Sən onların əksəriyyətini şükür edən görməyəcəksən". Allah buyurdu: "Oradan mənfur və qovulmuş halda çıx! Onlardan hər kəs sənin ardınca getsə, əlbəttə, Cəhənnəmi sizin hamınızla dolduracağam. (Əraf surəsi, 16-18)**

Şeytan insanın ən böyük düşmənidir və insanlara vəsvəsə verərək, doğrunu səhv, səhvi doğru kimi göstərərək insanları din əxlaqından uzaq tutmağa çalışır. Ayədə bildirildiyi kimi insanların Allaha şükür etməsini əngəlləməyə çalışır. Ancaq Quranda bildirildiyi kimi şeytana uyan insanlar mütləq ziyana uğrayacaqlar. Buna görə insanlar şeytanın hiyləgər tələlərinə qarşı ayıq olmalı və ona uymaqdan şiddətlə çəkinməlidirlər.

Bunu da unutmamaq lazımdır ki, şeytan yalnız səmimi olaraq iman etməyən insanlar üzərində təsirli ola bilər. Allaha qəti olaraq inanan, axirəti, hesab gününü bilən insanlar şeytanın fəaliyyətindən təsirlənməzlər. Əgər bu istiqamətdə təsirlə qarşılaşacaq olsalar dərhal Allaha sığınarlar. Allah şeytanın inananlara qarşı son dərəcə gücsüz olduğunu belə xəbər vermişdir:

**Allahdan qorxanlara şeytandan bir vəsvəsə toxunduğu zaman Allahı xatırlayar və dərhal gerçəyi görərlər. (Əraf surəsi, 201)**

Şeytanın özü də, Allaha səmimiyyətlə bağlı olan səmimi ixlas sahiblərinə qarşı azdırıcı gücü olmadığını etiraf edir. Bu Quranda belə bildirilir:

**İblis dedi: "Ey Rəbbim! Sən məni yoldan çıxartdığına görə, mən də yer üzündə onlara pis işləri gözəl göstərib onların hamısını azdıracağam. Yalnız Sənin seçilmiş, ixlaslı qullarından başqa". (Hicr surəsi, 39-40)**

## 53. İçimdən keçirdiyim hər şey Allah qatında məlumdurmu?

Allah, insanın içindən keçirdiyi, heç kimin bilmədiyini zənn etdiyi bütün düşüncələri də daxil olmaqla hər şeyi bilir. Çünki Allahın sifətlərindən biri "Xəbir"dir. Yəni Allah hər şeyin iç üzündən, gizli tərəflərindən xəbərdar olandır. İnsan qarşısındakı kəslərdən, ağlından keçən düşüncələri gizlədə bilər, amma Allahdan gizləyə bilməz. Ayədə bildirildiyi kimi, **"Şübhəsiz ki, yerdə və göydə heç bir şey Allahdan gizli qalmaz."** (Ali İmran surəsi, 5) Bir başqa ayədə isə belə deyilir:

**O, həm göylərdə, həm də yerdə ibadət olunan Tək Allahdır. O, gizlində saxladığınızı da bilir, aşkarda etdiyinizi də. O, sizin nə qazanacağınızı da bilir. (Ənam surəsi, 3)**

İnsan zamana və məkana bağlı varlıqdır. Halbuki Allah bütün bu nöqsanlardan uzaqdır. Zamanı, məkanı, bütün insanları, o insanların başlarına gələcək hadisələri yaradan və hər şeyin müqəddəratını təyin edən Allahdır. Buna görə Allah insanın içini, xaricini, bütün düşüncələrini bilir. Quranda bildirdiyi kimi, **"... Şübhəsiz ki, O, ürəklərdə olanları biləndir."** (Mülk surəsi, 13)

## 54. İnsanın qəlbinin təmiz olması və insanlara qarşı yardım sevər olması cənnətə girmək üçün kifayətdirmi?

Hər insanın və ya hər cəmiyyətin özünə görə "yaxşılıq" və "yardım sevərlik" anlayışı vardır. Bəzisi üçün yaxşı təhsil görmüş uşaq yetişdirmək, bəzisi üçün yardım dərnəyinə üzv olmaq, bəzisi üçün də heyvansevər dərnəyində işləmək "yaxşılıq"dır.

İnsanlar bu şəkildə özlərini aldadaraq məsuliyyətdən qaçmaq istəyirlər. Çünki hər insan əslində hesab günündə Qurana əməl edib-etməmələri haqda sorğuya çəkiləcəyini çox yaxşı bilir. Ancaq Allahın əmrlərini tətbiq etmədiyi üçün bunu görməzlikdən gəlir. Bu məsuliyyətdən qaçmayan və Qurandan məsul olduğu gerçəyini görə bilən insan isə "yaxşılığın" gerçək qarşılığının da yalnız Quranda tapılacağını bilir. Çünki Quran, hər şeyi olduğu kimi özünü də yaradan Rəbbimiz Allahın hökmlərini ehtiva edir. Bir insanın cənnəti qazana bilməsi üçün isə "qəlbinin təmiz olması" deyil, əsas olaraq Allahın hökmlərinin olduğu kitaba güzəştə getmədən uyması lazımdır. Yəni insanın öz halında yaşaması, kimsənin pisliyini istəməməsi, kimsənin malında, mülkündə, namusundan gözünün olmaması onun cənnət üçün uyğun insan olduğunu göstərməz. Çünki bunlarla yanaşı Allahın Quranda bildirdiyi digər əxlaq və xüsusiyyətləri də üzərində daşımalıdır.

Allah gerçək yaxşılığın nə olduğunu, kimlərin həqiqi müsəlmanlar olduqlarını ayəsində belə bildirir:

**Yaxşı əməl üzünüzü məşriqə və məğribə tərəf çevirməyiniz deyildir. Lakin yaxşı əməl sahibləri Allaha, Axirət gününə, mələklərə, kitablara, peyğəmbərlərə iman**

**gətirən, sevdiyi malı qohum-əqrəbaya, yetimlərə, kasıblara, müsafirlərə, dilənənlərə və kölələrin azad edilməsinə sərf edən, namaz qılıb zəkat verən, əhd bağladıqda əhdlərini yerinə yetirən, sıxıntı və xəstəlik üz verdikdə, habelə döyüşdə səbir edən şəxslərdir. Onlar imanlarında doğru olanlardır. Müttəqi olanlar da elə məhz onlardır. (Bəqərə surəsi, 177)**

Bir başqa ayədə də yenə Allah qatındakı yaxşılıq ölçüsü belə örnəklə izah edilir:

**Doğrudanmı siz hacılara su verməyi və Məscidulharamı abadlaşdırmağı Allaha və Axirət gününə iman gətirib Allah yolunda cihad edənlərlə eyni tutursunuz? Bilin ki, onlar Allahın yanında bərabər sayılmırlar. Allah zalım qövmü doğru yola yönəltməz. (Tövbə surəsi, 19)**

**İman gətirib hicrət edən və Allah yolunda öz malı və canı ilə cihad edənlərin Allah yanında ən yüksək dərəcələri vardır. Məhz onlar nicat tapanlardır (Tövbə surəsi, 20)**

## 55. Allaha hicrət etmək necə olur?

Hicrət etmək, insanın bir yerdən başqa yerə getməsi, daha doğrusu köç etməsi deməkdir. Allaha hicrət etmək isə, insanın Allahı tanıdıqdan, Quranı oxuyub anladıqdan sonra keçmişdəki hər cür səhv rəftarını, düşüncəsini, vərdişlərini qısacası, hər şeyini buraxaraq sadəcə Allaha yönəlməsi və yalnız Onun istədiyi şəkildə yaşamasıdır.

Hz. İbrahim, doğrunu gördüyü anda ətrafındakı insanların həyat tərzindən tamamilə uzaqlaşaraq, dərhal Allaha hicrət etmiş müsəlmandır. Hz. Lut da, hz. İbrahim kimi üstün əxlaq göstərərək Rəbbimizə yönələn peyğəmbərdir. Quranda hz. Lutun bu davranışı belə xəbər verilir:

**Lut ona iman gətirdi. İbrahim dedi: “Mən Rəbbimin yanına (əmr etdiyi Şam diyarına) hicrət edirəm. Həqiqətən, O, Qüdrətlidir, Müdrikdir”. (Ənkəbut surəsi, 26)**

## 56. Quranda “ataların dini” ifadəsi nə deməkdir?

Quranda İslam dininin hökmləri və mömininin necə həyat yaşamalı olduğu təfərrüatlı olaraq təsvir edilmişdir. Ataların dini ifadəsiylə də, Qurandakı hökmlərin xaricində bəzi qaydalara bağlı hərəkət edilərək keçmişdən gətirilən vərdişlərə, ya da qulaqdan qulağa gələn məlumatlara əsaslanan uydurma din nəzərdə tutulur. Quranda və hədislərdə heç bir şəkildə yeri olmayan batil inanc və tətbiqlərin qaynağı məhz bu “ataların dini”dir.

Cahil cəmiyyətlərdə “ataların batil dini”nə uyaraq yaşayan insanlara tez-tez rast gəlinir. Bu cəmiyyətlərdə yaşayan insanlar müxtəlif davranışları nə üçün etdiklərini düşünmədən, atalarından, babalarından öyrəndikləri şəkliylə tətbiq edər və dinə uyğun nələrsə etdiklərini zənn edərlər. Əsasən, Allahın məmnuniyyətini qazanmağı deyil, keçmişdən özlərinə miras olaraq buraxılan yanlış sistemi tətbiq etməyə çalışırlar. Bu mövzuda Quranda hz. İbrahimin öz tayfasından nümunə verilmişdir:

**Onlara İbrahimin əhvalatını da oxu. Bir zaman o öz atasına və tayfasına: “Nəyə ibadət edirsiniz?” – demişdi. Onlar dedilər: “Biz bütlərə ibadət edir və onlara tapınmaqda davam edirik”. O dedi: “Onlara yalvardığınız zaman sizi eşidirlərmi? Yaxud sizə xeyir və ya zərər verirlərmi?” Onlar dedilər: “Xeyr, amma biz öz atalarımızın belə etdiklərini gördük”. O dedi: “Siz nəyə ibadət etdiyinizi görürsünüzmü –həm siz, həm də ulu babalarınız? Aləmlərin Rəbbindən başqa, onların hamısı mənim düşmənimdir. O Rəbb ki, məni yaratmış və məni doğru yola yönəltmişdir; O Rəbb ki, məni yedirdir və içirdir; O Rəbb ki, xəstələndiyim zaman mənə şəfa verir; O Rəbb ki, məni öldürəcək, sonra dirildəcəkdir; O Rəbb ki, Haqq-hesab günü xətalarımı bağışlayacağını Ondan umuram. (Şuəra surəsi, 69-82)**

Ayələrdə görüldüyü kimi hz. İbrahim qövmünün batil dinindən uzaqlaşmış, yalnız Allaha yönəlmiş və qövmünə də Allahın tək İlah olduğunu, uyulmalı tək dinin də Allahın dini olduğunu təbliğ etmişdir.

Elçilərin çoxu, göndərildikləri qövmlər tərəfindən atalarının dinlərinə qarşı çıxmaqla, bu dini yıxmağa çalışmaqla ittiham edilmiş və dövrlərində qüvvədə olan, təhrif edilmiş dinin mənsubları tərəfindən qarşılıq və təhdidlər almışlar. Bununla əlaqədar ayələrdən bəziləri belədir:

**Onlar dedilər: “Gəlmisiniz ki, bizi atalarımızın tutduğu yoldan döndərəsiniz və yer üzündə böyüklük etmək ikinizə qalsın? Biz sizə iman gətirən deyilik”. (Yunis surəsi, 78)**

**Onlara: “Allahın nazil etdiyinə itaət edin!” – deyildikdə, onlar: “Yox! Biz əcdadımızın getdiyi yolu tutub gedəcəyik!” – deyərlər. Əgər şeytan onları Cəhənnəm odunun əzabına doğru sürükləyirsə, onda necə olsun? (Loğman surəsi, 21)**

**Xeyr! Müşriklər: “Biz atalarımızı bu yolda gördük və biz də onların yolunu tutub gedəcəyik!” – deyirlər. (Zuxruf surəsi, 22)**

## 57. İslamda qadın və kişi bərabərdirmi?

Allah, Quranda iman edən və saleh əməllər görən möminlərdən bəhs edər. Allah qatında, dəyər və üstünlük ölçüsü,insanın qadın, ya da kişi olması deyil, iman etmiş olması və yaxşı işlər görməsidir. İslamın hökmlərindən və Allahın əmrlərinin əksiksiz olaraq yerinə yetirilməsindən heç bir ayrı-seçkilik qoyulmadan hər kəs məsuldur. Quranda qadın olsun, kişi olsun hər insanın etdiyi işin qarşılığını eyni şəkildə alacağı xəbər verilir:

**Həm kişilərdən, həm də qadınlardan mömin olaraq yaxşı işlər görənlər Cənnətə girərlər və onlara xurma çərdəyinin qırıntısı qədər haqsızlıq edilməz. (Nisa surəsi, 124)**

Həmçinin Allah başqa ayələrində də əhəmiyyətli olanın insanın cinsiyyəti deyil, təqvası, yəni Allahdan qorxaraq nəfsini Allahın məmnun olmayacağı hər cür günah və üsyandan, azğınlıq və pozğunluqdan qoruması, axirətdə özünə gətirəcək hər cür pislikdən çəkinməsi olduğunu bildirmişdir:

**Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır. Həqiqətən, Allah Biləndir, Xəbərdardır. (Hucurat surəsi, 13)**

## 58. Qulağı və gözü möhürlü insan necə olur?

Allahın Quranda riayət olunmasını əmr etdiyi hökmlər çox açıqdır və bunlardan xəbərdar olan hər kəsin bu hökmləri əksiksiz tətbiq etməsi lazımdır. Ayələrdən xəbərdar olan, amma gərəyini yerinə yetirməyən insan vicdanının səsini dinləmədiyi üçün qəlbi qatılaşar, ağılı və şüuru bağlanar; bir müddət sonra həqiqətləri görə bilməyəcək vəziyyətə gələr. Ayələrdə təsvir edilənləri anlamaz, doğruları görə bilməz. Etdiklərinin qarşılığı olaraq onu necə sonun gözlədiyini belə fərq edə bilməz.

Allah ayələrində, dünya həyatını axirətdən üstün tutanların, ayələri etibarsız etmək üçün mübarizə aparanların, Allaha qarşı yalan düzüb qoşanların, sadəcə nəfsinin əmr etdiklərini tətbiq edən, iman etdikdən sonra inkara düşənlərin, mübarizədə geri qalmağı seçənlərin və zəngin olduğu halda Allah yolunda infaq etmək istəməyən şəxslərin qəlblərinin, qulaqlarının və gözlərinin möhürlənəcəyindən və üzərlərində ağırlıq olacağından bəhs edir. Həmçinin ayələrdə bu insanların cəhənnəm əhli olduğu da xəbər verilir:

**Allah onların qəlblərini və qulaqlarını möhürləmiş, gözlərinə də pərdə çəkmişdir. Onlar üçün böyük bir əzab vardır (Bəqərə surəsi, 7)**

**Bunlar o kəslərdir ki, Allah onların qəlbinə, qulaqlarına və gözlərinə möhür vurmuşdur. Onlar əsl qafildirlər. Heç şübhəsiz ki, ziyana uğrayanlar da onlardır. (Nəhl surəsi, 108-109)**

## 59. Quranda fitnə nə deməkdir?

Quranda təxribatçı xarakterinə uyğun bir çox nümunə verilir. Ancaq fitnə-fəsad törədənlərin əsas xüsusiyyəti Allaha, Allahın elçilərinə və kitablarına qarşı çıxmaları, öz zəif ağılları ilə dinin və müsəlmanların qarşısına maneələr çıxarmaları, Allahın sərhədlərini tanımamalarıdır. Onların bu ümumi xüsusiyyəti ayədə belə bildirilir:

**Kafir olub insanları Allah yolundan sapdıranlara törətdikləri fitnə-fəsada görə əzab üstündən əzab artıracağıq. (Nəhl urəsi, 88)**

Ayələrdə Allahın yolundan uzaqlaşdırmağa çalışan bu insanların yer üzündə bərabərlik və nizamı pozduqları, qarışıqlıq çıxardıqları, Allahın əmr və qadağalarını qaldırmağa çalışdıqları, ölçünü və çəkini əskik tutaraq saxtakarlıq etdikləri bəzi xüsusiyyətlərindən bəhs edilir. Buna qarşılıq Allah həm dünyada, həm axirətdə bu kəslərə cavab verir və onları yuxarıdakı ayədə də bildirdiyi kimi müxtəlif şəkillərdə əzab verir, sonsuz ədalətiylə fitnə törətməyə cəhd edən hər kəsə layiq olduğu qarşılığı əskiksiz olaraq verir.

## 60. Münafiq kimdir?

Münafiqlər, Quranda iman etmədikləri halda, iman etmiş kimi görünən, bu səbəbdən içində yaşadıqları mömin birliyindən öz ağıllarına görə mənfəət əldə edəcəklərini düşünən ikiüzlü insanlar olaraq təsvir edilmişlər. Allah münafiqlərin, təxribatçı olduqlarını və möminlərin arasında fitnə çıxarmağa çalışdıqlarını, yəni mömin birliyinin içindəki birlik və bərabərliyi pozmağa istiqamətli gizli fəaliyyətlər etdiklərini bildirmişdir. Bu xüsusiyyətlərindən ötrü onlara "nifaq (ayrılıq, təxriatçılıq, fitnə) çıxaran" mənasında "münafiq" adı verilmişdir.

Münafiqlərin digər əhəmiyyətli xüsusiyyətləri, mömin birliyinin bəzi çətinliklərlə qarşılaşdığı dövrlərdə gerçək üzlərini göstərmələri, bunun xaricində özlərini müəyyən etməmələridir. Öz ağıllarına görə möminləri aldatdıqlarını zənn edən bu insanların əslində özləri böyük aldanışın içindədirlər. Allah aşağıdakı ayədə münafiqlərin içinə düşdüyü aldanmanı belə bildirmişdir:

**İnsanlar arasında elələri də vardır ki, mömin olmadıqları halda: "Allaha və Axirət gününə inanırıq" – deyirlər. Onlar Allahı və iman gətirənləri aldatmağa çalışırlar. Halbuki yalnız özlərini aldadır və bunu anlamırlar. Onların qəlblərində xəstəlik vardır və Allah da onların xəstəliyini artırmışdır. Yalan söylədiklərinə görə də ağrılı-acılı bir əzab çəkəcəklər. (Bəqərə surəsi, 8-10)**

Özlərinə din və axirət mövzusunda hər cür məlumat gəldiyi, elçini görüb tanıdıqları və möminlərlə birgə yaşadıqları halda çox böyük alçaqlıq nümunəsi sərgiləyərək təkəbbür və dünyəvi mənfəətlər uğruna imandan dönmələri, fitnə çıxarmağa çalışmaları, elçiyə və möminlərə düşmənçilik etmələri, inkarçılara gedib onları möminlərə qarşı təhrik etmələri səbəbiylə Allah onlara ən böyük əzabı vəd etmişdir:

**Həqiqətən, münafiqlər Odun ən aşağı təbəqəsində olacaqlar; və sən onlara heç bir köməkçi tapa bilməzsən. (Nisa surəsi, 145)**

## 61. Münafiqləri tanıya biləcəyimiz əlamətlər varmı?

Allah Quranda münafiqlərin bir çox xüsusiyyətini təsvir edərək möminləri bu inkarçı qrupuna qarşı xəbərdar etmişdir. Buna görə gizli fəaliyyət göstərən bu azğın qrupun bütün əlamətləri Quranı yaxşı bilən biri üçün ortadadır. Qəlblərində xəstəlik olan münafiqlər Allahın ayələrindən xəbərdar olan diqqətli möminin gözündən qaçmaz. Bu kəslərin içlərində daşıdıqları inkarın əlamətləri nə qədər gizləməyə çalışsalar da hərəkətlərində, danışıqlarında və hadisələr qarşısında göstərdikləri reaksiyalarda ortaya çıxar. Möminlər bu əlamətləri göstərən kəslər üçün "bu qəti münafiqdir" deyə bilməz, amma bu şəxslərə qarşı son dərəcə təmkinli davranarlar. Münafiqlərin tanınmasına köməkçi olan çox diqqətə çarpan bəzi əlamətlər aşağıdakı ayədə bildirilmişdir:

**Münafiqlər, həqiqətən də, Allahı aldatmağa çalışırlar. Halbuki Allah onları aldadır. Onlar namaza durarkən könülsüz qalxar, özlərini camaata göstərər və Allahı olduqca az yad edərlər. (Nisa surəsi, 142)**

Ayədə görüldüyü kimi münafiqlərin etdikləri işlərdə insanların razılığını güdmələri, göstəriş istiqamətli rəftarlar etmələri möminlər tərəfindən hiss edilən əlamətlərdir. Bu kəslərin əvvəl-axır gerçək üzlərinin ortaya çıxacağı və Allah diləsə, üzlərindən və danışıq tərzlərində də özlərini müəyyən edəcəkləri ayədə xəbər verilmişdir:

**Yoxsa qəlblərində xəstəlik olanlar elə hesab edirdilər ki, Allah onların kin-küdurətini üzə çıxarmayacaq? Əgər Biz istəsəydik, onları sənə göstərərdik, sən də onları üzlərindəki əlamətlərdən tanıyardın. Sən onları danışıq tərzlərindən mütləq tanıyacaqsan. Allah sizin əməllərinizi bilir. (Məhəmməd surəsi, 29-30)**

## 62. Qurana görə "cahil insan" kimdir?

Quranda istifadə edilən "cahil" sifəti, xalq arasında bilinəndən fərqli məna ehtiva edir. Quranda ifadə edilən cahillik, insanın yaradılış məqsədindən, Yaradıcımız olan Allahın üstün xüsusiyyətlərindən, ona göndərilən kitabdakı məlumat və hikmətdən, sonsuz həyatını maraqlandıran mövzulardan xəbərsiz olması və bu cəhalətin doğurduğu şüursuz həyat formasını mənimsəməsidir.

Allahı tək İlah olaraq tanımayan, Onun elçiləriylə göndərdiyi doğru yola itaət etməyən insanların "cahillik" etməkdə olduqlarına Quranda belə diqqət çəkilmişdir:

**Onlar isə demişdilər: "Sən bizi məbudlarımızdan döndərməyəmi gəldin? Əgər doğru danışanlardansansa, bizə vəd etdiyini gətir!" Hud dedi: "Bu haqda bilgi ancaq Allaha məxsusdur. Mən sizə yalnız mənimlə göndərilənləri təbliğ edirəm. Lakin mən sizin cahil adamlar olduğunuzu görürəm". (Əhqaf surəsi, 22-23)**

## 63. Quranda insanın yaradılışı necə izah edilir?

Allah Quranda insanın yaradılışıyla əlaqədar bir çox məlumat verir. Bu məlumatların çoxu o dövrdə yaşayan insanların heç bir şəkildə bilmədikləri, ancaq dövrümüzdə elmi inkişaf sayəsində kəşf edilmiş həqiqətlərdir. Bu da Quranın saysız-hesabsız elmi möcüzələrindən biridir. Quranda insanın yaradılışı ilə əlaqədar verilən məlumatlar xülasəylə belədir:

* Məni olaraq adlandırılan və spermaları daşıyan bəsləyici maye sadəcə spermalardan meydana gəlməz. Əksinə, məni bir-birindən fərqli mayelərin qarışığından ibarətdir. Quranda da mənidən bəhs edilərkən, "qarışıq" maye olduğuna diqqət çəkilir. Bu, ancaq zəmanəmizdə elmin köməyi kəşf edilmiş gerçəkdir.

**Şübhəsiz Biz insanı qarışıq bir sudan yaratdıq. Onu imtahana çəkəcəyik, buna görə onu eşidən və görən etdik. (İnsan surəsi, 2)**

* Qarışıq maye olan məninin içindəki milyonlarla spermadan yalnız biri yumurtanı döllləndirər. Yəni insanın özü mənin hamısı deyil, onun kiçik bir hissəsidir. Quranda da insanın mayenin hamısından deyil, sadəcə bir parçasından yaradıldığı ifadə edilir:

**Məgər o, kişi toxumundan axıdılan bir damla nütfə deyildimi? (Qiyamət surəsi, 37)**

* Sperma ilə yumurtanın birləşməsindən yaranan və "ziqot" olaraq adlanan tək hüceyrə, zaman itirmədən bölünərək çoxalır və getdikcə "ət parçası" halına gəlir. Ancaq ziqot bu böyümə əsnasında boşluqda durmaz, uşaqlığın divarına yapışaraq sahib olduğu çıxıntılar sayəsində torpağa yapışan köklər kimi ora yapışar. Məhz bu da ancaq çox yaxın bir zamanda kəşf edilmiş gerçək olmasına baxmayaraq Quranda yüzlərlə il əvvəldən bildirilmişdir:

**Yaradan Rəbbinin adı ilə oxu. O, insanı qan laxtasından yaratdı. (Ələq surəsi, 1-2)**

* Ana bətni, inkişafa başlayan ziqotu əhatə edən və "amnion mayesi" deyilən maye ilə doludur. Körpənin içində böyüdüyü bu mayenin əhəmiyyəti, kənardan gələcək zərbələrə qarşı körpənin təhlükəsizliyini təmin etməsidir. Məhz Quranda körpənin qorunan yerdə inkişaf etməsi də xəbər verilmişdir:

**Məgər Biz sizi dəyərsiz bir sudan (nütfədən) xəlq etmədikmi? Biz onu etibarlı bir yerdə yerləşdirmədikmi. (Mürsəlat surəsi, 20-21)**

* Allah insanın yaradılış mərhələlərinin bir qismini Muminun surəsində bildirmişdir. Uşağın inkişaf mərhələlərinin eynilə ayələrdə tərif edildiyi kimi meydana gəldiyi bu gün bioloji olaraq da sübut edilmiş gerçəkdir:

**Həqiqətən, Biz insanı palçıq cövhərindən yaratdıq. Sonra nütfə halında möhkəm yerdə yerləşdirdik. Sonra nütfədən laxtalanmış qan yaratdıq, sonra o qandan bir parça ət yaratdıq, sonra o bir parça ətdən sümüklər yaratdıq, sonra da sümükləri ət ilə örtdük. Sonra da onu başqa bir məxluq olaraq xəlq etdik. Yaradanların ən yaxşısı olan Allah nə qədər xeyirxahdır! (Muminun surəsi, 12-14)**

## 64. Allahın dininə dəvət hansı şəkildə olar?

İnsanlara dinin və gözəl əxlaqın təbliğ edilməsi Allahın əmridir:

**Qoy sizin içərinizdən xeyrə çağıran, yaxşı işlər görməyi buyuran və pis əməlləri qadağan edən bir camaat çıxsın. Məhz onlar nicata qovuşanlardır. (Ali İmran surəsi, 104)**

Allah ayəsində, **"Rəbbinin yoluna hikmətlə və gözəl öyüd-nəsihətlə dəvət et..."** (Nəhl surəsi, 125) şəklində əmr etmişdir. Allahın dininə dəvət, Quranın hökmlərinin "hikmətlə və gözəl öyüd-nəsihətlə" izah edilməsilə olur. Bu təbliğ əsnasında, Allahın varlığı, birliyi və yaratmasındakı bənzərsiz sənəti kimi mövzular izah edilərək dinə dəvət edilən insanın Allaha qarşı olan hörməti, sevgisi və qorxusu artırılır. Gözəl əxlaqlı insanın hadisələr qarşısında necə davranacağı ətraflı olaraq təsvir edilir. İnsanın dünyada mövcudluq məqsədi, burada sınaqdan keçirildiyi, ölümün yaxınlığı, ölümün ardından hesaba çəkiləcəyi, bu hesaba görə cənnətə və ya cəhənnəmə gedəcəyi də izah edilir. Allahın sonsuz ədalətiylə cənnəti və cəhənnəmi necə hazırladığı da xatırladılaraq insanın pis nəticədən qorxub çəkinməsi təmin edilir. Allahı, Quranı və axirəti bu təriflərlə tanıyan kəslər, bu mərhələdən sonra vicdanlarından istifadə edərək hərəkət etdikləri təqdirdə Allahın əmrlərini əskiksiz olaraq yerinə yetirməyə çalışarlar.

## 65. Gündəlik həyatda insan necə dərin düşünə bilər?

İnsan gündəlik həyatın axışı içində çox şey düşünər. Məsələn, o gün edəcəyi işləri, gedəcəyi yerləri, ona deyilən yaxşı, ya da pis bir şeyi, işi ilə, ya da məktəbiylə əlaqədar olaraq etdiklərini, uzun müddətli planlarını düşünər. Bunlara bənzər bir çox düşüncə gün ərzində beynini məşğul edə bilər. Bunların hamısı lazım olan düşüncələrdir, amma bu kimi düşüncələr insanın zehnində lazım olduğu qədər yer tutmalıdır. Çünki təcili olaraq düşünülməli olan və insanın sonsuz həyatını maraqlandıran çox daha əhəmiyyətli mövzular vardır.

İnsan əvvəlcə özünün və ətrafındakı bütün canlıların necə var olduqlarını, bunların varlıqlarını necə davam etdirdiklərini ətraflı olaraq düşünməlidir. Buna bağlı olaraq bütün bu varlıqları yoxdan var edən və varlıqlarını davam etdirən Allahı və Onun sifətlərini təfəkkür etməlidir. Ardından bu sonsuz qüdrət və elm sahibi Rəbbimizin onu yaratma məqsədini və ondan nələr istədiyini düşünməlidir. Allahın ayələrini və əmrlərini ən yaxşı şəkildə yerinə yetirmə qətiyyətini göstərməlidir. Bu arada onu gözləyən qaçınılmaz sonu, yəni ölümü və axirət həyatını da heç ağlından çıxarmamalı, daim bunu şüurunda saxlayaraq buna uyğun davranmalıdır. Özünü bu kimi vacib mövzulardan uzaqlaşdıraraq, qəflətə sürükləyən, müvəqqəti və sonsuz həyatına faydası olmayacaq, hətta zərəri toxunacaq iş, düşüncə, hərəkət və danışıqlardan da həmişə çəkinməlidir.

İnsanın zehni tutumu əslində çox genişdir. Əhəmiyyətli olan insanın bundan istifadə edə bilməsi, zehnini gərəksiz düşüncələrlə məşğul etməməsidir.

Gündəlik həyatına davam edərkən insan, bir tərəfdən də bu əhəmiyyətli mövzuları düşünə bilər. Üstəlik də bu mövzuları çox ətraflı düşünərək, mövzu-mövzu nəzər salaraq, ayələrlə şərh edərək düşünə bilər. Məsələn, gününün 9-10 saatını iş yerində, ya da məktəbində keçirən insan, gün ərzində çoxlu düşünəcəyi şeylə qarşılaşır. Bunlar Quranda təsvir edilən insan xarakterləri ola bilər, içində olduğu, yaşadığı mühitlər ola bilər. Vicdandan istifadə etmə, nəfsə uyma, həsəd, təvazökarlıq, təvəkkül, səbir kimi yüzlərlə mövzunu, tamamilə yaşayaraq düşünə bilər, üstəlik bu mövzuları hər istiqamətiylə düşünərək kəskinləşdirər. Əhəmiyyətli olan insanın bu fürsətləri görməsi və yaxşı qiymətləndirməsidir.

Bir də ətrafında baş verənlərə; çiçəklərin açmasından səmada quşların uçmasına, tənəffüs etdiyi oksigenin nisbətindən və canlılara verdiyi faydadan ürəyinin döyünməsinə qədər bir çox mövzunu ətraflı olaraq düşünə bilər. Suallar soruşaraq, cavabları ilə maraqlanaraq, məlum şərhlərin xaricinə çıxaraq düşünən insan dərin düşünməyə başlayar. Allah Quranda möminlərin düşünən insanlar olduqlarından belə bəhs edər:

**Doğrusu, göylərin və yerin xəlq edilməsində, gecə ilə gündüzün bir-birini əvəz etməsində ağıllı adamlar üçün dəlillər vardır. O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edir, göylərin və yerin yaradılması haqqında düşünür və deyirlər: "Ey Rəbbimiz! Sən bunları əbəs yerə xəlq etməmisən. Sən pak və müqəddəssən. Bizi Odun əzabından qoru! (Ali İmran surəsi, 190-191)**

## 66. Dərin düşünməyə nələr mane olar?

Bir mövzunu düşünərkən insanın diqqəti başqa şeylərə gedə bilər. Əhəmiyyətli bir mövzunu düşünərkən insan birdən-birə özünü ertəsi gün edəcəyi gərəksiz bir işi, ya da əlində tutduğu qələmi düşünərkən tapa bilər. Düşüncənin dağılması isə dərinləşməyə mane olar.

Həmçinin, bir mövzu haqqında yetərli məlumatı olmadığında da insanın düşünmə tutumu müəyyən yerə qədər irəliləyə bilər. Amma bu, yenə də dərin düşünməyi əngəlləyəcək səbəb deyil. İnsan necə və nə istiqamətdə düşünəcəyini bilirsə, o mövzuda özünü inkişaf etdirə bilər və lazımdırsa məlumatını da artıra bilər.

Ancaq düşünməni əngəlləyən ən əhəmiyyətli faktorlardan biri heç şübhəsiz ki, ülfət yəni hadisələrə vərdiş gözlüylə baxmaqdır. Ətrafında reallaşan hadisələri dünyaya gəldiyi andan etibarən davamlı görən insan, əgər ətraflı düşünməzsə bunların hamısını təbii qarşılaya bilər. Məsələn, canlılardakı fövqəladə yaradılışı görə bilməz. Hər zaman görməyə vərdiş etdiyi üçün qarışqanın öz ağırlığının 200-300 qatı qədər cismi asanlıqla metrlərlə uzağa daşıdığını, bunun çox əhəmiyyətli təfərrüat olduğunu, bu qarışqaya belə çətin bir şeyi reallaşdıra biləcək fiziki mexanizmi kimin verdiyini heç düşünməz. Özünün bunu heç bir şəkildə edə bilməyəcəyini isə ağlına belə gətirməz. Və ya quşun qanadının bütün quruluşundakı incəlikləri, bu quşun qanad mexanizminin son dərəcə xüsusi yaradılışı tələb etdirdiyinin fərqinə vara bilməz. Halbuki dərin düşünə bilən insan tək bir tükü belə əlinə alıb, onu ətraflı araşdıraraq çox əhəmiyyətli nəticələrə gələ bilər. Ləlləkdəki düzülüşdən, lələyi meydana gətirən maddənin quruluşunun sağlamlığına qədər bir çox əhəmiyyətli, amma üzərində düşünülməyən incəliyi görərək tapa bilər. Tək lələyə baxaraq bunun üzərindəki yaradılış dəlillərini təsbit edə bilər.

Ancaq bunu da qeyd etmək lazımdır ki, ülfətsiz şəkildə düşünə bilmək üçün insanın mütləq çox şey bilməsinə ehtiyac yoxdur. Yalnız ətrafındakı canlılara, səmaya və hətta öz bədəninə diqqətlə baxması yetərli olacaq. Allah bu mövzuya Qaf surəsində belə örnəklə diqqət çəkir:

**Məgər onlar başları üstündəki göyə baxıb onu necə yaratdığımızı və necə bəzədiyimizi görmürlərmi? Orada heç bir yarıq da yoxdur. Biz yeri döşədik, orada möhkəm dağlar yerləşdirdik və gözoxşayan bitkilərin hər növündən yetişdirdik. Bunu, Allaha üz tutan hər bir qul üçün ibrət və öyüd-nəsihət olsun deyə belə etdik. Biz göydən bərəkətli su endirdik, onunla bağlar və biçilən taxıl dənələri bitirdik. Eləcə də meyvələri salxım-salxım asılmış hündür xurma ağacları bitirdik. Qullara ruzi olsun deyə belə etdik! Biz onunla ölü bir məmləkəti diriltdik. Dirilib qəbirdən çıxmaq da belədir. (Qaf surəsi, 6-11)**

## 67. Düşünməkdən qaçan insanlar necə itkiyə məruz qalarlar?

Allah Quranda insana düşünməyi tövsiyə edir. Bir çox ayəsində nümunələr verərək "düşünmürsünüzmü?" deyə soruşar.

Əslində insan gün ərzində, öyüd alıb düşünə biləcəyi, Allahın sənətini görə biləcəyi, Onun yaratmasının dəlillərini qavraya biləcəyi və Onun ucalığını, böyüklüyünü anlayaraq, Allahın

şanını ucalda biləcəyi çox fürsətlə qarşılaşır. Düşünməyən insan qarşısına çıxan bu fürsətləri gündəlik həyatın axışı içində yaranan hadisələr olaraq qiymətləndirər və bunların əhəmiyyətini qavraya bilməz.

Məsələn, qəza, ya da xəstəliklə qarşılaşdığında, ümumiyyətlə bunun ona Allaha yönəlməsi üçün verilmiş xüsusi vəziyyət ola biləcəyini düşünməz. Halbuki, Allah ayələrində insanlara düşünmələri üçün xüsusi olaraq verilən sıxıntılardan bəhs edər:

**Onlar ildə bir və ya iki dəfə fəlakətə uğradıqlarını görmürlərmi? Yenə də tövbə etmir, ibrət almırlar. (Tövbə surəsi, 126)**

Özünə edilən bu istiqamətdəki xatırlatmaları görməzlikdən gəlmək isə sadəcə insanın özünə zərər verər. Üstəlik bu, insanın düşünmədiyinə görə məruz qaldığı saysız itkidən yalnız biridir.

Düşünməyən insan ətrafındakı gözəlliklərin də fərqinə vara bilməz. Allahın yaratdığı incəliklərdən zövq ala bilməz. Hər şeyin Yaradıcısı olan Allahın varlığının dəlillərini, Onun ehtişamını qavraya bilməz. Məhz bu da insan üçün çox böyük nemət itkisidir. Çünki dünyadakı bütün gözəllikləri yaradanın Allah olduğunu fərq edə bilməyən insanın axirətə imanı da olmaz, ya da çox zəif olar. Dünyadakı hər şeyin ölümlə son tapacağını zənn etdiyi üçün, bu müvəqqəti şeylərdən gerçək mənada zövq alması da mümkün deyil. Əksinə gördüyü gözəlliklərə yalnız əvvəl-axır bir gün itirəcəyi şeylər olaraq baxar. Bu da bu nemətlərdən zövq almaq yerinə, onlara baxıb çətinlik duymasına səbəb olar.

## 68. Yaradılanlar üzərində düşünmək insana necə faydalar təmin edər?

Düşünməkdən qaçan insanın əksinə, hər şeyi Allahın yaratdığını düşünən insan, baxdığı hər incəlikdə Allahın sənətini görər, hər şeyin insan üçün xüsusi olaraq yaradıldığını başa düşər.

Məsələn, insan da daxil olmaqla bütün canlılardakı mükəmməl sistemləri, yaşadığı planetin və içində olduğu kainatın fövqəladə güclə inşa edildiyini düşünmək, insanın əvvəlcə Allahı daha yaxşı tanımasını təmin edər. Bu da o insanın qəlbinə yumşaqlıq verər və Allaha olan hörmətini, sevgisini və qorxusunu artırar. Bu insan ətrafındakı ağaclardan quşlara, qarışqalardan kəpənəklərə qədər hər cür canlıda, bu canlıların sahib olduqları hər mexanizmdən davamlı olaraq Allahın sənətini, ucalığını görəcəyi üçün imanı güclənir. Allah ancaq düşünən insanların ətraflarındakı iman dəlillərini görüb dəyərləndirə biləcəklərinə belə diqqət çəkər:

**Həqiqətən də, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birilə əvəz olunmasında, insanlara fayda verən şeylərlə yüklənmiş halda dənizdə üzən gəmilərdə, Allahın göydən endirdiyi, onunla da ölmüş torpağı diriltdiyi suda, Onun bütün heyvanatı yer üzünə yaymasında, küləklərin istiqamətinin dəyişdirilməsində və göylə yer arasında ram edilmiş buludlarda, başa düşən insanlar üçün dəlillər vardır. (Bəqərə surəsi, 164)**

Allaha qəti olaraq iman edən insan, dünyanın məqsədsiz yer olmadığını, düşünməsi və tətbiq etməsi lazım olan çox əhəmiyyətli şeylərin olduğunu da anlayır. Ona verilən hər şeyin nemət olduğunu bilir və şükür edər. Axirəti həmişə düşünər və o günün qorxusundan uzaq olmaq üçün bağışlanma diləyər.

Düşünmənin ən əhəmiyyətli xüsusiyyəti də heç şübhəsiz hər kəsin öz səyiylə əldə etdiyi qazanc olmasıdır. Kimsə kimsəni heç bir şey üçün düşünməyə məcbur edə bilməz. Buna görə ətraflı düşünən insan özünə fayda vermiş olar. Allah Quranda ancaq düşünən insanın qarşılaşdığı hadisələrdən ibrət ala biləcəyinə və öyüd-nəsihət qəbul edən insanların sonsuz həyatlarını qurtara biləcəklərinə diqqət çəkər. Digər şəxslərin isə öyüd-nəsihətdən qaçdıqlarını, bundan ötrü sonsuz peşmanlıqla qarşılaşacaqlarını xəbər verir:

**Xatırlatmanın fayda verdiyini görsən, onlara xatırlat! Allahdan qorxanlar öyüd-nəsihət götürərlər. Ən bədbəxt kimsələr isə onu qulaqardına vurarlar. O kimsə ki, Cəhənnəmə atılacaq, O orada nə öləcək, nə də yaşaya biləcəkdir. (Əla surəsi, 9-13)**

## 69. Allahın qədrini layiqincə təqdir etmək necə olar?

İnsan hər gün, oyandığı andan etibarən Allahın ona verdiyi nemətlərlə qarşılaşar. Nəfəs ala bilir, görə bilir, eşidə bilir, düşünə bilir, ürəyi döyünür, hüceyrələri yenilənir. Acar yemək yeyər və ləzzət alar, güc qazanar. Susar, susuzluğunu aradan qaldırar. Danışar.

Bunlar, Allahın insan üçün yaratdığı nemətlərdən yalnız bir neçəsidir. Nemətlərin fərqində olan insan üçün əsl əhəmiyyətli olan Allahın qədrini haqqı ilə təqdir edə bilməkdir. Çünki Allah şanı çox uca olandır, hər şeyin sahibidir, yaradıcısıdır. Allahı üstün sifətləriylə düşünərək, tanımağa çalışmaq lazımdır. Allah ayələrdə şanının ucalığını bizə belə bildirir:

**Onlar Allahı layiqincə qiymətləndirmədilər. Halbuki Qiyamət günü yer bütünlüklə Onun Ovcunda olacaq, göylər isə Onun Əli ilə büküləcəkdir... (Zumər surəsi, 67)**

Kainatda; insanın öz yaradılışından qiyamətin meydana gəlmə mərhələlərinə, göylərin yaradılmasından dənizlərin və dağların varlığına qədər hər hadisədə ehtişam və sərhədsiz güc vardır. Və bu güc yalnız yüksək ağıl sahibi olan Allaha aiddir.

Allah insanlara kitablar endirmiş və peyğəmbərlər göndərmişdir. Özünü, həm yaratdığı canlılarda sərgilədiyi bənzərsiz sənətiylə və elmi ilə, həm də kitabları və peyğəmbərləri vasitəsilə bizə tanıdır. İnsana düşən isə Allahın ucalığını, böyüklüyünü gərəyi kimi təqdir edə bilmək üçün mümkün qədər dərin düşünməkdir.

## 70. İnsan səhv etdiyində və ya unutduğunda nə etməlidir?

İnsan, aciz olaraq yaradılmışdır, bu səbəblə bəzi şeyləri unuda bilər və ya hər hansı mövzuda səhv edə bilər. Unutmamaq və səhv etməmək yalnız Allaha aid xüsusiyyətlərdir. Əhəmiyyətli olan insanın doğrunu xatırladığında dərhal tətbiq etməsidir. Allah bu mövzudakı tətbiqin nümunəsini Ənam surəsində belə bildirilir:

**... Şeytan sənə unutdursa, xatırladıqdan sonra zalım tayfa ilə birgə oturma. (Ənam surəsi, 68)**

Ayədə görüldüyü kimi, insan gözəl olmayan davranışı unudaraq və ya fərqində olmayaraq edə bilər. Buna görə insanın unutduğu və ya səhv etdiyi şeylərdən ötrü kədərə qapılması və ya narahat olması son dərəcə yersiz olar. Belə vəziyyətlərdə möminlərin etməli olduğu Allahın sonsuz mərhəmətinə və bağışlayıcılığına sığınmaq və **"... Ey Rəbbimiz, unutsaq və ya xəta etsək bizi cəzalandırma ..."** (Bəqərə surəsi, 286) deyərək dua etməkdir.

## 71. Tarixdə yaşayan bütün cəmiyyətlərə elçi göndərildimi?

Allah Quranda, gəlib keçmiş bütün cəmiyyətlərə xəbərdar edici göndərdiyini bildirmişdir. Allahın elçiləri göndərildikləri cəmiyyətlərə doğru yolu göstərən kəslər olmuşlar, insanlara Allahın qadağanlarını bildirmişlər, ölümün yaxınlığını, cənnətin və cəhənnəmin varlığını, dünyada var olma məqsədlərini izah etmişlər və onları Allahın dininə dəvət etmişlər. Allahın ədaləti nəticəsində, bütün insanlar Onun elçiləri vasitəsiylə xəbərdar edilib qorxudulmuşlar və müjdələnmişlər. Bu, axirətdə insanların “mənim bir şeydən xəbərim yox idi” deyə bilməyəcəklərini, hər insanın Allahın çağırışını duyduğunu göstərən çox əhəmiyyətli mövzudur. Allah ayəsində insanlara belə bildirmişdir:

**Həqiqətən, Biz səni haqla müjdə verən və qorxudub xəbərdar edən olaraq göndərdik. Elə bir ümmət yoxdur ki, ona xəbərdar edən bir peyğəmbər gəlmiş olmasın. (Fatir surəsi, 24)**

## 72. İnkarçılar tarix boyunca niyə bütün peyğəmbərlərə böhtan atmışlar?

Peyğəmbərlərin daim Allahın dinini təbliğ etmələri inkarçıları heç bir zaman məmnun etməz. Çünki izah edilənləri anlayan və tətbiq etməyə başlayan insanlar tamamilə dəyişməyə,

inkarçıların batil sistemlərindən uzaqlaşmağa başlayırlar. Məsələn, iman etdikdən sonra yalnız Allahdan qorxmalı olduğunu bildikləri üçün onları başqa hər hansı bir şeylə qorxutmaq mümkün olmaz. Daima dinin mənfəətlərini güdərək hərəkət edəcəkləri üçün inanan insanları heç bir şey yormaz, ya da doğru olandan ayıra bilməz. Bu kəslər şərtlər nə olursa olsun, qarşılığında nə verilirsə verilsin, ədalətdən və haqqı söyləməkdən çəkinməzlər, doğru bildiklərindən dönməzlər.

Bu vəziyyət isə inkarçıları narahat edər, çünki öz dünyəvi mənfəətləri təhlükəyə girər. Məsələn, inkarçılar öz zehniyyətlərini yaşamağa və ətraflarında yaşatmağa çalışarkən, peyğəmbər tərəfindən hazırlanmış olan möminlər yalnız Allahın əmrlərinə tabe olarlar. İnkarçıların yaşadıqları cahillik sisteminin səhvini, dünyada və axirətdə insanlara hüzur və xoşbəxtlik verəcək olan dinin gözəlliyini insanlara öyrədirlər.

Məhz bu səbəblərdən ötrü, inkarçılar hər dövrdə müxtəlif üsullardan istifadə edərək göndərilən elçiləri əngəlləməyə çalışarlar. Bunun müxtəlif nümunələri Quranda inananlara xəbər verilir. İnkarçılar ilk əvvəl son dərəcə əsassız və ağıldan kənar danışıqlarla, Allahın elçilərinin izah etdiyi mövzuları yalanlamağa cürət edərlər. Şifahi təhdidlərlə onları dayandırmaq üçün çalışarlar. Şifahi olaraq müvəffəqiyyət əldə etmədiklərində isə feli üsullardan istifadə edərək inananları haqq olan yoldan döndərməyə çalışarlar. Necə ki, bu üsullardan heç biri fayda verməz; elçilərin və saleh möminlərin izah etdikləri doğruların əksinə dəlil gətirə bilməzlər; onların fikirlərinə qarşı fikirlər irəli sürə bilməzlər.

Allah bir çox ayəsində inkarçıların şifahi hücumlarına, peyğəmbərlər üçün qarşıya qoyduqları əsassız iddialara nümunələr vermişdir:

**Qövmünün kafir zadəganları dedilər: "O da sizin kimi sadəcə bir insandır. Sizə böyüklük etmək istəyir. Əgər Allah elçi göndərmək istəsəydi, mələklər göndərərdi. Biz bunu ulu babalarımızdan eşitməmişik. Bu ancaq cinli bir adamdır. Odur ki, ona münasibətdə bir müddət gözləyin!" (Muminun surəsi, 24-25)**

**Bu, ancaq Allaha iftira yaxan bir adamdır. Biz ona inanan deyilik". (Muminun surəsi, 38)**

**...Onlar isə: "Bu, yalançı bir sehrbazdır!" – dedilər. (Mümin surəsi, 24)**

Quranda Allah bu tip böhtanların inkarçılar arasında sanki ənənəviləşmiş olduğunu isə ayəsində belə bildirir:

**Beləcə, onlardan əvvəlkilərə də elə bir elçi gəlmədi ki, onun barəsində: "Sehrbazdır, ya da dəlidir!" – deməsinlər. Onlar bunu bir-birinə vəsiyyətmi etmişlər? Xeyr, onlar həddi aşan adamlardır. (Zəriyət surəsi, 52-53)**

## 73. İnkarçıların bu səyləri nəticə verərmi?

İnkarçıların Allahın elçilərinə və möminlərə qarşı etdikləri şifahi və ya feli mübarizə heç bir zaman nəticəyə gələ bilməz. Çünki Allah **"...Möminsinizsə, üstün olacaqsınız"** (Ali İmran surəsi, 139) ayəsiylə dünyada və axirətdə hər zaman üstün olanın Öz tərəfdarları olduğunu müjdələmişdir.

Görürük ki, dünya tarixi boyunca inkar edənlər, möminlərə qarşı həmişə mübarizə içində olmuşlar. Ancaq bu mübarizələr hər zaman möminlərin lehinə nəticələnmişdir. Bu Uca Allahın vədidir. Allah Quranda davam edən bu qanununu bu şəkildə bildirmişdir:

**Allah əzəldən belə yazmışdır: "Mən və elçilərim hökmən qalib gələcəyik!" Həqiqətən, Allah Qüvvətlidir, Qüdrətlidir. (Mücadilə surəsi, 21)**

## 74. Möminlərin dünyadakı həqiqi dostları kimdir?

Allah möminlərin dostudur. Allah Onu dost qəbul edən, yalnız Onun razılığını güdən möminlərin qoruyucusu və nəzarətçisidir. Möminlərin dünyadakı hər cür işlərində Allahın köməyi və dəstəyi vardır, Allahın razılığını güdərək etdikləri hər iş mütləq xeyirlə nəticələnər. Bir ayədə **"Həqiqətən də, Allah Ondan qorxanlar və yaxşı işlər görənlərlədir."** (Nəhl surəsi, 128) deyə xəbər verilir. Allah başqa ayəsində isə, iman edənlərə dəstəyini belə müjdələmişdir:

**Allah iman gətirənlərin Himayədarıdır, onları zülmətlərdən nura çıxarır... (Bəqərə surəsi, 257)**

Həmçinin Allaha könüldən iman edən möminlər də bir-birinin dostlarıdır. İnanan insanlar daim bir-birlərini gözəl olana dəvət edər, pis olan şeylərdən çəkindirərlər. Bir-birlərini cənnətə layiq insanlar halına gətirmək, axirətdəki dərəcələrini artırmaq üçün səy göstərərlər. Allah Quranda inananların kimləri dost seçməli olduğunu belə bildirmişdir:

**Sizin himayədarınız yalnız Allah, Onun Elçisi və iman gətirənlərdir. Onlar Allaha boyun əyərək namaz qılır və zəkat verirlər. Kim Allahı, Onun Elçisini və iman gətirənləri özünə dost tutarsa, bilsin ki, qələbə çalanlar da məhz Allahın firqəsidir. (Maidə surəsi, 55-56)**

## 75. Möminlərdən başqası nə üçün dost seçilə bilməz?

Möminlər üçün Allaha könüldən iman etməyən, Allahın sərhədlərini tanımayan, Allahdan qorxub çəkinməyən insanlar dost ola bilməz. Əlbəttə bu kəslərlə də hörmət çərçivəsində yaxşı əlaqələr qurula bilər, ancaq onlarla yaxın dostluq qurmaq mümkün olmaz. Allahın dostluğunu, sevgisini və razılığını qazanmaq istəyən mömin əlbəttə ki, Onun dost etdiklərini özünə dost görər. Əks rəftarın Allahın dostluğunu və məmnuniyyətini itirməsinə səbəb ola biləcəyini bilir. Allah möminləri belə münasibətə qarşı belə xəbərdar etmişdir:

**Ey iman gətirənlər! Möminləri qoyub kafirləri özünüzə dost tutmayın. Yoxsa Allaha öz əleyhinizə açıq-aydın bir dəlil verməkmi istəyirsiniz? (Nisa surəsi, 144)**

Bununla yanaşı iman etməmiş kəslərlə möhkəm dostluq qurulması texniki olaraq da mümkün deyil. Ən əsas bu kəslərin böyük əksəriyyəti etibarlı ola bilməzlər. Şəxsi maraqları, nəfsi və təkəbbürüylə zidd düşdüyü üçün Allahın ayələrindən üz çevirən, Allahın dostluğunu itirməyi qəbul edən kəsin hər hansı biriylə olan dostluğunda sadiq və vəfalı olması mümkün deyil. Əlbəttə ki, öz mənfəətləriylə zidd düşdüyü vəziyyətdə dostu olduğunu söylədiyi kəsi də tərəddüd etmədən tərk edəcək. Hətta işinə gəldiyində ona xəyanət etməkdən belə çəkinməyəcəkdir.

İnkarçılar heç bir zaman gerçək mənada fədakarlıq edə bilməzlər, çünki bütün həyatları və zehniyyətləri eqoizm üzərində qurulmuşdur. Dostum dedikləri adamın axirətdəki vəziyyətini düşünməzlər, onu cəhənnəmdən uzaq tutacaq şəkildə yaxşılığı əmr edib, pislikdən çəkindirməzlər. Qısacası, bir dostun sahib olacağı xüsusiyyətlərə sahib deyildirlər. Ayədə bu şəkildə bildirilmişdir:

**Ey iman gətirənlər! Sizlərdən olmayanı özünüzə sirdaş tutmayın. Onlar sizə qarşı fəsad törətməkdən əl çəkməzlər, sizin sıxıntıya düşməyinizi istəyərlər. Düşmənçilikləri onların ağızlarından çıxan sözlərdən bəllidir. Köksləri̇ndə gizlətdikləri düşmənçilik isə daha böyükdür. Əgər anlayırsınızsa, Biz ayələri artıq sizə bəyan etdik. (Ali İmran surəsi, 118)**

## 76. Şeytanı dost tutanlar kimlərdir?

Şeytanın ən əhəmiyyətli xüsusiyyəti, insanları Allahın yolundan döndərmək üçün and içmiş olmasıdır. Bu səbəbdən inkar edən, insanları Allahın yolundan uzaqlaşdırmağa çalışan, Allaha və dinə qarşı olan, insanlara Allahı, axirəti və dini unutduran hər adam şeytanın dəstəkçisi və dostudur. Ancaq bu insanlar etdikləri əməllərə görə dünyada və axirətdə uğursuzluqla qarşılaşacaqlar. Allah şeytanın insanları azdırma səyini və onu dost tutanların aqibətini, məruz qalacaqları sonu belə xəbər vermişdir:

**Allah şeytana lənət etdi. O isə dedi: "Mən Sənin qullarından müəyyən bir qismini hökmən ələ alacağam. Mən onları mütləq doğru yoldan azdıracaq və xülyalara salacağam; onlara mal-qaranın qulaqlarını kəsməyi buyuracaq və Allahın yaratdıqlarına dəyişiklik verməyi əmr edəcəyəm". Allahı qoyub şeytanı özünə himayədar tutan şəxs açıq-aşkar ziyana uğramışdır. (Nisa surəsi, 118-119)**

## 77. İnsan dünyada ikən cənnətə gedəcəyindən əmin ola bilərmi?

Heç kim dünyada ikən cənnətə gedəcəyindən əmin ola bilməz. Allah **"... qorxu və ümidlə yalvarın..."** (Əraf surəsi, 56) ayəsiylə insanın "həm qorxu, həm də ümid" dolu olmasının zəruriliyini bildirir. Hər insan gücünün çatdığı ən yüksək səyi göstərərək, Quranın hökmlərini qüsursuz tətbiq edərək, Allahın məqbul gördüyü gözəl əxlaqı həyatının hər anında həyata keçirərək Allahın razılığını qazanmağa çalışmalıdır. Bu səylərinin qarşılığı olaraq cənnəti ümid edə bilər, ancaq heç bir zaman əmin ola bilməz.

## 78. Quranda bəhs edilən "öndə gələnlər" kimlərdir?

Elçilər, qövmlərini Allahın dininə dəvət etdiklərində, hər qövmdə onlara qarşı çıxan, işlərini əngəlləmək istəyən, iman edənlərə çətinlik çıxaran təbəqə olmuşdur. Quranda bu insanların ümumiyyətlə, o birliyin öndə gələnlərindən olduqları bildirilir. Çünki bu insanlar yaşadıqları cəmiyyət içində zənginlik, güc və mövqe sahibi olan kəslərdir. Bu kəslərin Allahın elçilərinə qarşı gəlmələrinin və azğınlıq göstərmələrinin səbəbi sahib olduqları bu dünyəvi imkanlarını, nüfuz və etibarlarını itirmək qorxusundan qaynaqlanır. Quranda bu insanların hər dövrdə var olduqları belə xəbər verilmişdir:

**Beləliklə hər bir ölkədə oranın günahkarlarını başçılar təyin etdik ki, onlar orada mümkün qədər yaramaz işlər görsünlər. Halbuki onlar o yaramaz işləri yalnız özlərinə qarşı edirlər və bunu da hiss etmirlər. (Ənam surəsi, 123)**

Əslində bu insanlar da tamamilə Allahın yaratdığı qədərə tabe olan və möminlərin üstünlüklərinin ortaya çıxması üçün Allahın xüsusi olaraq yaratdığı kəslərdir. Quranda bildirildiyi kimi, Allah bu kəslərin qurduqları tələlərin pis nəticəsini özlərinə döndərmiş və sahib olduqlarını daha dünyada ikən əllərindən almış və bunlara möminləri varis etmişdir. Allah, Misirdə böyük güc və mövqe sahibi olan Firon və onun qabaqda gələn ətrafıyla, hz. Musa və onunla birlikdə möminlərin mübarizəsinin nəticəsini belə xəbər verir:

**Musa ilə olan zəif qövmü isə yer üzünün xeyir-bərəkət verdiyimiz şərq və qərb bölgələrinə varislər təyin etdik. Səbir etdiklərinə görə Rəbbinin İsrail oğulları barəsindəki gözəl Sözü yerinə yetdi. Biz Firon və onun xalqının qurduqlarını və tikib ucaltdıqlarını darmadağın etdik. (Əraf surəsi, 137)**

**Biz onları (o zalım tayfanı) bağlardan və çeşmələrdən çıxartdıq; xəzinələrdən və gözəl yerlərdən də qovduq. Beləcə, Biz İsrail oğullarını o yerlərə varis etdik. (Şuəra surəsi, 57-59)**

Allahın bütün möminləri ehtiva edən bu ümumi qanunu başqa ayədə belə açıqlanır:

**Biz Zikrdən (Lövhi-məhfuzdakı yazıdan) sonra nazil etdiyimiz kitablarda da yazmışdıq ki, yer üzünə Mənim əməlisaleh qullarım varis olacaqlar. (Ənbiya surəsi, 105)**

Qövmlərin öndə gələn inkarcılarının, tövbə edib mövqelərini dəyişdirməzlərsə, axirətdəki sonları isə qaçılmaz və acı əzabdır.

## 79. “Saleh əməl” nə deməkdir?

Saleh əməl, qatqısız olaraq Allahın razılığını qazanmaq üçün edilən işlərdir. Bir insan zahirən çox böyük xeyir və ya fədakarlıq kimi görünən bəzi işlər edə bilər. Məsələn, möhtac olan insanlara böyük yardım edə bilər. Ancaq etdiyi yardımın miqdarı o işin saleh əməl olduğunun göstəricisi deyil. Çünki insanlar bu cür yardımları cəmiyyətdə yaxşı bilinmək, insanlara nümayiş etmək və ya iş həyatında güvən qazanmaq üçün də reallaşdıra bilərlər. Bir işin “saleh əməl” olması üçün yalnız Allahın razılığını qazanmaq məqsədiylə edilmiş olması lazımdır.

Saleh əməl görərkən insan, o işdə edə biləcəyinin ən yaxşısını, ən gözəlini etmək üçün səy göstərər. Çünki məqsədi göstəriş etmək deyil, o işdə Allahı ən çox məmnun edəcək nəticəni əldə etməkdir. Məhz bu səmimi səylərindən ötrü yaxşı işlər görən möminlər bir çox ayədə cənnətlə və gözəl həyatla müjdələnirlər:

**Sözsüz ki, iman gətirib saleh əməllər edənlər və Rəbbinə boyun əyənlər Cənnət sakinləridir. Onlar orada əbədi qalacaqlar. (Hud surəsi, 23)**

**Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq. (Nəhl surəsi, 97)**

## 80. Mömin zənginləşdiyi zaman rəftarı necə olar?

Mömin bütün mülkün əsl sahibinin Allah olduğunu və Allahın mülkü kimə dilərsə ona verəcəyini bilir. Bu səbəblə, mal-dövlət baxımından zənginləşdiyində əlindəkilərə görə lovğalanıb azğınlaşmaz, Allaha ona verdiyi nemətlərə görə şükür edər və sahib olduqlarını Allahın ən çox razı olacağı şəkildə istifadə edər.

Allah, Quranda mülk sahibi insanın nümunəsini verir. Bu insanın olduqca məhsuldar bağları vardır. Ancaq bu nemətləri ona Allahın verdiyini anlamazlıqdan gələrək nankor davranar və sahib olduqları ilə öyünər. Mömin olan yoldaşı isə onu bu rəftarından ötrü xəbərdar edər və belə deyər:

**Onunla söhbət edən yoldaşı isə dedi: "Səni torpaqdan, sonra nütfədən yaratmış, daha sonra səni kişi qiyafəsinə salmış Rəbbinə küfrmü edirsən? Lakin Allah mənim Rəbbimdir və mən heç kəsi Rəbbimə şərik qoşmaram! Bağına girdiyin zaman: "Maşallah (Allahın istədiyidir)! Qüvvət yalnız Allaha məxsusdur!" – deməli deyildinmi? Əgər var-dövlətcə və övladca məni özündən kasıb sayırsansa, (Kəhf surəsi, 37-39)**

Məhz mömininin rəftarı da ayədə ifadə edildiyi kimi nemət qarşısında dərhal Allahı xatırlamaq və Ona həmd etməkdir.

## 81. Hikmət sahibi olmaq nə deməkdir?

Hikmət sahibi olmaq hər zaman ağıllı, əsaslı, məqsədəuyğun danışmaq və davranmaqdır. Hikmət sahibi insan hadisələrin iç üzünü və gerçək istiqamətlərini görmə qabiliyyətinə və dərin qavrayışa sahibdir. Bu səbəblə hər qərarı, hər hərəkəti məqsədəuyğun olar. Danışığı çox təsir edicidir. İzah etdiyi hər şey insanların qəlbində səmimi təsir yaradır.

Hikmət, hər an Allaha yönələn, Qurana görə yaşayan, daima Qurana görə düşünən səmimi və ixlaslı insanlara Allah Qatından verilən xüsusiyyətdir. Allah **"Allah istədiyi kəsə hikmət bəxş edir. Kimə hikmət verilmişsə, ona çoxlu xeyir nəsib edilmişdir..."** (Bəqərə surəsi, 269) ayəsiylə hikmətin böyük nemət olduğunu bildirmişdir.

## 82. İsraf Quranda necə bəhs edilir?

Allah israfı qullarına haram etmişdir. Və xərcləyərkən hansı ölçü ilə etməli olduqlarını belə bildirmişdir:

**Onlar mallarını xərclədikdə nə israfçılıq, nə də xəsislik edər, bunların arasında orta bir yol tutarlar. (Furqan surəsi, 67)**

Müsəlmanlar sahib olduqları hər şeyi Allah yolunda, Allahı ən çox razı edəcəkləri şəkildə istifadə edərlər. Əllərindəki hər şeyin onlara Allahın verdiyi nemət olduğunu, bunların heç birinin əsl sahibləri olmadıqlarını unutmazlar. Fədakarlıq etməli olduqları zaman da sahib olduqları hər şeyi Quranın əmr etdiyi şəkildə xərcləyər, ancaq gərəksiz yerə xərc olacağı zaman tək bir qəpiyi də israf etməkdən çəkinərlər. Allah Quranda möminlərə, ehtiyacı olan kəslərə mallarından vermələrini, ancaq israf etməmələrini əmr etmişdir:

**Qohum-əqrəbaya da, yoxsula da, müsafirə də haqqını ver. Lakin malını lazım olmayan yerə sərf etmə. Həqiqətən, israfçılar şeytanların qardaşlarıdır. Şeytan isə Rəbbinə qarşı nankordur. (İsra surəsi, 26-27)**

Həmçinin israfın nemətlərdən uzaq durmaq olaraq başa düşülməməsi lazımdır. Allah Quranda **"... yeyin, için və israf etməyin. Çünki O, israf edənləri sevməz."** (Əraf surəsi, 31) ayəsiylə bildirildiyi kimi, inananların nemətlərdən faydalanmasını bildirmiş və yalnız onların israf edilməsini qadağan etmişdir. Lakin bu gün din əxlaqından uzaq olan cəmiyyətlərdə israf mövzusuna lazım olan əhəmiyyət verilməz. Restoranlarda, evlərdə qab-qab yeməklər, kilolarla çörək, meyvə, tərəvəz asan şəkildə zibilliyə atılır. Halbuki, Allah israfın kiçik-böyük fərq etmədən hər şəklini haram etmişdir. Buna görə insanların düşüncəsizcə "bu xarab oldu", "bunları istifadə edə bilmərəm" kimi sözlərlə əllərindəkiləri atmaları deyil, bütün nemətləri xarab olma mərhələsinə gətirmədən qiymətləndirmənin yollarını axtarmaları lazımdır. Ancaq bu şəkildə nemətin haqqını vermiş olarlar, əks halda böyük bərəkətsizlik və Allaha qarşı nankorluq olar.

## 83. Mələklərin insanların canını alması necə olur? İnsan canı alınarkən mələyi görərmi?

Ölüm bir növ aləm dəyişdirməkdir. Ölən insanın ruhu ilə dünya aləmindəki bədəni arasında əlaqə kəsilir. İnsan ölüm anından etibarən ölüm mələklərini görə biləcək aləmə keçər. Və bu keçid, insanın sonsuz həyatının da başlanğıcıdır. Məhz fərqli aləmə keçid ilə birlikdə insanlar canlarını almağa gələn mələkləri görərlər, hətta gələn mələklər onlarla danışarlar. Ancaq hər kəsin canı eyni şəkildə alınmaz. Möminlərin canını almağa gələn mələklər ilə küfrün canını almağa gələn mələklərin etdikləri və danışdıqları bir-birindən tamamilə fərqli olur.

Möminlərin canlarını almağa gələn mələklər onlara "salam" deyərək canlarını gözəlliklə çəkib alarlar. Bu əsnada onları gedəcəkləri cənnət ilə müjdələyərlər. (Nəhl surəsi, 32)

İnkar edənlərin canlarını almağa gələn mələklər isə heç gözləmədikləri anda onların üzlərinə və arxalarına vurmağa başlayarlar. (Məhəmməd surəsi, 27) Canını ən dərindən əzabla çəkərlər və bu sırada inkarçının ayaqları bir-birinə dolanar. (Qiyamət surəsi, 29) Mələklər əllərini ona doğru uzadarkən ona sonsuza qədər davam edəcək, alçaldıcı və yandırıcı əzabı müjdələyərlər. (Ənam surəsi, 93)

## 84. Vəsvəsə nədir?

Şeytan insana hər istiqamətdən yanaşaraq onu Allahın yolundan uzaqlaşdırmağa çalışar. Bunun üçün çox fərqli oyunlar oynayar. Vəsvəsə də şeytanın bu oyunlarından biridir. Vəsvəsə şeytanın insanı boş şeylərlə məşğul etmək, əsl düşünməli olduğu əhəmiyyətli mövzulardan uzaqlaşdırmaq üçün pıçıldadığı sözlər, yayındırmalar, ürəyə verdiyi şübhələr, boş, mənasız və narahatlıq verən düşüncələrdir. Şeytanın bu cəhəti Quranda belə bildirilir:

**De: "Sığınıram insanların Rəbbinə, insanların Hökmdarına, insanların məbuduna! Vəsvəsə verənin, Allahın adı çəkiləndə isə hövlündən geri çəkilən şeytanın şərindən. O şeytan ki, insanların ürəklərinə vəsvəsə salır, (Nas surəsi, 1-5)**

Şeytan, insanın ağlına gətirdiyi Qurandan kənar düşüncələrlə onun sağlam düşünməsini əngəlləmək, onu, başda dini mövzular olmaqla dünya və axirət həyatına zərəri toxunacaq xülyalara qapdırmaq istəyər. Bir çox axmaq və əsassız düşüncəni, öz düşüncələriymiş kimi təlqin edib insanın özünə olan etibarını itirməyə çalışar. Quran ilə hərəkət etməyən kəs şeytanın bu hiyləsini fərq etməz və onun vəsvəsələrinə özünü qapdırıb davamlı boş düşüncələr içində tərəddüd edər. Şeytanın bu pıçıltıları insanın dini səhv tanımasına, Allahın gücünü gərəyi kimi təqdir edə bilməməsinə, davamlı şübhə içində olmasına da səbəb olur. Bunun nəticəsində Allahın böyüklüyünü, dünyada var olma məqsədini düşünmək yerinə, nə özünə, nə də birlikdə olduğu insanlara fayda verməyəcək mövzulara özünü qapdırar, həyatını keçirər. Nəticədə şeytan Qurandan xəbərsiz, din əxlaqından uzaq bu insan üzərində məqsədini reallaşdırmış, onun sonsuz əzabına vəsilə olmuş olar. İnkarçıların və günahkarların hər zaman şeytanın

təlqinlərinə açıq olduqları, şeytanın vəsvəsələri istiqamətində hərəkət etdikləri Quranda xəbər verilir:

**Şeytanların kimə nazil olduqlarını sizə xəbər verimmi? Onlar hər bir yalançıya və günahkara nazil olarlar. Şeytanlar vəhydən eşitdiklərini kahinlərə təlqin edirlər. Halbuki onların əksəriyyəti yalançıdır! (Şuəra surəsi, 221-223)**

## 85. İnsan vəsvəsədən necə xilas olar?

Allahın Quranda bildirdiyi kimi şeytanın hiyləsi çox zəifdir. (Nisa surəsi, 76) İman edənlər və Rəbbimizə təvəkkül edənlər üzərində təsiri yoxdur. Allah möminlərə özlərinə vəsvəsə gəldiyi zaman nə etmələri və bu vəsvəsədən necə xilas olmaları lazım olduğunu Quranda bildirmişdir. Qurana tabe olan möminlər özlərinə vəsvəsə gəldiyi zaman dərhal şeytandan Allaha sığınırlar. Qısa müddət içində ağıllarından keçən düşüncənin şeytana aid vəsvəsə olduğunu başa düşərlər. Heç bir vəsvəsəyə, ya da sıxıntıya qapılmadan, Allahı zikr edər və şeytanın bu pisliyindən xilas olarlar.

Allah Quranda özlərinə vəsvəsə gəldiyində möminlərin bunu dərhal düşünüb anlayacaqlarını belə bildirmişdir:

**Əgər şeytandan sənə bir vəsvəsə gəlsə, Allaha sığın. Şübhəsiz ki, O, Eşidəndir, Biləndir. Allahdan qorxanlara şeytandan bir vəsvəsə toxunduğu zaman Allahı xatırlayar və dərhal gerçəyi görərlər. (Əraf surəsi, 200-201)**

## 86. Quran oxunarkən nə edilməlidir?

Allah Quran oxunarkən, şeytandan Allaha sığınmağı və insanların susub dinləmələrini əmr etmişdir:

**Quran oxunduğu zaman onu dinləyin və susun ki, bəlkə sizə rəhm olunsun. (Əraf surəsi, 204)**

Cəmiyyətdə bir çox insan Allahın bu əmrini bilməz. Televizorda, radioda Quran oxunarkən insanlar gündəlik həyatlarına davam edər, bir tərəfdən də söhbət edərlər. Halbuki belə vəziyyətdə edilməli olan susub dinləməkdir. Əgər şərtlərdən ötrü səssizlik olmursa, o zaman televizor və ya radio bağlanıla bilər. Çünki əksini etmək Allahın fərz etdiyi hökmü yerinə yetirməmək olar.

## 87. Quranı oxumaq kifayətdirmi?

Bu gün özünü müsəlman olaraq xarakterizə edən bir çox insan, Allahın özündən nə istədiyini, nə edərsə gerçək müsəlman olacağını bilməz. Çünki həyatında bir dəfə belə Allahın ona göndərdiyi müqəddəs kitabı oxumamışdır. Halbuki Allah Quranı, insanları niyə yaratdığını və onlardan nə istədiyini bildirmək üçün göndərmişdir. Allahı tanımaq, Onu razı edərək cənnətinə getmək istəyən insanların Quranı çox yaxşı bilmələri lazımdır.

Ancaq cahil cəmiyyətlərdə Qurana olan baxış bucağı son dərəcə yanlışdır. Bu insanlardan bəziləri Quranı yalnız oxuyar, amma Allahın ona verdiyi nəsihətləri heç düşünməz, üzərinə götürməz, tətbiq etməz. Quran oxumaq ibadətdir, amma Quran, Allahı tanımaq, Allahın istədiklərini öyrənmək və həyata keçirmək üçün oxunar. Yenə bu insanlardan bəziləri Quranın yalnız dua kitabı olduğunu zənn edər. Dua edərkən Qurandan əzbərlədiyi ayələri anlamadan oxuyar. Əlbəttə Quranda Allah peyğəmbərlərin dualarından nümunələr vermişdir və möminlərin bu duaları nümunə götürmələri lazımdır. Ancaq Quranı yalnız dua kitabı olaraq düşünmək səhv və əskik baxış aspekti olar.

Allah möminlər üçün rəhbər olaraq Quranı nazil etmişdir və Quran, açıq-aşkar ayələri ilə möminləri zülmətlərdən nura çıxarır. Quranın bu xüsusiyyətini Allah belə bildirir:

**... sizə Allahdan bir nur (Muhəmməd) və açıq-aydın bir Kitab gəldi. Allah, Onun rizasını arayan şəxsləri bu Kitabla əmin-amanlıq yollarına yönəldir, onları Öz izni ilə zülmətlərdən nura çıxarır və düz yola yönəldir. (Maidə surəsi, 15-16)**

**... Bu, insanları öz Rəbbinin izni ilə qaranlıqdan nura – Qüdrətli, Tərifəlayiq Allahın yoluna çıxartmaq üçün sənə nazil etdiyimiz bir Kitabdır. (İbrahim surəsi, 1)**

Haqqında bəhs etdiyimiz insanların Quran haqqındakı yanlış inanclarından biri də, Quranın keçmiş ümmətlər üçün endirildiyi düşüncəsidir. Halbuki zamanın keçməsi, texnologiyanın inkişafı, kosmos və ya kompyuter əsrində olmağımız bir şeyi dəyişdirməz. 1400 il əvvəlki insanlar ilə bu gün yaşayan, ya da gələcəkdə yaşayacaq olan insanların ehtirasları, dünyaya baxış bucaqları, cahillikləri həmişə eynidir. Və bunların yerinə qoymaları lazım olan doğru məlumatın qaynağı da hər zaman Qurandır. Allah Qurana tabe olmamaq üçün onun "keçmişlərin nağılı" olduğunu iddia edən insanları cəhənnəm ilə xəbərdar edib qorxutmuşdur:

**Ayələrimiz ona oxunduğu zaman: "Bu, keçmişdəkilərin uydurduğu əfsanələrdir!" – deyir. Xeyr! Onların qəlbini qazandıqları günahlar bürümüşdür. Xeyr, həmin gün onlarla Rəbbi arasına pərdə çəkiləcək! Sonra onlar Cəhənnəmə girəcəklər (Mutaffifin surəsi, 13-16)**

## 88. Din hansı istiqamətləriylə sülh və hüzuru təmin edər?

Din hər şeydən əvvəl insanların vicdanlarına görə yaşamalarını tələb edir. Hər kəsin vicdanlı davrandığı ortamda isə çəkişmə, döyüş və ya hüzuru pozacaq hər hansı davranışa rast gəlinməz.

Din əxlaqını yaşayan insanlar ağıl və sağlam düşüncə sahibi kəslərdir və hadisələrə yanaşmaları da bu şəkildə olar. Bu səbəbdən daim həll yolu tapan və rahatlaşdırıcı mövqe sərgiləyərlər. Bu da olduqları ortamın rifah içində olmasını təmin edər.

Din əxlaqında ədalət vardır. Hər kəsə haqqı tam olaraq verilər, bu səbəbdən kimsənin öz haqqı üçün mübarizə aparmasına, bunun üçün müxtəlif yollara üz tutmasına ehtiyac qalmaz. Haqqı onsuz da digər dindar və vicdanlı kəslər tərəfindən ən gözəl şəkliylə qorunar.

Dindar insanlar Allahdan qorxduqları üçün cinayət, intihar, oğurluq kimi Allahın haram etdiyi hərəkətlərə girişməzlər. Axirətdə hesabını verə bilməyəcəkləri şeyi əsla etməzlər.

Din əxlaqında şəxsi mənfəətlər üçün hərislik etmək yoxdur. Hər kəs dinin ortaq mənfəəti üçün gücünün yetdiyindən çoxunu etməklə məsuldur. Bu səbəbdən maraqların qarşıdurması nəticəsində meydana gələ biləcək narahatlıq ola bilməz.

Dində təzyiq və məcburiyyət yoxdur. Möminlər yalnız dinin göstərdiyi həqiqətləri izah etməklə məsul tutulmuşlar.

Həmçinin, Quranda Allahın iman edənlərin üzərinə xüsusi olaraq güvən duyğusu və hüzur endirdiyi bildirilir. Bu, saleh möminlərə Allah qatından verilən böyük nemətdir. Bu gerçək Quranda belə bildirilir:

**Möminlərin imanı üstünə iman artırmaq üçün onların qəlbinə rahatlıq göndərən Odur. Göylərin və yerin orduları Allahındır. Allah Biləndir, Müdrikdir. (Fəth surəsi, 4)**

Burada izah edilənlər din əxlaqının insanlara təqdim etdiyi gözəl ortamın çox ümumi tərifidir. Din istər insanlar, istərsə də cəmiyyətlər baxımından dünyada yaşana biləcək ən hüzurlu, ən ideal, ən qüsursuz ortamı təqdim edir.

## 89. Quranda nəsihət edilən ticarət əxlaqı necədir?

Mömin həyatı boyunca etdiyi hər işi Allahın rizası və məmnuniyyəti üçün edər. Etdiyi iş nə olursa olsun ona əsl məqsədini unutdurmaz. Allah Quranda möminlərdən bəhs edərkən ticarətin və ya alış-verişin onlara əsl məqsədlərini unutdurmadığını belə bildirmişdir:

**O kişilər ki, nə ticarət, nə də alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmır. Onlar qəlblərin və gözlərin çevriləcəyi bir gündən qorxurlar. (Nur surəsi, 37)**

Allahın möminlərdən istədiyi üstün əxlaq vardır və möminlər hansı iş üzərində olurlarsa olsunlar bu əxlaqın gərəklərini yerinə yetirərlər. Ticarət edərkən də yenə dürüst, yenə səmimi, yenə fədakar, yenə çalışqan, yenə ədalətli, yenə təvazökardırlar. Yenə bütün diqqətləri Allahın razılığında və Onun halal-haram sərhədlərindədir. Bunlarla yanaşı,. Allah möminlərə ticarət edərkən başqalarının hüquqlarına təcavüz etməmələrini, ölçünü və çəkini tam tutmalarını, insanların əşyalarını dəyərdən salmamalarını əmr etmişdir. (Hud surəsi, 85)

Həmçinin, ticarət edərkən dürüst olmanın, insanlara haqsızlıq etməməyin və belə gözəl əxlaq göstərərək Allahı razı etmənin daha xeyirli olacağı İsra surəsində bu şəkildə bildirilmişdir:

**Ölçdükdə ölçüyə tam riayət edin, çəkdikdə düzgün tərəzi ilə çəkin. Bu, daha xeyirli və nəticə baxımından daha yaxşıdır. (İsra surəsi, 35)**

## 90. Təvəkkülsüzlüyün insan ruhunda yol açdığı zərərlər nələrdir?

Təvəkkül insanın hər işində Allaha güvənməsi, tək qoruyucusunun Allah olduğunu bilərək Ona təslim olması mənasına gəlir. Hadisələrin hər zaman Allahın idarəsi altında reallaşdığını bilən möminlər Onun, Ona iman edənləri hər zaman dəstəklədiyini, onlara kömək etdiyini də bilirlər. Əlbəttə bu ruh halını yaşayan insanın ürəyi hər zaman hüzur və güvən içindədir. Təvəkkülü yaşamayan, özünü Allaha təslim etməmiş insanlar isə həyatlarını böyük qorxu, narahatlıq, sıxıntı, çaxnaşma, təhlükə, narazılıq, kin, qəzəb, depressiya, peşmanlıq, qısqanclıq kimi hisslər içində keçirərlər. Allah inkarları səbəbi ilə bu insanların qəlblərinə böyük sıxıntı yerləşdirər. Təvəkkülün rahatlığını, hüzurunu, dincliyini onlara yaşatmaz. Allaha güvənməyənlərin ürəyində yaranan bu sıxıntı Quranda belə təsvir edilmişdir:

**Allah kimi doğru yola yönəltmək istəsə, onun köksünü İslam üçün açar, kimi azdırmaq istəsə, onun köksünü, sanki o, göyə çıxırmış kimi daraldar və sıxıntılı edər. Allah iman gətirməyənləri beləcə cəzalandırar. (Ənam surəsi, 125)**

**Ancaq tək Allaha ibadət edənlərdən və Ona şərik qoşmayanlardan olun! Kim Allaha şərik qoşsa, sanki o, göydən düşər, quşlar onu alıb aparar, yaxud külək onu sovurub uzaq bir yerə atar. (Həcc surəsi, 31)**

## 91. Feli dua necə edilər?

Feli dua insanın şifahi dua edərək istədiyi şeyi, əlindən gələn bütün səyi göstərib, o işin reallaşması üçün lazım olan hər şeyi yerinə yetirərək istəməyə davam etməsidir. Məsələn, insan su istəyir, amma suyun önünə gəlməsini gözləməz, gedər suyu stəkanına süzər və sonra suyu içər. Yəni Allahdan istədiyi şeyin reallaşması üçün Allahın ona öyrətdiyi səbəbləri və qanunları əlindən gəldiyi qədər yerinə yetirib nəticəsini Allahdan gözləyər. Bunun kimi, insan imtahanı qazanmağı çox istəyər, Allaha bunun üçün dua edər, əlbəttə bunun üçün lazımlı işləri də görər, öyrənməli olanları öyrənər, işini əngəlləyəcək, diqqətini dağıdacaq ortamlardan uzaq durar və bu səyinin nəticəsində də Allah ona müvəffəqiyyət verər.

İnsanların bir qismi, dua haqqında yanlış inanca sahibdirlər. Bu kəslərə görə Allaha dua edildikdən sonra bir küncə çəkilmək və duanın nəticəsini gözləmək lazımdır. Halbuki bu səmimi rəftar deyil. Çünki bir şeyi həqiqətən istəyən adam onun üçün həm şifahi, həm də feli duanı yerinə yetirməlidir. Ancaq hər cür feli cəhdi yerinə yetirib “mən hər şeyi etdim” deyən və Allaha şifahi olaraq dua etməyi unudan insanın da səhvinə düşməmək lazımdır. Hər iki dua da bir yerdə edilməlidir.

## 92. Bəzi cəmiyyətlərdəki degenerasiya ilə dinsizlik arasında əlaqə nədir?

Allahın insanlara göndərdiyi dinə təslim olmağı qəbul etməyən insanlar Quranda izah edilən gözəl əxlaqı yaşaya bilməzlər və yenə Quranda insanlara bildirilmiş olan sərhədləri qoruya bilməzlər. Allahdan qorxub çəkinmədikləri və axirətə də inanmadıqları üçün etdiklərinin hesabını vermə qorxusunda olmazlar. Buna görə dinin yaşanmadığı cəmiyyətlər hər cür əxlaqsızlığı və pisliyi qorxmadan, nəticəsini düşünmədən yaşayan insanlardan ibarətdir. Belə cəmiyyətlərin sürətli və böyük miqyaslı degenerasiya prosesinə girməsi də qaçılmazdır. Çünki bu insanlar qadağan edildiyi halda, rahatlıqla oğurluq edər, insanlara zərər verər, qəzəblənər, adam öldürər, başqalarının hüquqlarına təcavüz edər, yalan danışar, özlərindən başqa heç vaxt heç kəsə dəyər verməz, hər şeyi mənfəət qarşılığında edər, özlərindən daha gücsüz birini mütləq əzərlər. “Mən dindar deyiləm, amma qəzəbli də deyiləm” deyən insan bir gün dözə bilməyəcəyi hadisə ilə qarşılaşar və özündə hər cür pisliyi etmə haqqını görər. Elə qəzəblənər ki, yeri gəldiyində adam öldürməyə belə cəhd edər.

Məhz dinsizlik, hər hansı sərhəd tanımadığı üçün, cəmiyyətlərin bütün insani duyğularını öldürər. Və fövqəladə degenerasiyanın yaşanmasına səbəb olar. Dinsiz cəmiyyətlərdə, dinin insanlara gətirdiyi ədalət, yumşaq xasiyyətlilik, müvəffəqiyyət, tərbiyə, mərhəmət və sevgi əsla olmaz. Buna görə dinsizlik cəmiyyətdəki degenerasiyanın əsas qaynağıdır.

## 93. Cinlər necə varlıqlardır? Cinlərin də iman edəni və ya etməyəni varmı? Axirətdə onların da yaşayacağı cənnət və cəhənnəm olacaqmı?

Cinlər eynilə insanlar kimi Allaha ibadət etmələri üçün, lakin insan kimi torpaqdan deyil, atəşdən yaradılmış, insanlardan fərqli aləmdə yaşayan varlıqlardır. (Zəriyət surəsi, 56), (Hicr surəsi, 27) Allah cinlərə də iman etmələri üçün elçilərini göndərir. (Ənam surəsi, 130) Onların içlərində də iman edənlər və iman etməyənlər vardır. Allah cinlərin bu vəziyyətini ayəsində belə xəbər verir:

**Sözsüz ki, bizlərdən müsəlmanlar da var, doğru yoldan sapanlar da. Müsəlman olan şəxslər doğru yol tutanlardır. (Cin surəsi, 14)**

Eyni zamanda aralarında insanlarda olduğu kimi peyğəmbərlərə düşmənçilik edənlər də vardır:

**Beləcə hər peyğəmbər üçün insan və cin şeytanlarından düşmənlər müəyyən etdik ... (Ənam surəsi, 112)**

Və cinlər də eynilə insanlar kimi axirətdə etdiklərinin qarşılığını görəcəklər. Allaha iman edib, peyğəmbərlərin xəbərdarlıqlarını dinləyənlər əsla haqsızlığa məruz edilməyib, əcirlərinin qarşılığını alacaqlar. İnkarçı olan cinlər isə, inkarçı insanlarla birlikdə cəhənnəmə atılacaqlar. Allah bu qəti həqiqəti Quranda bildirmişdir:

**Biz Cəhənnəm üçün bir çox cinlər və insanlar yaratdıq. Onların qəlbləri var, onunla anlamazlar; gözləri var, onunla görməzlər; qulaqları var, onunla eşitməzlər. Onlar heyvan kimidirlər, hətta daha çox azğınlıqdadırlar. Qafil olanlar da məhz onlardır. (Əraf surəsi, 179)**

## 94. Cinlər gələcəkdən xəbər verə bilərmi?

Allah Quranda, qeybi Özündən başqa kimsənin qətiyyən bilmədiyini və bilməyə də əsla gücü çatmayacağını bir çox ayədə bildirmişdir. Bu ayələrdən biri belədir:

**De: "Allahdan başqa göylərdə və yerdə olanların heç biri qeybi bilməz. Onlar nə zaman diriləcəklərini belə bilmirlər". (Nəml surəsi, 65)**

Cinlər də Allahın diləməsi xaricində heç bir şəkildə gələcəklə əlaqədar məlumat əldə edə bilməzlər. Quranda cinlərin qeybdən məlumat almağa çalışdıqlarını, amma bunu bacara bilmədiklərini, özlərinin də bunu etiraf etdiyini izah edən ayələr vardır. Cin surəsində bəhs edilən bu ayələr insanların cinlər haqqındakı səhv inanclarını da ortadan qaldıracaq şəkildədir. Həmçinin Quranda hz. Süleymana xidmət edən cinlərdən də bəhs edilir. Və bu cinlərin hz. Süleymanın ölümündən çox sonra xəbər tutduqları bildirilir. Bu səbəbdən cinlərdən fayda görmək ümidiylə onlara sığınan insanlar çox böyük səhv etdiklərini bilməlidirlər. Çünki cinlərin gələcəyə istiqamətli məlumat əldə etmələri -Allahın diləməsi xaricində mümkün deyil. Quranda hz. Süleyman hekayəsiylə də cinlərin qeybə istiqamətli məlumat daşımadıqlarına diqqət çəkilmişdir:

**Süleymanın ölümünə hökm verdiyimiz zaman onun öldüyünü cinlərə ancaq onun əsasını yeyən bir ağac qurdu göstərdi. Süleyman yerə yıxıldıqda cinlərə bəlli oldu ki, əgər onlar qeybi bilsəydilər, alçaldıcı əzaba məruz qalmazdılar. (Səba surəsi, 14)**

Cin surəsində cinlərin qeybdən xəbər öyrənə bilmədikləri ilə əlaqədar bildirilən digər ayələr isə belədir:

**Biz səmaya qalxdıqda onun sərt gözətçilər və yandırıb-yaxan alovlarla dolu olduğunun şahidi olduq. Biz əvvəllər gizlicə qulaq asmaq üçün göyün bəzi sahələrində oturardıq. Amma kim bunu indi etmək istəsə, o, pusquda gözləyən yandırıcı alova rast gələr. Biz bilmirik, bununla yerdəkilərə pislik etmək qəsd edilmişdir, yoxsa Rəbbi onları doğru yola yönəltmək istəmişdir? (Cin surəsi, 8-10)**

## 95. Yer üzündə ilkin həyatın necə yarandığına dair suallara cavabı fosil qeydlərinə baxaraq tapmaq olarmı?

Fosillərə baxaraq canlıların necə ortaya çıxdıqları sualının cavabını asanlıqla verə bilərik. Mürəkkəb canlılarla əlaqədar fosillərə ilk olaraq, günümüzdən təxminən 520-530 milyon il əvvəlki dövr olan Kembri dövrünə aid təbəqələrdə rast gəlinir.

Kembri qayalıqlarında tapılmış olan fosillərdə, ilbizlərə, trilobitlərə, süngərlərə, soxulcanlara, meduzalara, üzən xərçəngkimilər və dəniz zambaqlarına rast gəlinir. Bu onurğasız canlıların hamısı bir anda və təkamül nəzəriyyəsinin iddia etdiyinin əksinə ataları olmadan ortaya çıxmışlar. Canlıların bu şəkildə, möcüzəvi olaraq birdən-birə ortaya çıxışları, təkamülçü elm adamları tərəfindən "Kembri partlayışı" olaraq da adlandırılır.

Necə olur ki, bu qədər çox növdə canlının birdən ortaya çıxdığı sualı təkamülçülərin heç bir şəkildə cavab verə bilmədikləri sualdır. Elə ki, təkamülün dünya səviyyəsindəki ən əhəmiyyətli müdafiəçilərindən olan İngilis ateist bioloq Riçard Dokinz, bu həqiqət qarşısında bunları söyləyir:

*...Kembri təbəqələri əsas onurğasız qrupları tapdığımız ən qədim qatlardır. Bunlar, ilk olaraq ortaya çıxdıqları hallarıyla, olduqca təkamül keçirmiş haldadırlar. Sanki heç bir təkamül tarixinə sahib olmadan, o halda, orada meydana gəlmiş kimidirlər. Əlbəttə ki, bu ani ortaya çıxma yaradılışçıları olduqca məmnun edir. (Richard Dawkins, The Blind Watchmaker, London: WW Norton 1986, s.229)*

Kembri partlayışı, təkamülçü kimi Dokinzin də etiraf etdiyi kimi, canlıların yer üzündə bir anda və xüsusi yaradılışla var olduqlarının dəlillərindən biridir ...

## 96. Milyonlarla il bundan əvvəl yaşayan canlılar necə quruluşlara sahib idilər?

Bundan təxminən 500 milyon il əvvəl yaşamış olan canlılar da dövrümüzdəki canlılar kimi mürəkkəb quruluşlara sahib idilər. Kembri dövründə ortaya çıxan canlı fosilləri, elm adamları və xüsusilə də təkamülçülər baxımından son dərəcə təəccüblü olmuşdur. Çünki təkamül nəzəriyyəsinin iddiasına görə, o dövrdə ortaya çıxan canlılarda bugünkü canlılardan fərqli, daha "primitiv" sayıla biləcək sistemlərin mövcud olması lazımdır.

Halbuki sahib olduqları göz, qəlsəmə, qan dövranı sistemi kimi mürəkkəb quruluşlar bu canlıların primitiv olmadıqlarının dəlilidir. Məsələn, Kembri dövrü canlılarından olan trilobitlər, indiki böcəklərdə də mövcud olan cüt mərcəkli pətək göz quruluşuna sahib idilər. Kompleks quruluşu olan bu tribolit gözlərinin pətək şəklində yüzlərlə hissəsi vardı. 530 milyon il əvvəl mövcud olan bu qüsursuz göz quruluşu qarşısında təkamülçülər də heyrətlərini ifadə etmək məcburiyyətində qalmışlar.

Harvard, Roçester və Çikaqo universitetlərindən təkamülçü geologiya professoru David Raup; *"Trilobitlərin gözü, ancaq zəmanəmizin yaxşı təhsil almış və son dərəcə istedadlı*

*optik mühəndisi tərəfindən inkişaf etdirilə biləcək dizayna sahib idi" (David Raup, 2Conflicts Between Darvin and Paleontology", Bulletin, Field Museum of Natural History, cild 50, 1979 yanvar, s. 24)* deyərək tribolit gözünün təsadüfən meydana gəlməsinin qeyri-mümkünlüyünü də qəbul etmək məcburiyyətində qalmışdır.

## 97. Dinozavrların milçək tutmaq istəyərkən qanadlandığını iddia edən təkamülçülər milçəklərin mənşəyini açıqlaya bilərmi?

Təkamülçülər milçəklərin mənşəyi ilə əlaqədar heç bir izah verə bilməzlər. Amma maraqlıdır ki, kiçik bir ağcaqanadın necə meydana gəldiyini açıqlaya bilməzkən, böyük dinozavrların quşlara çevrilməsinə öz ağıllarına görə izah gətirməyə çalışırlar. Üstəlik, dinozavrların milçək ovlamaq üçün qabaq ayaqlarını bir-birinə çırparkən ayaqların qanadlara çevrildiyi kimi əfsanəvi iddia irəli sürmüşlər. Hələ kiçik bir milçəyə şərh gətirə bilməyən nəzəriyyənin ondan çox daha kobud bir canlının meydana gəlməsindən bəhs etməsi əlbəttə mənasızdır.

Təkamülçülərin milçəklərin mənşəyi məsələsinə heç toxunmamalarının əhəmiyyətli səbəbləri vardır. Əvvəlcə, milçəklər son dərəcə qüsursuz, hətta dövrümüzün texnologiyasıyla belə tam olaraq təqlid edilə bilməmiş uçuş mexanizminə sahibdirlər. Bir milçəyin saniyədə 500-1000 dəfə hərəkət etdirə bildiyi mükəmməl qanad sistemi vardır. Üstəlik bu sistem elə qüsursuz planlanmışdır ki, milçək bu heyrətamiz sürətdəki hərəkəti hər iki qanadı üçün bərabər zamanlı olaraq edə bilər. Bununla yanaşı, kompleks tənəffüs sisteminə də malikdir. Uçuş üçün lazım olan oksigeni digər canlılara görə çox daha sürətli və məhsuldar istifadə edə bilər.

İngilis bioloq Vudn Robin milçəkdəki üstün yaradılışı belə təsvir edir:

*Milçək qanadlarının fəaliyyətini öyrəndikcə, sahib olduqları dizaynın nə cür qüsursuz və həssas olduğunu daha yaxşı anlayırıq ... Son dərəcə elastik xüsusiyyətlərə sahib hissələr, havanın ən yaxşı şəkildə istifadə edilə bilməsi üçün, lazımlı qüvvələr qarşısında lazımlı elastikliyi göstərəcək şəkildə həssaslıqla bir yerə gətirilmişlər. Milçək qanadlarıyla ayaqlaşa biləcək texnoloji quruluş yox kimidir. (J. Robin Wootton, "The Mechanical Design of Insect Wings", Scientific American, cild 263, 1990 noyabr, s.120)*

## 98. Fillər, sincab və digər məməlilər tək kökdən törəyə bilərmi?

Təkamül nəzəriyyəsinin elmdən kənar iddialarına görə sürünənlər həm quşların, həm də məməlilərin atasıdırlar. Məməli olaraq xarakterizə edilən canlılar ümumi xətləriylə düşünüldüyündə belə bir iddianın qeyri-mümkün olduğu rahatlıqla görüləcək. Məsələn, pələngləri, inəkləri, ayıları, filləri, delfinləri, balinaları, siçanları, yarasaları düşünək. Bu məməli növləri arasında son dərəcə böyük quruluş müxtəliflikləri vardır. Üstəlik, bu canlıların hər birinin öz ehtiyaclarına uyğun, xüsusi mexanizmləri vardır. Məsələn, delfinlər son dərəcə həssas sonar

sisteminə sahibdirlər. Ayıların isə yaşadıqları bölgənin iqlim şərtlərinə uyğun mexanizmləri vardır.

Bu müxtəlikliklərin təkamülçülər baxımından necə böyük çətinlik meydana gətirdiyini təkamülçü zooloq Erik Lombard belə ifadə etmişdir:

*Məməlilər sinfi içində təkamül qohumluq əlaqələri (filogenetik əlaqələr) qurmaq üçün bilgi axtaranlar, məyus olacaq. (Eric Lombard, "Review of Evolutionary Priniples of the mammalian Middle Ear, Gerald Fleischer", Evolution, cild 33, 1979 dekabr, s.1230)*

Bu müxtəlifliklərin xaricində fosil qeydləri də bütün canlıların olduğu kimi məməlilərin də bugünkü qüsursuz quruluşları ilə, bir anda ortaya çıxdıqlarını heç bir şəkildə təkamül prosesi yaşamadıqlarını göstərir.

## 99. Canlı hüceyrələr təsadüfən meydana gələ bilərmi?

Xeyr ola bilməzlər, çünki hüceyrələr öz-özlərinə, ya da təsadüfən əmələ gəlməyəcək kompleksikdə quruluşa sahibdirlər. Bir hüceyrədə olan xüsusi iş sistemləri, rabitə sistemləri, hüceyrə içi və xarici nəqliyyatı təmin edən sistemlər, maddə alış-verişinə nəzarət edən sistemlər, məlumatların yığıldığı mərkəzlər kimi son dərəcə kompleks strukturlar, ancaq mikroskopların köməyiylə görülə biləcək qədər kiçik sahəyə sığdırılmışdır. Təkamülçü elm adamlarından W.H Dorp: "*Canlı hüceyrələrinin ən bəsitinin sahib olduğu mexanizm belə, insan oğlunun indiyə qədər icad etdiyi, hətta xəyal etdiyi bütün maşınlardan çox daha kompleksdir" (WR Bird, The Origin of Species Revisited., Nashville: Tomas Nelson Co., 1991, s.298-299)* deyərək hüceyrənin quruluşundakı mükəmməlliyi vurğulayır.

20-ci əsr texnologiyası ilə istehsal edilməmiş olan, bu qədər qüsursuz quruluşun öz-özünə meydana gəlmə ehtimalı sıfırdır. Hüceyrəni, bütün bu qüsursuz quruluşuyla Allah yaratmışdır.

## 100. Hüceyrənin nüvəsində olan DNT molekulunun təsadüfən formalaşması mümkündürmü?

DNT, son dərəcə mürəkkəb quruluşu olan molekuldur. Bu molekulda insan bədəni ilə əlaqədar bütün məlumatlar kodlaşdırılmış halda mövcuddur. Boy, saç, göz və dəri rəngi kimi xüsusiyyətlərlə bərabər, bədəndəki 206 sümüyün, 600 əzələnin, 10.000 eşitmə siniri şəbəkəsinin, 2 milyon optik sinir şəbəkəsinin, 100 milyard sinir hüceyrəsinin və 100 trilyon hüceyrənin planları tək bir hüceyrənin DNT-sində yerləşdirilmişdir. DNT-dəki bu məlumatları kağız üzərinə yazsaq, təxminən 500 səhifəlik 900 clddən ibarət olan nəhəng kitabxana meydana gətirməyimiz lazımdır. Amma bu məlumatların hamısı, cildlərlə ensiklopediyalarda deyil, gözlə görülə bilməyən DNT-nin "gen" adı verilən hissələrində şifrələnmişdir.

Genlər isə nükleotid adı verilən dörd bəzi müəyyən sıra ilə düzülməsiylə meydana gələr. Bu sıralamada meydana gələ biləcək hər hansı bir səhv o geni faydasız hala gətirər. İnsan bədənində isə ümumi olaraq 200.000 gen vardır. Bu genləri təşkil edən milyonlarla nukleotidin hər birinin doğru ardıcıllıqda olmaları şərtdir. Bu ardıcıllığın təsadüfən meydana gəlmə ehtimalı ilə əlaqədar riyazi hesablar aparıldığında bunun qeyri-mümkün olduğu görülər. Məsələn, bu mövzuda təkamülçü bioloq olan Frenk Salisberinin apardığı hesablamaya görə, belə bir ehtimal $4^{1000}$ -də birdir. $4^{1000}$ -də bir, $10^{620}$-də birə bərabərdir ki, bu hesab 10-un yanına 620 dənə sıfır əlavə edilən rəqəm, ağılın qavrama sərhədlərindən çox uzaq rəqəmdir.

Nukleotidlərin təsadüfən bir yerə gələrək DNT və RNT-ni meydana gətirmələrinin qeyri-mümkünlüyünü, təkamülçü elm adamı Paul Aqer belə ifadə etmişdir:

*Təsadüfi kimyəvi hadisələr sayəsində nükleotidlər kimi kompleks molekulların ortaya çıxışı mövzusunda məncə iki mərhələni bir-birindən ayırmaq lazımdır; bir-bir nukleotidlərin istehsal olunması -ki bu bəlkə mümkün ola bilər- və bunların xüsusi ardıcıllıq halında bir-birinə bağlanması. Məhz bu ikincisi, qeyri-mümkündür. (Paul Auger, De La Physique Theorique a la Biologie, 1970, s. 336)*

**... “Sən pak və müqəddəssən! Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur! Həqiqətən, Sən Bilənsən, Müdriksən!” (Bəqərə surəsi, 32)**

**Biz onu (Quranı) sənin dilinlə asanlaşdırdıq ki, onunla müttəqilərə müjdə verəsən və inadkarlara xəbərdarlıq edəsən. (Məryəm surəsi, 97)**

**Ey insanlar! Rəbbinizdən sizə bir öyüd-nəsihət, kökslərdə olana bir şəfa, möminlərə doğru yol göstəricisi və mərhəmət gəlmişdir. (Yunis surəsi, 57)**

**Allah Öz ayələrini sizə belə izah edir. Allah Biləndir, Müdrikdir (Nur surəsi, 18)**

**Ey insanlar! Sizə Rəbbinizdən bir dəlil gəldi və Biz sizə parlaq bir nur (Quran) nazil etdik. (Nisa surəsi, 174)**

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

## Keçilməz ilk pillə: həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

## Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri “spontane generation” adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin “Növlərin mənşəyi” adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

## XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

“Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb”. *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

## Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

**- Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**

**- Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**

**- Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**

**-Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel “Scientific American” jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

“Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir”. *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

## Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: “Növlərin mənşəyi, təbii seleksiya yolu ilə...”

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və “Növlərin mənşəyi” adlı kitabında: **“Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz”**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

## Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər

meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

## Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç

bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

## Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları “ara-keçid forması” adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin “Növlərin mənşəyi”ndə bunu belə açıqlamışdır:

“Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər”. *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, “Növlərin mənşəyi” kitabının “Nəzəriyyənin qarşısında duran çətinliklər” (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

“Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?” *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

## Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". (Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

## İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)*

Təkamülçülər "*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

**Darvin formulu!**

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri,

bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər**. Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır**. Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

## Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün

gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

## Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss

kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

## Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla,

çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

**Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir**

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar

üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən bilənsən, müdriksən!**

**(Bəqərə surəsi, 32)**